/AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

AİDA RƏCƏBOVA

# POLİTOLOGİYA

*Dərs vəsaiti*

Bakı-2014

## MÜNDƏRİCAT

Giriş ..........................................................................................

**POLİTOLOGİYA, ONUN PREDMETİ VƏ ELMLƏR SİSTEMİNDƏ YERİ**.............................................................
Politologiyanın müstəqil elm kimi təşəkkül tapması, predmeti və tədqiqat obyekti ...................................................................
Politologiyanın kateqoriyaları, metodları və funksiyaları..........
Sosial-siyasi elmlər sistemində politologiyanın yeri və rolu.....
**SİYASİ FİKRİN İNKİŞAFININ ƏSAS MƏRHƏLƏLƏRİ..................................**
Qədim dünyada siyasət və hakimiyyət haqqında təsəvvürlər.
İntibah və maarifçilik dövrlərinin siyasi ideyaları.
19- 20-ci əsrlərin siyasi ideyaları.
**AZƏRBAYCAN XALQININ SİYASİ FİKİR TARİXİNDƏN...........................................**
Azərbaycanda quldarlıq və erkən feodalizm dövründə siyasi təlimlər.
Orta əsrlərdə Azərbaycanda siyasi ideyaların inkişafı.
Yeni dövr azərbaycanda ictimai-siyasi fikrin inkişafı.
**SİYASƏT VƏ SİYASI MÜNASİBƏTLƏR....**
Cəmiyyətin siyasi həyatı.
Siyasət anlayışı.
Siyasət: mənafelər, sərvətlər və dəyərlər.
Siyasətin subyektləri.
Siyasətin məqsədi, vəzifələri və funksiyaları
**SİYASİ HAKİMİYYƏT VƏ ONUN DAŞIYICILARI..........................................**
Siyasi hakimiyyət anlayışı. Hakimiyyətin məzmunu və tipləri
Siyasi hakimiyyətin subyektləri.
Siyasi elita. Elita nəzəriyyələri.
Siyasi liderlik.
**SİYASİ HAKİMİYYƏTİN SOSİAL ƏSASLARI....................................................**
Cəmiyyətin sosial diferensiyası və onun siyasi proseslərə təsiri.
Sosial siyasət.
Milli siyasət.
**SİYASİ SİSTEM ANLAYIŞI.........................**
Siyasi sistem nəzəriyyələri.

Siyasi sistemlərin təsnifatı və funksiyaları.
Siyasi sistemlərin strukturu
Azərbaycan Respublikasının siyasi sistemi.
**SİYASİ SİSTEMDƏ DÖVLƏT VƏ CƏMİYYƏT..........................................**
Dövlətin meydana gəlməsi və onun mənşəyi haqqında nəzəriyyələr.
Dövlətin əlaмətləri və funksiyaları. Dövlətin formaları.
Vətəndaş cəmiyyəti və hyquqi dövlət.
**SİYASİ REJİMLƏR...................................**
Siyasi rejimlərin mahiyyəti və təsnifatı.
Totalitarizm və avtoritarizm.
Qeyri-demokratik rejimlərdən demokratik rejimlərə keçid.
**SİYASİ PARTİYALAR.................................**
Siyasi partiya anlayışı
Partiyaların təsnifatı və funksiyaları
Partiya sistemləri
**DEMOKRATİYA: ƏSAS TƏSİSATLAR.........**
Sosial hadisə kimi demokratiyanın mahiyyəti.
Demokratiya formalarının tarixi təkamülü.
Müasir demokratiya nəzəriyyələri.
Demokratiyanın müasir prinsipləri və normaları.Demokratiyanın formaları.
İnsan hüquqları və azadlıqları.
**PARLAMENT. SEÇKİ.................................**
Parlamentin meydana gəlməsi və tarixi təkamülü.
Parlamentin formaları, strukturu, funksiyaları.
Azərbaycan parlamentinin tarixi və müasir dövrü.
Seçkinin mahiyyəti və funksiyaları.
Seçki sistemləri.
**SİYASİ ŞÜUR VƏ SİYASİ MƏDƏNİYYƏT..........................................**
Siyasi şüur anlayışı.
Siyasi mədəniyyət.
Siyasi mədəniyyətin tipləri.
**SİYASI İDEOLOGIYA VƏ SİYASİ SOSİALLAŞMA.....................................**
Siyasi ideologiya anlayışı.
Ideologiyaların forma вə funksiyaları.

# Giriş

Son illərdə ali məktəblərdə humanitar fənlərin tədrisi sahəsində müasir tələblər əsasında yeni dərsliklər və dərs vəsaitləri hazırlanmışdır. Belə dərs vəsaitlərindən biri də "Politologiya" kursu üzrə dərs vəsaitidir. Bu dərslikdə Politologiya kursu üzrə bakalavr pilləsi üçün bütün mövzular əhatə olunmuşdur. Bu dərslikdə tələbələrin siyasi biliklərə yiyələnməsi cəmiyyətin demokratikləşməsinə, dövlət təsisatlarının və ictimai təşkilatların fəaliyyətində səmərəli formalardan istifadə olunmasına təsir göstərir.

Politologiya fənninin tədrisi tələbə gənclərin cəmiyyətdə baş verən sosial-siyasi hadisə və prosesləri düzgün istiqamətdə dərk etməsinə, onların dünya görüşünün formalaşmasına, cəmiyyətin siyasi həyatında fəal iştirakına güclü təsir göstərən amildir. Hazırlanmış «Politologiya» kursu üzrə dərs vəsaiti elmi-nəzəri və metodik baxımdan aktualdır. Mövzular bir sıra hallarda dövrümüzdə baş verən sosial siyasi hadisələrlə əlaqələndirilmişdir. Burada əsas məqsəd tələbələrin siyasi elmin əsaslarına dərindən yiyələnməsinə, öz siyasi mövqelərini real zəmin üzərində formalaşdırmaqlarına yardımçı olmaqdır.

Dərs vəsaiti haqqında tənqidi qeydlərini, rəy və təkliflərini bildirəcək hər bir kəsə qabaqcadan minnətdar olduğumuzu bildiririk.

# I. POLİTOLOGİYA, ONUN PREDMETİ VƏ ELMLƏR SİSTEMİNDƏ YERİ

## Politologiyanın müstəqil elm kimi təşəkkül tapması, predmeti və tədqiqat obyekti

Politologiya siyasət haqqında elmdir. Politologiya "politika" sözündən götürülmüşdür. Politika – yunan sözüdür, dövlət, hakimiyyət münasibətlərinin tənzimlənməsi, insanların, cəmiyyətin idarə olunması barədə elm hesab olunurdu. Politika – sözünü ilk dəfə Yunan filosofu Aristotel işlətmişdir. Aristotel yazırdı ki, insan sosial varlıq olduğundan siyasət sosial varlıq kimi onun təbiətində kök salıb. İnsan öz təbiətinə görə həm də siyasi varlıqdır. Belə çıxır ki, siyasətin tarixi insanlığın tarixi ilə yaşıddır.

Orta əsrlərdə siyasət sözünü N.Tusi işlədib. O, belə deyirdi: "Cəmiyyətdə müəyyən hərc-mərcliyə yol verməmək üçün müəyyən tədbirlərə ehtiyac duyulur ki, bu da siyasətdir. Tədbir olmazsa, nizam-intizam aradan qalxar, insan cəmiyyətdə lazım olduğu kimi inkişaf etməz."

Politologiyanın bir tədris fənni kimi meydana gəlməsi Frensis Leyberin adı ilə bağlıdır. Onun 1857-ci ildə ABŞ-ın Kolumbiya universitetində siyasi nəzəriyyə üzrə oxuduğu mühazirələr, burada 1880-ci ildə Con Bercess tərəfindən ali siyasi məktəb yaradılması üçün zəmin hazırladı. Sonralar Con Hopkins universiteti və ABŞ-ın digər aparıcı tədris müəssisələri də həmin təşəbbüsə qoşularaq, politologiyanın şöbələrini təsis etdilər.

Politologiyanın coşqun inkişafı XX yüzilliyə təsadüf edir. 1903-cü ildə Amerika Siyasi Elmlər assossiasiyasının (ASEA), 1949-cu ildə Yuneskonun nəzdində Beynəlxalq Siyasi Elmlər assossiasiyasının yaradılması politologiyanın bir elm və tədris fənni kimi geniş inkişafına güclü təkan verdi və onun aşağıdakı əsas istiqamətlərini göstərmişdi:

1. Siyasi təsisatlar
2. Partiyalar, qruplar və ictimai rəy
3. Beynəlxalq Münasibətlər
4. Siyasət tarixi

Politologiyanın tədqiqat obyekti – siyasi reallıqdır. Yəni, cəmiyyətin siyasi həyatı fəlsəfə, sosiologiya, siyasi sosiologiya, dövlət, hüquq, siyasi psixologiya, elmlər tərəfindən öyrənilsə də o, bu obyektin özünə aid olan hissəsini tədqiq edir. Onun qarşısında duran məqsəd ikili

səciyyə daşıyır: bir tərəfdən o, dar idrak vəzifələri, 2-ci tərəfdən isə onun başlıca vəzifəsi siyasi fəaliyyətdə elmi nəticələrdən əməli surətdə istifadə etməkdir.

Politologiya Azərbaycanda müstəqil bir elm kimi 1991-ci ildən, yəni milli müstəqillik bərpa olunduqdan sonra tədris edilməyə başlanmışdır.

Politologiya elminə 2 cür yanaşma vardır:

**1. Politologiya** dövlət haqqında elmdir. Siyasətin subyekti – dövlətdir. Politologiya siyasət haqqında yeganə elmdir.

**2. Politologiya** hakimiyyət haqqında elmdir. Siyasətin subyekti dövlət, sinif, etnos, partiya, hərəkat, qrup, fərddir. Politologiya siyasət haqqında elmlərdən biridir. Siyasətin subyekti fəal, azad və müstəqil fəaliyyət göstərən siyasi proses iştirakçılarıdır. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

**– fərdlər** (siravi vətəndaşlar, siyasi liderlər)

– sosial qruplar (zümrələr, millətlər, xalqlar, etnik qruplar, konfessional icmalar, istehsalçılar)

**– siyasi institutlar** (dövlət, siyasi partiyalar, siyasiləşmiş ictimai təşkilatlar və hərəkatlar)

**– siyasi subyektlərə** elitlər və bürokratlarda daxildir. Bir çox hallarda siyasət məsələlər də bu subyektlər tərəfindən hazırlanır.

**Politologiyanın predmeti** – siyasi hakimiyyətin, siyasi sistemin dəyişməsi, fəaliyyəti və bərqərar olma qanunauyğunluqlarıdır.

Politikanın predmetini – siyasət, siyasi təsisatlar vasitəsilə cəmiyyət və şəxsiyyətlə qarşılıqlı münasibətləri təşkil edir.

**Politologiya** – siyasət, siyasi münasibətlər, siyasi hakimiyyətə görə sosial subyektlər arasındakı münasibətləri öyrənən elmdir.

**Politologiya** – siyasətin subyektlərinin fəaliyyətini, siyasi proses və sistemin inkişafını və dövlətin idarə edilməsini öyrənən bir elmdir.

**Onun obyektini** insan, bütövlükdə isə bütün dünyanın siyasi həyatı təşkil edir.

**Politologiya** hakimiyyət münasibətlərini, cəmiyyətin siyasi təşkilini, münasibətlərini, istiqamətlərini, insan, cəmiyyət, dövlət arasındakı norma və prinsipləri öyrənir.

Qədim dövrdə siyasət tayfalar arasındakı münasibətlərin nizamlanması idi. Siyasətin mahiyyəti zamandan, konkret tarixi şəraitdən, cəmiyyətdəki hakim ideologiyadan, dövrün əxlaqi və dini normalarından, insanların mədəni inkişaf səviyyəsindən çox asılıdır.

Politologiyanın bir elm kimi inkişafı kateqoriyanın tarixi təkamülü ilə müşayiət olunur. "Kateqoriya" – yunan dilində "şəhadət", "mülahisə" deməkdir. Kateqoriya insanın dünyaya münasibətinin ən ümumi prinsiplər, üsullar, anlayışlarla dərk olunması formasıdır. Bu təbiətin, cəmiyyət və təfəkkürün ən ümumi və mühüm xassələrini, qanunlarını əks etdirir.

Politologiyada sosial elmlərin kateqoriyalarından (hüquq, cəmiyyət, sinif, etnos, qrup) istifadə olunur. İctimai fikir tarixindən olan bir çox kateqoriya (ailə, təbiət, insan) və s.

Politologiyanın tədqiqat predmetini əks etdirən kateqoriyalar sistemi vardır: siyasət, siyasi həyat, siyasi sistem, siyasi hakimiyyət, siyasi hərəkat, siyasi münasibət, siyasi qrup, siyasi mənafe, siyasi fəaliyyət, siyasi təsisat, siyasi ideologiya, siyasi sərvət, siyasi proses.

## Politologiyanın kateqoriyaları, metodları və funksiyaları

Politologiyanın tədqiqat obyektlərinin genişliyi və mürəkkəbliyi burada istifadə olunan metodların və tədqiqat üsullarının rəngarəngliyini şərtlənir.

**1. İnstitusional metod** − əsas diqqət analiz etmə və düzgün qərar qəbul etmə yolu ilə siyasi institutların (hüquq, dövlət, siyasi partiya, hərəkat) qarşılıqlı münasibətlərinin öyrənilməsinə yönəlir.

**2. Tarixi metod** − dövlətin tarixini, tarixi şəxsiyyəti xarakterizə edir. Onun köməyi ilə siyasi hadisələrin ümumi inkişaf qanunauyğunluqlarını, siyasi hadisələrin rolunu, özəlliklərini müəyyən etmək mümkün olur.

**3. Normativ metod** – tarixi hadisələrin cəmiyyət və şəxsiyyət üçün əhəmiyyətini öyrənir və müəyyənləşmiş normaların köməyi ilə hadisələrin dəyərini verir. Bu metod bütün növ proqnozların hazırlanması zamanı tətbiq edilir.

**4. Müqayisəli metod** – eyni tipli siyasi hadisələrin müqayisəsini aparmağa və müvafiq nəticələr çıxarmağa, müxtəlif xalqların, ölkələrin siyasi həyatındakı oxşar cəhətləri, siyasi proseslərin inkişafındakı ümumi qanunauyğunluqları və ənənələri aşkar etməyə, siyasi rejimlərin spesifik xüsusiyyətlərini dəyərləndirməyə, hakimiyyətin fəaliyyət effektliyinin artırılmasına kömək edir.

**5. Struktur-funksional metod** − müxtəlif səpgili sosial dəyişmələrin kəmiyyət dəyərləndirməsini aparır. Bu cür dəyərləndirmə mövcud

siyasi sistemin qorunma vasitələrini öyrənmək üçün çox vacibdir.

**6. Sosial metod** – əsas diqqət siyasətin sosioloji amillərdən (iqtisad, ideologiya, mədəniyyət) asılı olduğunun öyrənilməsinə yönəlir.

**7. Bixovioristik** (davranış) **metod** – əsas diqqət sistemli müşahidələr əsasında təhlil aparmaq yolu ilə şəxslərin davranışının öyrənilməsinə yönəlir.

**8. Psixoloji metod**– əsas diqqət siyasi davranışların (arzu, istək, cəhd) subyektiv mexanizmlərinin öyrənilməsinə yönəlir.

**9. Sistem metodu**– əsas diqqət siyasətin bütövlüyünün və onun ətrafla, əhatə dairəsi ilə qarşılıqlı münasibətlərinin xarakterinin öyrənilməsinə yönəlir.

**10. Qərarların qəbul edilməsi metodu.** Buna aiddir: qərarların qəbul edildiyi mərkəz (siyasi fəaliyyətin subyekti), qərarların qəbul edilməsi prosesi, siyasi qərar, siyasi qərarın reallaşması.

***Politologiya bir sıra funksiyaları yerinə yetirir:***

**1. Təsvir funksiyası** – siyasi reallıqda mövcud olan problemlərin qeydə alınmasını nəzərdə tutur.

**2. İzahetmə funksiyası**– siyasi problemlərin yaranma səbəblərini və nəyə görə məhz o cür olduğunu izah edir.

**3. Gələcəyi görmə, proqnostik funksiya**– gələcəkdə siyasi proseslərin necə olacağını xəbər verir.

**4. Vasitə yardımçı funksiya**– gündəlik siyasi məsələlərin həlli yollarını araşdırır.

**5. İdeoloji funksiya**– siyasi həyatın mahiyyətini dərk etməyə kömək edir, onun ideoloji izahını verir.

**6. Qnoseoloji funksiya**– siyasi gerçəklikləri öyrənir.

**7. İdarəetmə funksiyası** – siyasi inkişafın meyilləri və istiqamətlərini göstərən politikaya nəzərən siyasi rəhbərliyi həyata keçirmək və sosial prosesləri idarə etmək üçün konkret informasiya və tövsiyyələr verir və həyata keçirir. (Dünyagörüşü, maarifçi funksiyada vardır.)

***Politologiyanın strukturları:***

**1. Siyasi maraq** – siyasi davranışın insanın daxili aləmində dərk olunmuş qaynağıdır. İnsanları müəyyən məqsədlərə və konkret siyasi hərəkətlərin gerçəkləşməsinə həvəsləndirir.

**2. Siyasi təşkilatlar** – ictimai proseslərin idarə olunma və tənzimlənmə mərkəzi kimi hakimiyyət institutlarının rolunu əks etdirir.

**3. Siyasi fəaliyyət** – öz siyasi maraqlarını gerçəkləşdirən

subyektlərin çeşidli sosial fəallığıdır.

**4.** ***Siyasi şüur*** – insanların siyasi həyata şüurlu münasibətindən asılılığını xarakterizə edir.

**5.** ***Siyasi münasibətlər*** – ictimai qrupların öz aralarında və hakimiyyət institutları ilə qarşılıqlı əlaqələrinin dayanıqlığını ifadə edir. Cəmiyyət, kiçik və böyük sosial qruplar, siyasi partiyalar öz siyasi tələblərini ödəməyə cəhd göstərərkən qarşılıqlı şəkildə əlaqəyə girirlər, bu da siyasi münasibətlər çərçivəsində tərəflərin siyasi maraqlarını formalaşdırır. Siyasi münasibətlər davamlı tənzimlənmə tələb edir. Bu, cəmiyyətin inkişafını və stabilliyini təmin edir.

## Sosial-siyasi elmlər sistemində politologiyanın yeri və rolu

**1. Fəlsəfə** – (siyasi fəlsəfə). Bu sahə siyasəti bütöv, yəni şəxslərarası münasibətləri, cəmiyyət, hakimiyyətdaxili münasibətləri öyrənir. Politologiya siyasi problemlərin öyrənilməsində fəlsəfənin dünyanın dərki təlimindən istifadə edir.

**2. Sosiologiya** – Vətəndaş cəmiyyətinin hakimiyyətin bölüşdürülməsinə təsirini öyrənir. Sosiologiya Politologiyaya münasibətdə metodoloji funksiyasını yerinə yetirir. Siyasi təhlillərdə bir qayda olaraq sosioloji amillər (kütlələrin ovqatı, fərdlərin, sosial qrupların, zümrələrin, partiyaların, etnik qrupların davranış motivasiyaları və s.) nəzərə alınır.

**3. Tarix** − cəmiyyətin siyasi həyatının qavranılması üçün bir açardır. Cəmiyyət həyatının bütün tərəflərini öyrənən tarixdən fərqli olaraq siyasi tarix siyasi həyatı öyrənir. Siyasi tarix siyasi nəzəriyyələr, dünya görüşləri, institutlar, onların xronologiyası, bir – biri ilə əlaqələri haqqında elmdir.

**4. İqtisadiyyat** – İqtisadi münasibətlər siyasi münasibətlərin inkişafına əsaslı təsir göstərir, siyasət də öz növbəsində iqtisadiyyata əsaslı təsir göstərir.

**5. Psixologiya** – siyasi davranışın subyektiv mexanizmini, ona insan emosiyalarının, iradəsinin, şüur və şüuraltının təsirini öyrənir.

**6. Antropologiya** – hakimiyyət münasibətlərinin genezisini, siyasi ənənələri dəyərləri və normaları öyrənir. Hüquq – dövlətlə hüququn yaranma qanunu uyğunluqlarını, inkişafını, və fəaliyyətini, onlar arasında qarşılıqlı əlaqələri öyrənir.

**7. Siyasi coğrafiya** (geopolitika) – siyasi proseslərin təbiət, coğrafi,

ərazi, və digər amillərlə bağlılığını öyrənir.

**8. Siyasi astrologiya** – kosmosun, ulduzların düzülüşünün siyasi hadisələrə və insan davranışlarına təsirini öyrənir.

**Siyasətin obyekti** – ictimai həyatın müxtəlif tərəfləri, sosial qruplar, ayrı- ayrı şəxslər, nisbi müstəqilliyə malik olan ictimai- siyasi güclər və hərəkatlardır. Siyasi subyektlərin özləri, eyni zamanda siyasətin subyektləri kimi çıxış edir.

**Siyasət** – siniflər, millətlər, xalqlar və digər sosial siniflər arasındakı münasibətlərlə bağlı fəaliyyət sahəsidir.

# II. SİYASİ FİKRİN İNKİŞAFININ ƏSAS MƏRHƏLƏLƏRİ

## Qədim və Orta əsrlərdə siyasət və hakimiyyət haqqında təsəvvürlər

Qədim dövrdə insanların siyasi baxışları mifik təsəvvürlər şəklində mövcud olmuşdur və bu mifik təsəvvürlər ilahi mənşə ilə bağlanırdı. Qədim dövrdə siyasət və hakimiyyət haqqında təsəvvürlər Qədim Misir, Babilistan, Hindistan, Çin, Yunanıstan, Romada inkişaf etmişdir.

Qədim Misirdə insanlar hakimiyyətin ilahi mənşəyə malik olduğu qənaətinə gəlirdilər. Misir hökmdarı həm də Misirin rifahı üçün çalışan Allah hesab edilirdi. Misir hökmdarı Firon milli Allah sayılır və dövlətin bütün funksiyalarını (sahiblik, nəzarət, cəzalandırma, mükafatlandırma, yedizdirmə, müdafiə etmə) həyata keçirirdi.

Mesopotamiyada da siyasi görüşlər mifik xarakter daşıyırdı. Qədim Şumerlərdə Şamaş adlı Allah ədalətin müdafiəçisi sayılırdı. Şumer və Babil hökmdarları, qanunvericilikləri öz hakimiyyətinin qanunlarının ilahi xarakter daşıdığını iddia edirdilər. Miladdan öncə III minillikdə 2 çayarası kiçik siyasi vahidlərdən şəhər dövlətlərdən ibarət idi. Bu dövlətlərin 2 əsas funksiyası var idi: 1. Ölkə daxilində qayda – qanunu bərqərar etmək. 2. Ölkəni xarici hücumlardan qorumaq.

Qədim Hindistanda miladdan öncə I minillikdə yazılan vedalarda əxlaq və qanun məsələlərinə xüsusi yer ayrılmışdır. Bu hind vedalarında Rita adlanan konsepsiyaya xüsusi önəm verilirdi. Deyilirdi ki, Rita bütün dünyaya nüfuz edən elə qanundur ki, bütün allahlar və insanlar ona tabe olmalıdır. Miladdan öncə V-VI əsrlərdə Hindistanda Buddizm dini meydana gəldi. Şər ilə mübarizə aparmaq bu dinin əsas qayəsi idi.

Qədim Çində siyasi fikirlər daosizm, legizm təlimlərində və böyük mütəfəkkir Konfutsinin mülahizərələrində öz əksini tapır. Konfutsi dövləti böyük ailəyə bənzədirdi, yəni kiçik böyüyə tabedir, ancaq münasibətlərdə zorakılıq olmamalıdır. Onun fikrincə, cəmiyyət etika qanunları ilə idarə olunmalıdır. O, göylərin əmrini (taleyi) insanın və təbiətin taleyini müəyyənləşdirən ali mənəvi qüvvə hesab edirdi.

## Qədim Yunanıstanda v ə Romada siyasi fikir

Qədim Yunanıstanda siyasi fikrin inkişafı üç böyük dövrə bölünür.

1. **Erkən dövr** (e.ə. 9-6 əsr) Yunan dövlətçiliyinin təşəkkül tapması.
2. **Siyasi fikrin çiçəkləndiyi dövr** (e.ə. 5-4 əsrin I yarısı)

3. **Ellinizm dövrü** (e.ə. 4 – cü əsrin II yarısı II əsr) Yunan dövlət quruluşunun tədricən dağıldığı dövr.

Qədim Yunanıstanda təkcə siyasətin mahiyyəti və təbiəti haqqında deyil, dövlət və hakimiyyət, bu hakimiyyətin siyasi tipologiyaları haqqında fəlsəfi politoloji görüşlər meydana gəlməyə başladı. E.ə. II minilliyin sonu I minilliyin əvvəli Homer "İlliada" və "Odisseya" əsərlərində qeyd edirdi ki, ədalət adətin, adi hüququn əsası və prinsipidir.

**7 böyük müdrik** – Fales, Pittan, Periandr, Biant, Solon və Hilon – Polisin (şəhər – dövlətin) həyatında ədalətli qanunların əhəmiyyətini yüksək qiymətləndirirdilər. Hilon deyirdi "Qanuna tabe ol"

**Solon** – e.ə. 594 – cü il yeni qanunlar verir, senzli demokratiya elan edir. Dövlət qayda – qanuna möhtacdır. Qanun isə öz növbəsində hüquq və gücün birləşməsidir.

**Pifaqor** – demokratiyanı tənqid edir, aristokratik idarəetmə idealını əsaslandırırdı. Onun fikrincə, ədalət bərabərlikdir. Ədalətli qanunları olan dövlət ideal olmuşdur.

**Demokrit** – "Zəruri hadisə kimi yaranan dövlət ümumi rifahı və ədaləti özündə birləşdirir. Dövləti idarə etmək sənətlərin ən yaxşısıdır".

**Sokrat** – (e.ə. 469 – 399) Ədalət və qanun eyni şeydir. O, istibdadı tənqid edir. Demokratiyanı məsxərəyə qoyurdu. O yazırdı ki, insanlar ayaqqabılarını hər yoldan ötənə verməyi təklif etmədikləri halda, dövləti idarə etməyi püşk atmaq yolu ilə həll edirlər. "Məgər sonuncu çox asan işdir?"

**Platon** – O, siyasəti çar sənəti adlandırırdı. Onun siyasi təlimi ideyalar aləminə əsaslanır. "Dövlət əsərində ideal dövlət haqqında təlim yaratmış". Dövlətin var olmasının sosial – siyasi və mənəvi əsası kimi ədalət problemi ilə başlayır, elə onunla da tamamlayır. "Ədalət xeyirxahlıq və müdriklikdir". Platon insanların birgə yaşayışını ehtiva edərkən nəzəri ideal dövlətin ədalətli modelini yaratmışdır. Bu model 3 təbəqənin qarşılıqlı əlaqəsini təsvir edirdi:

**1. Dövlət işlərini idarə edənlər –** filosoflar, müdriklər

**2. Dövləti xarici və daxili düşməndən qoruyanlar –** hərbiçilər və keşikçilər – cəsurlar

**3. Mövcud dövlətin vətəndaşlarının güzəranını təmin edənlər –** əkinçilər və sənətkarlar – ağıl və mühakimə sahibləri.

Platon aristokratik respublika quruluşuna üstünlük verirdi. Platona görə dövlətin gücü qanundadır. "Mən qanunun gücü olmayanvə kiminsə iradəsinə tabe olan dövlətin məhvini görürəm".

**Aristotelə** görə dövlət quruluşunda aristokratiya – oliqarxiya və demokratiyanın elementləri birləşir. Ən yaxşı dövlət quruluşu insanın fəaliyyətinə və xoşbəxt yaşamasına imkan yaradan dövlətdir – bu "xoşbəxt dövlətdir". Onun anlamında siyasət bir elm kimi etika ilə bağlıdır.O, fərdin hüquqlarını xüsusi mülkiyyəti və ailəni müdafiə edirdi. Onun fikrincə, ən düzgün dövlət forması – Politiyadır – oliqarxiya və demokratiyanın birləşməsi. O, senzli demokratiyaya üstünlük verir. Əsələri: "Siyasət", "Afina siyasəti", "Etika" və s.

**Qədim Roma**

Qədim Roma siyasəti təqribən min illik bir dövrü əhatə edir. Onun başlıca nailiyyəti hüquqşünaslıq adlanan müstəqil bir elmin yaradılması olmuşdur. Ən böyük simalarından biri Mark Tuli Siseron – məşhur natiq, dövlət xadimi və mütəfəkkirdir. "Dövlət", "Qanunlar" əsərləri siyasətə həsr olunub. Onun fikrincə, dövlət hüquqi təsisatdır, bununla da o, hüquqi dövlət ideyasının banisi hesab olunur. Dövlətin yaranma səbəbini insanların anadangəlmə birgə yaşayışa olan tələbatında görürdü. Dövlətin başlıca təyinatı ayrı – ayrı fərdlər və cəmiyyətin müxtəlif təbəqələri arasında hormoniya yaratmaqdadır. Onun fikrincə, "Qanunlar ədalətli olmalıdır və yaşayış qaydaları bu ədalətli qanunlar əsasında müəyyənləşməlidirlər".

Qədim Romada siyasi fikrin inkişafını öyrənən erkən xristianlıqdan yan keçmək olmaz.

E.ə. I əsrdə Roma imperiyasının yoxsul kütlələrinin mənafeyinin ifadəsi kimi meydana çıxan erkən xristianlığının siyasi ideyası ESXATO LOJİ və MESSİAN xarakteri daşıyır. (esxatos – yunan dilində sonuncu messiya və məsih sözündən olub, "xilaskar" deməkdir – burada İsa Peyğəmbər nəzərdə tutulur və onun 2 – ci dəfə zühur etməsi ideyasına əsaslanırdı).

**Stoiklər** – (Zenon, Seneka, Avqustin Avreli) etinanı həyat üçün əvəzolunmaz bir dəyər sayırdılar.

**Zenon** – "Dünya tale ilə idarə olunur".

**Seneka** – "İnsan həyatının başlıca amilini ruhun azadlığında axtarırdı".

**Avreli Avqustin** – imperator idi. "Şüurlu olanın məqsədi öz dövlətinin ağıllı qanunlarına əməl etməkdir". O hakimiyyətin 2 növünü – kilsə hakimiyyəti və dünyəvi hakimiyyətin olduğunu göstərir və Allahdan gələn kilsə hakimiyyətini ali, hər şeydən üstün tuturdu.

**Orta əsrlərdə siyasi fikirlər**

Orta əsrlərdə siyasi fikir xristian və islam dinlərinin təsiri altında formalaşmışdır. Bu dövrdə siyasi fikir həm Qərbi Avropada, həm də Şərqdə intensiv inkişaf edirdi. Erkən orta əsrlərdə Yaxın Şərqdə siyasi fikir bütpərəstlik, atəşpərəstlik və xristianlıqla bağlı olmuş, sonralar ideoloji təlimlər islam zəminində və antik mənbələr əsasında təşəkkül tapmışdır.

Şərqdə bütpərəstliyə qarşı Məhəmməd Peyğəmbər(570-632) tərəfindən hazırlanmış monoteist din olan islam VII əsrdə meydana gəlib sürətlə yayılıb. Bu dinin müqəddəs kitabı "Quran"(mənası qiraət) yalnız dinin deyil, hüququn, şəriətin, bütünlükdə müsəlman ölkələrinin ictimai-siyasi fikrinin qiymətli mənbəyidir.

Əbülhəsən Əli Əşarının fikrincə (873-935) "İnsanlar bərabər hüquqlu olmalıdırlar". O yazırdı ki, dünya qəzaya uğramır, cənnət odur ki, insanlara xeyir, nemət və sağlamlıq bəxş olunsun.

Orta əsrlərdə Sufilik təlimi mövcud idi. Onlar öz ictimai-siyasi fikirlərində insanları paklığa çağıraraq, Allah səviyyəsinə qaldırırdılar. İdrak prosesinə yüksək qiymət verirdilər. Sufilər qaba yun paltar geyinirdilər öz nəfslərinin həzzinə varmadan yaşamağı üstün tuturdular. Ortodoksal islama qarşı idilər.

İbn Xaldın -(1332-1406) "Nəsihətlər" və "Müqəddimə"əsərlərində dövlətə fəlsəfi və hüquqi yanaşma üsullarını birləşdirməyə çalışır. O, dövlətin meydana gəlməsində və inkişafında təbiət qanunlarına əsaslanırdı.

Onun fikrinə görə, hər bir cəmiyyətdə insanın təbiəti ucbatından "təmkinli başlanğıca" ehtiyac duyulur. İnsanlar arasında işğalçılığa, didişdirmələrə son qoyulmalıdır. O deyirdi ki, dövlət hakimiyyəti hökmdarla başa çatmır, orada təbəələrin iştirakı mütləqdir. Ona görə dövlətdə dəyişikliklər təkcə başçının deyil, bütövlükdə cəmiyyətin dəyişilməsi ilə əlaqələndirir. Dövlət müəyyən zaman müddətində mövcud olur. Bu nəslin yaşı ilə ölçülür və həmin müddət ərzində 5 mərhələdən keçir.

1-ci, əvvəlki məcburetmə hakimiyyətinin əvəzində yenisinin yaranması.

2-ci, hökmdar onu hakimiyyətə gətirənlərə divan tutur, ali hakimiyyət bir adamın əlində toplanır.

3-cü, dövlətin çiçəklənməsi, orada qanun qaydaların və inamın hökm sürməsi.

4-cü, müxalifəti əzmək üçün idarəetmənin güc və despotik

metodlarına keçid.

5-ci, dövlətin tənəzzülü və məhvi.

İbn Xaldun dövlət formalarının təsnifatını işləyib hazırlayarkən dövlət başçısının hüquqi vəziyyətini deyil, dövlət hakimiyyətinin funksional cəhətini əsas götürür və bu cəhət onun üçün sosioloji təhlil obyekti kimi çıxış edir. Onun fikrincə, idarəetmə formalarının əsasında dövlət fəaliyyətinin xarakteri, onun funksional cəhəti, siyasi rejimin tipi durur. Onun siyasi təlimində idarəetmənin 3 forması mövcuddur:

1) təbii monarxiya
2) siyasi monarxiya
3) xilafət

Təbii monarxiya– şəxsi hakimiyyətin despotik rejimi.

Siyasi monarxiya– rasional, ağıllı meyarlarla təbəələrin dünyəvi mənafelərinin müdafiəsinə arxalanan dövlət formasıdır.

Xilafət - siyasət sərvətlərə arxalanır, cəmiyyətin inkişafında 2 fəzanı: 1. kəndli həyatını, 2. şəhərli həyatını ayırır.

Foma Akvinalı öz əsərlərində Aristotelin baxışlarını katolik kilsəsinə uyğunlaşdırmağa səy göstərmişdir. Onun fikrincə, insanlar ayrılıqda öz tələbatlarını ödəyə bilmirlər, bunun üçün dövlət halında birləşmək və yaşamaq səyləri onların təbiətindən irəli gəlir. O, dövlətin idarəçiliyində kilsəyə üstünlük verir və deyir ki, Allahdan kənar hakimiyyət yoxdur.

## İntibah dövrünün siyasi ideyaları

İntibah dövrün mütəfəkkirləri cəmiyyətdə baş verən bütün neqativ hallara görə kilsəni günahlandırır, xalqı hakimiyyətin əsas mənbəyi hesab edirdilər. Bu dövrdə siyasi nəzəriyyələr humanist xarakterə malik olub, teoloji fikirlərdən uzaqlaşır, insan hüquq və azadlıqları, qanunçuluq, demokratiya prinsipləri ön plana çıxır. İntibah dövrünün ən görkəmli alimlərindən biri Nikkolo Makiavelli idi. O, siyasi elmlər tarixində dövlətin və hakimiyyətin təbiəti, mahiyyəti, dövlət idarəçiliyinin formaları, hakimiyyətin idarə olunması, çeşidli siyasi problemlərin həll edilməsi yolları və üsulları barədə ilk dəfə dəqiq təhlillər aparan mütəfəkkirdir.

Makiavelliyə görə, siyasət insanlar arasında ictimai münasibətlərdir. İnsanlar müsbət xüsusiyyətlərlə yanaşı mənfi xüsusiyyətlərə də malikdirlər və bu cür mənfi xüsusiyyətlərin aradan qalxması üçün və ictimai münasibətlərin tənzimlənməsi üçün dövlət aparatı yaradılmalıdır. O, dövlət idarəçiliyinin 3 formasını göstərir: aristokratiya, mo-

arxiya, demokratiya. O, dövləti insanlara bənzədirdi: yaranır, inkişaf edir, tənəzzülə uğrayır. O, cəmiyyəti dinsiz təsəvvür etmirdi. Siyasəti təcrübi elm sayırdı və deyirdi ki, həqiqətin meyarı təcrübədir. Siyasi davranışın əsasında xristian əxlaqı deyil, xeyir və güc durur. Makiavelli yazırdı: "Güc, ordu kimin tərəfindədirsə, tale də həmişə onunladır," siyasi elmin vəzifəsi faktlardan çıxış etməkdir.

Makiavellininin bütün müddəaları "situasiya" anlayışına əsaslanır. Dəyişkən dinamik "situasiya" anlayışı bütün siyasi hadisələrə verilən qiymətin nisbiliyinə dəlalət edir. Zamandan və məkandan kənar ideal dövlət yoxdur, yalnız situasiyaya uyğun quruluş vardır. Pis, yaxşı idarəetmə metodları yoxdur, yalnız situasiyaya uyğun metodlar vardır. Əsərləri: "Hökmdar", "Florensiya tarixi", "Tit livinin on günlüyü haqqında mühakimələr". "Hökmdar" əsərində mövcud olanları qorumaq üçün bir sıra tövsiyyələr verir.

**1.** Ağıllı hökmdar verdiyi vədlərin hamısını yerinə yetirməməlidir, çünki təbəələri öz vəzifələrini yerinə yetirməyə tələsmirlər.

**2.** Hakimiyyəti qazanmaq üçün xeyirxah, onu saxlamaq üçün qəddar olmaq lazımdır.

**3.** Pis işləri tez, yaxşı işləri isə tədricən etmək lazımdır. Mükafat gec və az olanda, adamlar ona yüksək qiymət verir, cəzanı isə böyük və geniş ölçüdə həyata keçirmək mümkündür.

**4.** Hökmdar vədini pozmaq üçün həmişə bəhanə tapmalıdır.

**5.** Vəziyyət tələb edirsə, əxlaqa zidd hərəkət etmək olar, ancaq bunun qüsursuz və xeyirxah bir iş olduğunu sübut etməyi bacarmaq lazımdır.

**6.** Hökmdar yaxşı və xeyirxah görünməyə çalışmalıdır, ancaq pis olmaqdan da çəkinməməlidir.

**7.** Hökmdar həm daxili, həm də xarici düşmənlərlə əhatə olunub, ona görə də heç kimə inanmamalıdır.

**8.** Tələni görmək üçün mütləq tülkü, canavarı məhv etmək üçünsə aslan olmalısan.

**9.** Məqsəd vasitəyə haqq qazandırır.

Fransız mütəfəkkiri Jan – Boden Politologiyada dövlət suverenliyi anlayışının müəllifidir. Respublika haqqında "6 kitab" əsərində o, dövlətin təbiəti, funksiyaları, formaları, eləcə də cəmiyyətin siyasi həyatının çeşidli problemləri haqqında mülahizələr irəli sürür.

Tomas Hobbs – ingilis mütəfəkkiri mərkəzləşdirilmiş hakimiyyət yaradılmasının tərəfdarı idi. O, hakimiyyətin "ictimai müqavilə" əsasında yaradılması ideyasının müəllifidir. Hobbs hesab edirdi ki, vətəndaşlar müqavilə ilə öz hüquqlarının müəyyən hissəsini mərkəzi

hakimiyyətə verməlidirlər.Sülh və özünümühafizə xətrinə hamının öz hüquqlarından əl çəkməsi başlıca təbii qanundur. Bu cür əlçəkmə həmin hüquqların bir hissəsinin müqavilə yolu ilə bir şəxsə, yaxud bir qrup şəxsə verilməsi formasında həyata keçirilir.O, hesab edirdi ki, insanlar müharibəyə son qoymaq üçün dövləti yaradırlar.Könüllü saziş nəticəsində yaranan dövləti siyasi dövlət adlandırır. Dövlətin 3 formasını göstərir: monarxiya, demokratiya, aristokratiya.

**Con Lokk –** Vətəndaş cəmiyyətinin yaranmasının əsas prinsipi sayılan fərdi azadlıq və burjuaziya liberalizmi ideyalarının müəllifidir. İngiltərədə inqilabdan sonra ölkədə formalaşan konstitusiyalı monarxiyanı nəzəri cəhətdən əsaslandırmaqla yanaşı, dövlət institutlarının fəaliyyətinin liberallaşmasının, vətəndaşların konstitusion haqlarının genişləndirilməsinin zəruriliyini də qeyd edirdi. Onun liberal görüşlərinin metodoloji əsasını təbii haqlar və ictimai müqavilə ideyası təşkil edir. Yaşamaq, azadlıq, mülkiyyət haqqı insanların təməl haqlarıdır. Ona görə də, dövlət vətəndaşların haqlarını və azadlıqlarını qorumaq üçün yaradılır.

O, dövlət və hakimiyyət anlayışlarını fərqləndirir. Dövlətin yaranmasına ictimai müqavilə səbəb olub, hakimiyyət, dövlət müqaviləsini pozduqda insanlar inqilab etmək hüququna malikdirlər. Onun fikrincə cəmiyyət o vaxt siyasi cəmiyyət hesab oluna bilər ki, ərazi birliyinə, ümumi hüquqa, mübahisəli məsələləri həll etmək cinayətkarları cəzalandırmaq üçün hakimiyyətə malik olsun.

İlk dəfə hakimiyyətin bölünməsi fikrini ortaya atıb:

qanunverici hakimiyyət – parlamentə

ali icraedici hakimiyyət – məhkəmə və orduya federal hakimiyyət, xarici siyasət – krala və nazirlərinə məxsusdur. Siyasi hakimiyyətin mənbəyi xalqdır.

XIX əsrin I yarısında Aleksis de Tokvil liberal demokratiya təlimini sistem şəklinə salaraq siyasi elmlərin inkişafını bir az da qabağa apardı.

Amerikadakı dünya barədə kitabında o, gənc burjua dövlətinin siyasi həyatını təhlil edərək belə qənaətə gəlir ki, ABŞ-dakı demokratiyanın əsas uğuru bərabərlik və azadlıq probleminin həll olunması iləbağlıdır. Digər vacib məsələ isə azadlıq ruhu ilə dinin bərqərar olmasından ibarətdir. ABŞ-da demokratiyanın bərqərar olmasında protestantçılığın böyük rol oynayıb. Məhkəmə hakimiyyətinin ABŞ da çox güclü olmasa idi demokratiyanın konstitusiyası ölü olardı.

XIX əsrin Rusiyada da pesteıvkonstitusiyalı monarxiya tərəfdarı Belinski, inqilabi demokratlar Gertsin, Oqarya, fərdin sosial və siyasi

azadlıqlarını müdafiə edən Çernişevski və Dobroluyubv, inqilabı tərəqqinin vacib elementi sayan Lavrd, hər şeyi öz təbii axarına buraxmağa çağıran anarxist Bakuvinin, Tnaçev sayılır.

## XIX-XX əsrin siyasi ideyaları

Müasir siyasi təlimlərin inkişafını xarakterinə görə 3 mərhələyə bölmək olar:

1) XIX əsrin sonu XX əsrin I yarısı. Bu mərhələdə siyasi hakimiyyət və onun sosial əsaslarının araşdırılmasına diqqət yetirilir. (Bentli, Veber, Mirelş, Lassuel)

2) XX əsrin ortalarından – 70-ci illərə qədər olan mərhələdə demokratiya haqqında yeni nəzəriyyələr meydana gəlir. Siyasi həyatın liberallaşmasına diqqət xeyli artır (Sumpeter, Makferson, Barber)

3) 70-ci illərdən bu günə qədərki mərhələdə qərb dövlətlərinin və cəmiyyətin müasir inkişafına adekvat hakimiyyət konsepsiyaları və modelləri yaranır. Dünya dövlətlərinin vahid futuroloji konsepsiyası, informasiyalı cəmiyyət konsepsiyası, milli maraqlar konsepsiyası hazırlanır. Klark, Aron XIX əsrin sonlarında kapitalizmin inkişafı, azadlıq və bərabərlik ideyalarını sınağa çəkdi. Belə mütəfəkkirlərdən biri də Nitşe idi ki, onda dinə və burjuaziyaya cəmiyyətinin mənəvi dəyərlərinə qarşı antipartiya var idi.

Veber cəmiyyətin inkişafı üçün həyata münasibətdə rasional və tənqidi baxışa, əməyin kapitalist etinasına yiyələnməyə çağırırdı. XX əsrdə meydana gələn siyasi təlimləri qısa şəkildə aşağıdakı kimi təsnif etmək olar:

**Normativizm** – Bu siyasi təlimin tərəfdarları hüquq sahəsində əsas norma kimi konstitusiyanı götürür və siyasi sahədə isə cəmiyyətin siyasi sisteminin normal modelinin tapıldığını və bu normanın ABŞ demokratiyası olduğunu iddia edirdilər.

**Plüralist demokratiya** – bu təlim cəmiyyətdə müxtəlif, bəzən də zidd qüvvələrin, qrupların, partiyaların, cəmiyyətlərin siyasi proseslərdə heç bir məhdudiyyət qoyulmadan sərbəst iştirak etməsini nəzərdə tutur.

**Müvazinət münaqişə** – bu təlim cəmiyyətin müvazinət və inteqrasiya modelləri əsasında stabilləşdiyini fəaliyyətin konsensusa söykənən zaman daha çox effekt verdiyini əsas götürür, münaqişələrini anomalogiya sayır, eyni zamanda onun elmi həlli yollarının işlənib hazırlanmasının zəruriliyini müdafiə edir.

**Elita** – bu nəzəriyyəyə görə siyasət bir – biri ilə qarşı – qarşıya duran

sinfin mübarizəsidir. Hakimiyyətdə olan azlıq, idarə olunan çoxluq (xalq)

**Nasional** – sosializm, faşizm – ideologiyaya korporativ dövlət modelinə üstünlük verir. Onlar sinfi mübarizənin əksinə olaraq millətlərin və irqlərin özünü qorumaq, yaşamaq hüququna malik olduğunu iddia edirlər.

**Konvergensiya** – belə cəmiyyətlərdə siniflər tamamilə öz mahiyyətini itirir, yəni konversiya qaynayıb qarışma, bir nöqtədə birləşmə baş verir.

**Solidarizm –** cəmiyyətdə sosial ədalət, bərabərlik, həmrəylik, təsanüd haqqında nəzəriyyədir.

**Qloballaşma –** bu, bütün dünyanın ümumi problemlərinin həlli üçün kollektiv çalışmaların səmərəliliyini nəzərdə tutan təlimdir. Dünyada müxtəlif sahələr üzrə ixtisaslaşan 4 politoloji məktəb var.

**1. İngilis – amerikan məktəbi:** əsasən, siyasi modernləşmə, stabillik, xarici siyasətdə siyasi münaqişələrin həlli problemləri ilə məşğul olur.

**2. Alman məktəbi:** siyasi sistemin müqayisəli analizini, hüquq dövlətinin və vətəndaş cəmiyyətinin fəaliyyət problemlərini öyrənir.

**3. Fransa məktəbi:** siyasi sistemlərin tipologiyası, legitimlik, infrastrukturları problemləri üzrə ixtisaslaşıb.

**4. Polşa məktəbi:** Cəmiyyətin siyasi həyatının, siyasi sistemin demokratikləşməsini, konseptual istiqamətlərini işləyir.

# III. AZƏRBAYCAN XALQININ SİYASİ FİKİR TARİXİNDƏN

## Azərbaycanda quldarlıq və erkən feodalizm dövründə siyasi təlimlər

Siyasət və siyasi münasibətlər haqqında fikirlər qədim zamanlarda Azərbaycan ərazisində çox böyük təkamül yolu keçmişdir. Azərbaycanda siyasi fikir erkən əsrlərdə mifoloji dünyagörüşünə malik idi, miflərdə və əsatirlərdə, nağıllarda və dastanlarda öz əksini tapmışdır.

Azərbaycan xalqının siyasi fikrinin sistemli şəkildə şərh olunduğu ilk böyük yazılı abidə "Avesta"dır. VII-VI əsrlərdə meydana gələn Zərdüşlükdə dualizm mövcuddur.Yəni dünya əksliklərin mübarizəsi üzərində qurulub, xeyirlə şər, qaranlıqla işıq, gecə ilə gündüz, materiya ilə ideya arasında arası kəsilməyən mübarizə var və bu mübarizədən inkişaf, tərəqqi törəyir.

Zərdüşlüyün dini kitabı olan Avestada ən yaxşı dövlət forması monarxiyadır. Sonralar bu təlim Şərqdə müxtəlif formalarda (manixeyçilik, işraqilik, məzdəkiçilik) öz əksini tapıb.

Avestada dövlət insanın birgə ünsiyyət forması, bütün cəmiyyətin mühafizəsinin mühüm atributu hesab olunur. Dövlət hakimiyyətinin möhkəmlənməsinin isə vətəndaşlarda mənəvi borcun tərbiyə edilməsi səviyyəsindən asılı olduğu göstərilir. Zərdüşt cəmiyyət və dövlət anlayışının eyni məna daşıdığını, dövlətin göylər səltənətinin yerdəki təcəssümü olduğunu bildirir. Avesta güclü dövlət hakimiyyətini təbliğ edir. Dövlətə xeyirxah hökümdar başçılıq etməlidir.

**Manixeyçilik və Məzdəkiçilik –** Maniçiliyin banisi Mani (216-273) olmuşdur. O da əksliklərin mübarizəsi və vəhdəti qanunundan çıxış edərək , dünyanın əsasında dualizmin dayandığını bildirirdi.

Məzdəkiçilikdə isə Allah nemətlərinin bərabər bölünməsini, mübarizələrlə bərabərsizliyi aradan qaldırmaq mümkündür. Məzdəkiçilik IX əsrdə Xürrəmiliyə də əsaslı təsir göstərdi.

Dədə Qorqudda dövlət quruluşu haqqında maraqlı məlumatlar var. Ölkə inzibati ərazi kimi xanlıqlara bölünür. Xanlıqlar xanlar xanına tabedir. İnsanlar azad fikir söyləyə, hətta xanlar xanının qüsurlarını onun özünə deyə bilərlər – fikir azadlığı var. İdarəçilikdə əsas dəyər əxlaq kodeksi, ədalət və fəzilətdir.

## Orta əsrlərdə Azərbaycanda siyasi ideyaların inkişafı

Orta əsrlərdə Azərbaycanın fəlsəfi fikrinin nümayəndəsi olan filosof **Bəhmənyar** feodalların ideoloqudur və hakim ictimai quruluşu dəstəkləyir, onu xeyirxah və gözəl quruluş hesab edir. O, insanları yoxsulluğa dözməyə çağırır, əsl səadətə çatmaq yolunu təhsildə, mənəvi təkmilləşmədə görürdü.

**N.Gəncəvi** - feodal cəmiyyətinin əsas bəlasını, nöqsanların başlıca səbəbini ədalətsizliyə, zorakılığa, qarətə əsaslanan dövlətin xarakterində görürdü. Onun siyasi idealı ilk əvəllər maarifçi, monarx, sonralar isə xalq hakimiyyəti idi. Nizaminin əsərlərində əsas məqam hökümdarı ədalətə, fəzilətə səsləməkdir. İsgəndərnamədə ütopik sosialistlərin 600 il sonra arzuladıqları, dövlətin ölüb getdiyi, hakimiyyətə ehtiyacın qalmadığı bir cəmiyyətdən söhbət açılır.

**Sufilik** – insanı müqəddəs varlıq hesab edirdi. "Vəhdəti Vücüd" fəlsəfəsində tanrı ilə insanın vəhdətinə işarə edilir. Məntiq və etikada Aristotelin sosial görüşlərdə isə Platonun ideyalarına üstünlük verən Fərabi siyasi sosiologiya sahəsində sistemli araşdırmalar aparmışdır və uğurlar qazanmışdır. O, cəmiyyətin "Ədalət prinsipi" ilə qurulması ideyasını müdafiə edirdi. Sufilərdə ideyaya sədaqətin, sözə verilən dəyərin, azadlığın ölçüsü yoxdur. Mənsur Əl-Həllac, Şihabəddin Yəhyə Şöhrəvərdi- onlar insanı yer üzünün əşrəfi hesab edirdilər.

**N.Tusi** – Yaxın və Orta Şərqin siyasi fikrinin ən görkəmli nümayəndəsidir**.** O, "dövlət" və "qanun" kimi anlayışları işləyib hazırlamış, "dövlət və cəmiyyət", "dövlət və şəxsiyyət", "din və siyasət", "dovlət və iqtisadiyyat", "hüquq və əxlaq", sosial ədalət, dövlətlərarası münasibətlər, müharibə və sülh, dövlət aparatı, hökümdarın yeri və rolu, hökümdar və onun köməkçiləri, məmurları və s. məsələləri nəzərdən keçirmişdir.

Tusini fikrincə, dövlət insanın birliyi, cəmiyyətin təbii vəziyyətidir. O, belə hesab edirdi ki, insanlar öz mənafeləri əsasında könüllü surətdə birləşmək arzusunda olduqları zaman dövlət əmələ gəlir, həm də dövlət insanların tələbatını ödəmək məqsədi ilə yaranır və onlara xidmət edir. O, dövlət və cəmiyyət anlayışlarını təqribən eyni mənada işlədir, dövlət cəmiyyətin strukturunu təsvir edir. Onun mühüm ünsürləri ailə, məhəllə(rayon və ya qrup), şəhər icması, böyük xalqlar icması və ümumdünya icmasıdır.

Tusi belə hesab edirdi ki, insanın həyatı dövlətdən kənar mümkün deyil, insan dövlətin yardımına , dövlət isə insanın aktiv fəaliyyətinə

ehtiyac hiss edir. Tusinin təlimində dövlət insanlar, insanlar dövlət qarşısında məsuliyyət hiss edir.Onun fikrincə dövlət ancaq ədalət əsasında yaşaya bilər.Ədalətin şərtləri isə dövləti təşkil edən 4 sinif:

1. Qələm əhli-ziyalılar
2. Qılınc əhli- hərbiçilər
3. Müa-ilə əhli-tacirlər, sənətkarlar, vergi yığanlar
4. Ziraət əhli-əkinçilər, biçinçilər, maldarlar arasında uyğunluğun yaradılması sayəsində dövlət inkişaf edə bilər.

Bunlar bir-biri ilə əlbir, ahəngdar fəaliyyət göstərdikdə mədəniyyət – fəzilər və səadət sistemi əmələ gəlir. Dövlətin idarə olunmasında hökümdarın şəxsiyyətinə böyük qiymət verən Tusi göstərir ki, ölkə sahibi olmaq istəyənin 7 xisləti olmalıdır: atalıq, alicənablıq, mətinlik, tam əzm, səbr, var-dövlət, sadiq və əməlisaleh köməkçilər.

## Yeni dövr azərbaycanda ictimai-siyasi fikrin inkişafı

**A.A.Bakıxanov** – Onun fikrincə, cəmiyyət adamların öz tələbatını ödəmək üçün lazım olan birgə yaşayışdır. O yazırdı ki, ehtiyacdan irəli gələn bu əlaqə məişət tərzi adlanır. O, xüsusi mülkiyyətin zəruri olduğunu göstərir, cəmiyyətin siniflərə bölünməsini təbii hal kimi qiymətləndirirdi.

Bakıxanov ictimai hadisələri özünün işləyib hazırladığı etika normaları baxımdan qiymətləndirirdi. O belə hesab edirdi ki, şəri cəzalandırmaq lazımdır.

Bakıxanov mərkəzləşdirlimiş hakimiyyətin maarifçi deməli, onun fikrincə, ədaləti monarx hakimiyyətinin tərəfdarı idi. O, xalqı müdafiə etməli və onun qayğısına qalmalı olan monarxın zəkasına böyük ümid bəsləyirdi.

Onun fikrincə “dünya o cümlədən siyasi həyatda hər şey təbii, sarsilmaz qanunlar əsasında inkişaf edir”.

**M. Kazım Bəy** – öz siyasi görüşlərində müstəbidliyin düşməni kimi çıxış edir. Onun fikrincə, müstəbidlik xalqın əsarət altına alınması, onun mədəni inkişafının dayandırılması deməkdir.

Azərbaycanda inqilabçı demokratik siyasi fikir M.F.Axundovun yaradıcılığında özünün ən yüksək nöqtəsinə çatmışdır.

Axundovun siyasi təlimi öz dərinliyinə çoxcəhətliliyinə və demokratikliyinə görə onun sələflərinin ideya və görüşlərindən əsaslı sürətdə fərqlənir. O, feodalizmi zorakı yolla devirmək ideyasını irəli sürmüş, xalqı inqilab etməyə çağırmış, xalq hakimiyyəti ideyaları ilə

çıxış etmişdir. Yaradıcılığın ilk dövründə “Aldanmış kəvakib”əsərini yazmış Axundov burada istibdadın tənqidi, feodal cəmiyyətin islahat yolu ilə dəyişdirilməsinə çağırışla, maarifçı monarxiyanın təbliği ilə çıxış etmişdir.

1863-1865-ci illərdə Axundov “Hindistan şəhzadəsi Kəmalüddövlənin öz dostu İran şəhzadəsi Cəlalüddövləyə yazdığı üç məktubu və Cəlalüddövlənin göndərdiyi cavab” adlı fəlsəfi-siyasi və hüquqi görüşlərini geniş şərh etmiş, bir sıra sosial problemlərə öz münasibətini bildirmişdir. Axundov sosial tərəqqi məsələlərinə xeyli diqqət yetirərək onu insan cəmiyyəti üçün səciyyəvi olan təbii, qanunauyğun proses hesab edirdi.

Axundov ictimai inkişafın mərhələli olması fikrinə gəlir.Onun mahiyyəti və əhəmiyyəti haqqında məsələ Axundovun diqqəti mərkəzində olmuşdur. O, dövlət və onun idarə olunması məsələlərini siyasət adlandırdığı xüsusi elm sahəsinə aid edirdi. O, maarifçi monarxiya dövlət formasının tərəfdarı kimi çıxış edir. Ağıllı monarx xalqın mənafeyini , onun rifahını təmin edə bilər, xalqın mənafeyi naminə islahatlar yolu ilə bir sira sosial dəyişikliklər edə bilər.

Bununla əlaqədar olaraq o, islahatlar yolu ilə cəmiyyəti dəyişdirmək ideyasından əl çəkir və xalqı inqilaba çağırır.Axundov monarxın hakimiyyətinin parlamentlə, xalqın qanunvericilik fəaliyyətində iştirak etməsi yolu ilə məhdudlaşdırılmasını, ikipalatadan ibarət parlament təşkil olunmasını təklif edir. Bunlardan biri təbəələrdən digəriləri isə əyanladan ibarət olmalı idi. Dövlətin bütün qanunları I palatada tərtib olunur, sonra II palatanin müzakirəsinə və nəhayət imzalamaq üçün hökmdara verilir. Hökümdarın hakimiyyəti qanunla məhdudlaşdırılmışdır. Əslində bu qanuna zidd olan heç nə edə bilməzdı.

Beləliklə, xalqı təmsil edən palata qanuvericilik funksiyasını yerinə yetirir, monarxın yalnız qəbul olunmuş qanunları tətbiq etmək hüququ vardır. Monarx “millət vəkili olmalı, xalqın özünün iştirakı ilə qəbul olunmuş qanunlara riayət etməlidir, əhalinin himayədarı və ölkənin mühavizəçisi” olmalı, onu övladları hesab etməli və onlara qayğı göstərməlidir. Xalq konustitusiyalı monarxiya zamanında xoşbəxt yaşayır, o, savadlıdır , mədənidir.

70-ci illərin əvvəllərindən etiarən Axundov xalq hakimiyyətinin tərəfdarı kimi çıxış edir. 1875-ci ildə yazdığı “yek kəlimə haqqında” adlı məqaləsində o, respublika tərəfdarı olduğunu bildirirdi. O, belə bir fikir irəli sürür ki, konstitusiyanın yaradıcısı xalq olmalıdır.

Axundov şəxsiyyətin azadlığı problemlərinə diqqət yetirir və onun

mahiyyətini araşdırmağa çalışırdı. Azadlıq insanların bərabərliyini nəzərdə tutur, azadlıq onların müstəqilliyi deməkdir. O yazirdı ki, mənəvi və cismani azadliq əldə etmədən bərabərlik ağlasığmazdır. O, insanın "təbii hüquqlarının" tərəfdarı kimi çıxış edirdi.

**H.B.Zərdabi** – cəmiyyətin mərhələr üzrə inkişaf etdiyini qeyd edir və istibdadı onun körpəlik mərhələsi hesab edir.Zərdabi cəmiyyəti yoxsullara və varlılara bölür və mülkiyyət və sərvət əməyin nəticəsidir. Keçmişdə bəziləri çox işləmiş, varlı,qüvvətli olmuşlar, başqaları isə az işləmişlər, ona görə də kasıb və zəif olmuşlar. İkincilər zəifləmiş , birincilər isə getdikcə qüvvətlənmişlər. Bu səbəbdən də yoxsullar varlılardan asılı vəziyyətə düşmüşlər. Varlılar isə onları cəhalətdə və gerilikdə saxlayırlar ki, onların özlərindən asılılığını möhkəmləndirsinlər. Ona görə də ağıllı və ləyaqətli adamların əksəriyyəti öz imkanlarından məhrum olur və heyvan kimi yaşayır.

**Məhəmməd Ağa Şahtaxtlı** – publisistik əsərlərində mühüm yer tutan problemlərdən biri sosial tərəqqi olmuşdur. O bu problemə "Müsəlman həyat qabiliyyətinin böhranı" adlı xüsusi bir əsər və "Müsəlmanların avropalaşması" adlı bir məqalə həsr edilişdir. Burada "tərəqqi" anlayışlı "sivilizasiya", "avropalaşma" anlayışlarına tam uyğun gəlir. Avropalılar öz həyat tərzindən başqa , özlərinin birliyi, elmi,maarifi, sənayesi ilə, bir sözlə, mədəniyyət, sivilizasiya adlanan adlanan nə varsa, onunla müsəlmanlardan üstündürlər. O, avropalaşma prosesinə nə isə sarsilmaz bir şey "sosial qanun" kimi baxırdı. Şaxtaxtlının əsərlərində dövlət, hüquq, din, şəriət beynəlxalq hüquq və i.a. ilə bağlı bir çox məsələlər təqdim olunmuşdur. Qanun həyatdan geri qalmamalı və onu tənzim etməlidir, qanun həyatdan doğur və ona əks təsir göstərir. Demokratik hüquqların tərəfdarı kimi çıxış edir. "Həyat və fəaliyyət azadlığını" insanın yüksək nemətləri sırasına aid edirdi. O, demokratik respublikanın qızğın tərəfdarı kimi çıxış edirdi. Onun fikrincə, belə respublikada ən demokratik seçkilər olacaq, bütün vətəndaşlara eyni hüquqlar veriləcəkdir. Prezident dövlətin ya bütün millət tərəfindən seçilən başçısıdır. Gündəlik işində ona prezident müavinləri kömək edirlər.

N.Nərimanov yaradıcılığının ilkın dövrlərində maarifçı kimi çıxış etmiş, sonralar isə inqilabı demokrat və marksist kimi çıxış etmiş, sonralar isə inqilabi demokrat və marksist kimi fəaliyyət göstərmişdir. N.Nərimanov aşağıdaki kimi fəaliyyət göstərmişdir. N.Nərimanov aşağıdakı dövlət formalarını bir-birindən ayırırdı: despotiya, maarifçi monarxiya, konstitusiyalı monarxiya.

Məmmədəmin Rəsulzadə

# IV. SİYASƏT VƏ SİYASİ MÜNASİBƏTLƏR

## Cəmiyyətin siyasi həyatı

Politologiyanın ən mühüm kateqoriyası siyasətdir. Onun vəzifəsi ictimai inkişafı lazimi istiqamətə yönəltməkdir. Aristotel demişdir: siyasətdən kənar insan yoxdur. Siyasət insan üçün zərurət eyni zamanda tələbat kimi çıxış edir. İctimai həyatın mənbəyi mənafe ilə şərtlənmiş fəaliyyətdir. Siyasi əlaqələrin spesifikliyi məhz siyasi fəaliyyətlə bağlıdır.Siyasi əlaqələr müxtəlif səviyyələrdə təzahür edir.Onların nisbətən sadə forması siyasi münasibətlərdir. Onlar siyasi fəaliyyət prosesində subyektlərin bir-birinə münasibətdə vəziyyətini əks etdirir. Siyasi münasibətlər insanların siyasi mənafelərinin uyğun gəlib-gəlməməsinə əsasən yaranan siyasi əməkdaşlıqda yaxud,siyasi rəqabətdə təzahür edən siyasi əlaqələr formasıdır. Siyasi münasibətlər böyük insan qruplarının kütləvi hakimiyyətə görə münasibətlərini ifadə edirlər.

İnsanların siyasi əlaqələrinin 2-ci forması siyasi ittifaqlardır. (birliklərdir)

Onlar siyasi həyatın mürəkkəb forması olub, cəmiyyətdə obyektiv təşəkkül tapan sosial birliklərin mövcudluğunu şərtləndirir.Sabit xarakter daşıyan bu birliklər öz üzvləri üçün vahid siyasi mənafelər formalaşdıran əsas kimi çıxış edirlər ki,bu da siyasi ittifaqların yaranmasına gətirib çıxarır. Siyasi ittifaqların 2 forması: 1) müəyyən ərazidə yaşayan,eyni təsərrüfat və etnik həyatı olan insanların birliyi əsasında təşəkkül tapan siyasi ittifaqlar. Bu cür ərazi birliyinə malik dövləti misal göstərmək olar. 2) Artıq həmin ərazidə təşəkkül tapmış sosial birliklər əsasında yaranan bu və ya başqa ümumi əlamətləri olan siyasi ittifaqlar-partiyaları bura aid etmək olar.Hər iki birlik formasına daxil olan insanların fəaliyyəti və onların daxilindəki münasibətlərin müəyyən qaydada təşkil olunması siyasi təşkilat adlanır.İnsanları siyasi mənafelərə görə ayıran müxtəlif siyasi birliklər cəmiyyətin siyasi strukturunu əmələ gətirir.

Siyasət bir-biri ilə çox qarşılıqlı səbəbiyyət əlaqəsində olan müxtəlif hadisələrdən və proseslərdən ibarətdir.Siyasət qədim mütəfəkkirlərin diqqət mərkəzində olmuş və onun haqqında bir sıra müddəalar irəli sürmüşlər. Platonun anlayışında siyasət çar sənəti olub,insanları idarə etmək bacarığı və biliyi tələb edir.”Nikomaxın etikası” əsərində Aristotel yazır: Siyasətin məqsədi və funksiyası insan birgə yaşayışını

idarə etmək vasitəsilə ümumi rifahı ayrı-ayrı adamların rifahı ilə əlaqələndirməkdir. O, siyasəti etika ilə əlaqələndirirdi. Etikanı siyasətin əsası və girişi adlandırırdı.

Makiavelli siyasəti insan fəaliyyətinin müstəqil muxtar sferası kimi nəzərdən keçirirdi.O,belə hesab edirdi ki,siyasətin ali məqsədi və əsas problemi zamanın xarakterinə və qərar qəbul olunan məqamda spesifik şəraitə uyğun gələn hərəkət obrazını tapmaqdan ibarətdir.O,siyasəti emprik elm adlandırırdı.

Nitşe dövləti hüquqi qanunvericiliyi və siyasəti mədəniyyətin xidmət alətləri və vasitələri hesab edirdi.Mədəniyyətin özünü isə kosmik miqyasda güc və iradənin mübarizəsinin təzahürü kimi nəzərdən keçirirdi.

Dyuverje siyasəti fərdlər və qruplar arasında,hakimiyyət uğrnda mübarizə kimi başa düşür.Fransız alimi Filipp Buro siyasəti 3 cəhətdən nəzərdən keçirir.

1) Əsasında qərarların qəbul edildiyi xətt,vəzifələrin yerinə yetirilməsi və formalaşdırılması üzrə tədbirlər kimi

2) Ayrı-ayrı şəxslərin və siyasi qurumların siyasi hakimiyyəti ələ almaq uğrunda mübarizə apardıları konkret sfera kimi

3) Cəmiyyətdə insanları idarə etmək sənəti kimi

Veberin fikrincə siyasət anlayışı müəyyən mənada müstəqil rəhbərliyi üzrə bütün fəaliyyət növlərini əhatə edir.Bankların valyuta siyasəti,tətillər zamanı həmkarlar ittifaqının siyasəti,şəhər və kənd icmasının məktəb siyasəti şirkətə rəhbərlik edən idarə və nəhayət ərini idarə etməyə çalışan qadın siyasəti.

Gill və Panton siyasət ictimai işlərin aydınlaşdırılması və qaydaya salınması üsuludur.

Siyasət-ölkənin ictimai işlərini idarə olunmasına aid olan və hakimiyyətin yaradılmasını,onun fəaliyyəti üzərində nəzarəti,onu həyata keçirən şəxslərin dəyişdirilməsi imkanlarını müəyyən edən hərəkətlərin və təsisatların məcmusudur.

Siyasət-cəmiyyətin siyasi həyatının sosial sferası olub hakimiyyəti əldə etmək, möhkəmləndirmək,realizə etmək istiqamətidir.

Siyasət-ictimai əhəmiyyətli tələbatların reallaşdırılması üçün siyasi hakimiyyətin qurulması və fəaliyyət göstərməsi ilə səciyyələnən böyük sosial qruplar arasındakı münasibətlər sferasında fəaliyyətdir.

Siyasət cəmiyyətdə insanların həyatının birlikdə təşkili fəaliyyəti olub,özündə 4 ünsürü birləşdirir.

1. İnsanlar arasında qarşılıqlı əlaqələri nizamlayır.

2. Cəmiyyətin idarə olunması qaydalarını hazırlayır.
3. Sosial prosesləri idarə və nəzarət edir.
4. Hakimiyyət uğrunda siyasi mübarizəni tənzimləyir.

Siyasət anlayışda dövlət hakimiyyəti,siyasi qərarların qəbul edilməsi mexanizmi,siyasi şüur,siyasi proseslər daxildir.Siyasi proseslər siyasətin ardıcıl,fasiləsiz davam etməsidir.

Siyasətin obyekti və subyekti kimi insanlar çıxış edir. Çünki, insanlar yaradır və həyata keçirir. Siyasətin obyekti bütöv bir cəmiyyət, millət, sinif götürüldüyü halda subyekt kimi həmin dövrdə hakimiyyətdə olan siyasi qrup,partiya nəzərdə tutulur. Siyasət səviyyəsinə görə makro,meqo,mikro siyasətə bölünür.

**Makro siyasət** - (dövlət, millət) müasir siyasi təşkilatın agentlərinin məkan xarakteristikası ilə bağlıdır.

**Meqo siyasət** - (dünya siyasəti, qlobal səviyyəli siyasət) daha yüksək səviyyədə olub, milli dövlətlərin xarici qarşılıqlı fəaliyyəti və əlaqəsidir.

**Mikro siyasət** - (partiya, həmkarlar, firmalar) qrup və fərdlər arasında qarşılıqlı əlaqə olub,siyasətin mikrəproseslərinə diqqət yetirir.

Siyasətin məqsədi-siyasətin istiqamətini, siyasi fəaliyyətin formalarını müəyyən edir. Onun məqsədi əhəmiyyətinə, məzmununa, siyasi proseslərin mərhələlərinə görə fərqlənir.

Əhəmiyyətinə görə-xüsusi və az əhəmiyyətli, (həmçinin xarici cəmiyyətlərin yeniləşdirilməsi və ən böyük ümumi bərabərlik, ədalət, azadlıq və s.)

Məzmununa görə - sosial, iqdisadi, ideoloji, siyasi-hüquqi, təcavüzkar, sülhsevər, humanitar, ekoloji.

Siyasi proseslərin mərhələləri baxımından-yaxın,aralı,daha uzaq və son məqsəd.

Siyasətin vasitələri onun məqsədlərinin praktiki baxımdan həyata keçirilməsi üsuludur.

Siyasətin əsas funksiyaları:

1. Mürəkkəb sosial sistem kimi cəmiyyətin bütövlülüyünün qorunması və möhkəmlənməsi ictimai intizamın və mütəşəkkillliyin təmin edilməsi
2. Cəmiyyətin bütöv qrup və təbəqələrinin məqsədlərinin ifadə edilməsi həmin məqsədlərin reallaşdırılması üçün vasitələrin və ehtiyyatların səfərbər edilməsi.
3. Cəmiyyətin və şəxsiyyətin sosial inkişafında innovasiyalılığın təmin edilməsi təbiət və insan arasındakı münasibətlər sahəsinin

genişlənməsi

4. İctimai proseslərə rəhbərlik və onların idarə olunması dövlətlə vətəndaş arasında sivilizasiyalı dialoqun təmin edilməsi

5. Qrup münaqişələrinin nizamlanması və qarşısının alınması

6. Məhdud dəyər və elementlərin avtoritar məcburi bölgüsü

7. Şəxsiyyətin sosiallaşması,insanın müstəqil,sosial aktiv varlıq kimi təşkil edilməsi

Siyasət-dövlət, hüquq, partiya, seçki sistemi, qərarların qəbul edilməsi prosesini, siyasi münasibətləri, siyasi mədəniyyəti özündə birləşdirir. Bunlar aşağıdakılardır:

1. Dövlət hakimiyyəti
2. Siyasi münasibətlər
3. Sosial təsisatlar sistemi
4. Hakimiyyət uğrunda mübarizə və onun idarə edilməsi.

## Siyasət: mənafelər və sərvətlər

Siyasi davranışın və siyasi münasibətlərin əsasında mənafe durur

A.Smit və Q.Spenser tərəfindən "Mənafe" modeli işlənib hazırlanmışdır. "Mənafe" insanları həmişə hərəkətə gətirən,onları ayıran və birləşdirən psixoloji modeldir.Mənafe modeli müasir nəzəriyyələrdə ifrat sağların,sol radikalların və liberalların dentrinalarında istifadə edilir.Burada şəxsiyyət siyasəti ifadə edən fəal fiqur və subyektiv kimi təqdim olunur.

Mənafe mçodelinin tərəfdarlarının siyasi təfəkkürünə görə 2 növ ziddiyət mövcuddur.Bunlar "cəmiyyət."və "fərd" və "cəmiyyət və "dövlət" arasında olan ziddiyətlərdir. I də fərd fəal kimi çıxış edir, II də isə cəmiyyət fərdlərin cəmi kimi təsvir olunur.Burada dövlət fərdlərin mənafeyini,onun hüquqlarını tapdalayır və sət mərkəzləşmiş hakimiyyət qurur.

Geniş mənafe. "Siyasi mənafe" böyük ictimai qrupların öz mənafeyini siyasi hakimiyyət vasitəsilə reallaşdırmaq imkanlarını obyektiv surətdə dərk etməsidir. Siyasi hakimiyyətin ələ alınması, möhkəmləndirilməsi, müfafiq təsisatlarda bərkidilməsi habelə onun təkmilləşdirilməsi siyasi mənafenin birbaşa obyektidir.

Dar mənada siyasi mənafe siyasi hakimiyyətdə iştirak etməyin obyektiv imkanlarının sosial subyekt tərəfindən dərk edilməsidir. Siyasi mənafe 5 əsas mərhələdən keçir:

1. Cəmiyyətlə proktik ilişgilərdə subyektin vəziyyəti.

2. Bu vəziyyətin subyekt tərəfindən dərk edilməsi səviyyəsi
3. Davranış və fəaliyyət motivləri
4. Obyektiv aləmdə mənafenin təsdiq olunması prosesindən ibarət hərəkətin özü
5. Mənafenin təsisatlandırılması
Siyasi mənafeləri aşağıdakı kimi təsnif edilir:
1. Mənafeni təmsil edən orqana görə: dövlət, partiya, ictimai təşkilatların və birliklərin mənafeyi
2. Siyasi xəttin xarakterinə görə: ultrasol, sol, sol mərkəz, mərkəz, sağ, sağ ultrasağ
3. Siyasi rejimin xarakterinə görə: totalitar, demokratik

## Siyasətin subyektləri

Siyasətin subyekti azad,fəal,mütəşəkkil fəaliyyət göstərən siyasətin iştirakçılarıdır.Siyasət subyekti,o şəxs,təşkilat,yaxud ictimai qrupdur ki, o siyasəti yaradır, yəni başqa sözlə desək öz mənafeyinə uyğun olaraq siyasi həyatda sabit və nisbətən müstəqil iştirak edə bilir,siyasi münasibətlərdə bu və ya başqa dəyişikliyə nail olur.

Onun bu qabiliyyəti "siyasi subyektlik" anlayışı ilə ifadə olunur. Siyasətdə mühüm rol oynaya biləcək fərdlər arasında müəyyən böyük ictimai qrupu təmsil edən,ondan yardım,hərəkət etmək, hakimiyyət, səlahiyyət hüququ olan şəxs həqiqətən təsir etmək hüququna malikdir.

Siyasətin bilavasitə subyekti olan,bu və ya başqa formada rəhbər funksiyalar yerinə yetirən 3 ictimai qrup göstərmək olar.

1. İctimai hərəkatların və böyük ictimai qrupların formal təsisatlarının rəhbər mərkəzləri.
2. Siyasi elitalar
3. Partikulyar mənafe qruplar (lobbi).Böyük ictimai qruplar siyasətin ilkin subyektləridir.Onun əlavə subyektləri isə birbaşa və fəal bilavasitə subyektlərə bölünür.Birbaşa subyektlər üçün qruplar və kollektivlər,habelə fərdlər,bilavasitə subyektlərə isə təbliğat təsisatları (məscid,kilsə)aiddir.

**Siyasətin beynəlxalq subyektləri**:
1. Milli dövlətlər
2. Supermilli dövlət assosiasiyaları (məs. Anur Dövlətləri Təşkilatları, Avropa İqdisadi Birliyi, Müstəqil Dövlətlər Birliyi)
3. Qeyri-hökümət təşkilatları (transmilli korporasiyalar bura aiddir) Onlar öz investisiyalarıvə firmaları vasitəsilə dövlətlərin siyasətinə təsir

göstərə bilərlər. BMTsistemə daxil olan Beynəlxalq hökümət təşkilatları: YUNESCO; Dünya Bankı; Beynəlxalq Əmək Təşkilatı.

# V. SIYASI HAKIMIYYƏT VƏ ONUN DAŞIYICILARI

## Siyasi hakimiyyət anlayışı.
## Hakimiyyətin məzmunu və tipləri

Siyasi hakimiyyət – Politogiyanın mərkəzi kateqoriyalarından biridir.

Siyasi hakimiyyət – fərdin, yaxud sosial qrupun müvafiq cəmiyyətin hüquq normalarında qanunilәşdirilmiş iradəsini həyata keçirməkdən ibarət real qabiliyyətdir.

Siyasi hakimiyyət – ağalıq, rəhbərlik, idarə etmə və nəzarət formalarında mövcud olur.

Siyasi hakimiyyət – müxtəlif vasitələrlə (hüquq, avtoritet, idarə, məcbur etmə) insanların taleyinə, fəaliyyət və davranışına həlledici təsir göstərmək imkanı hüquq və qabiliyyətdir.

Siyasi hakimiyyət – sinfin, qrupun, fərdin siyasətlə siyasi, hüquqi normalarla öz iradəsini həyata keçirmə vasitəsidir.

Hakimiyyət – bir insanın, qrupun, müxtəlif vasitələrlə (hüquq, nüfuz, iradə, məcburiyyət) başqalarının davranış və fəaliyyətlərinə həlledici təsir göstərmək hüququ və bacarığıdır.

Hakimiyyət-başqalarına təsir göstərməkdir.

-müəyyən məqsədlərə,nəticələrə nail olmaqdır.

-güc də daxil olmaqla mümkün vasitələrdən istifadə etməkdir.

-başqalarının davranışını dəyişən və nizamlayan xüsusi tip fəaliyyətdir.

-idarə edən və idarə olunan arasında münasibətlərin xüsusi növüdür.

Siyasi fikir tarixində qədim və müasir mütəfəkkirlər fikirlər söyləmişlər.

**Aristotel** siyasi hakimiyyətin təbii yolla əmələ gəlməsini və insanların təbiətən siyasi varlıq olduğunu göstərmişdir.Orta əsrlərdə Akvinali Fomaya görə hakimiyyətin mashiyyəti ağalıq və tabelik münasibətlərindən ibarətdir.Onun fikrinə görə Allah belə qayda qoymuşdur:aşağı təbəqə yuxarı təbəqənin iradəsinə tabe olmalıdır. Hakimiyyət Allahın yaratdığı qaydadır, buna görə də o, xeyirxahdır, həmişə nəsə yaxşı bir şeydir, sərvətdir.İslam dininə grə "Allahdan kənar hakimiyyət yoxdur".

Müasir ingilis-amerkan politoloji məktəbinin nümayəndəsi **Margentau** yazır: hakimiyyət insanın başqa insanların şüuru və hərəkətləri üzərində nəzarət etməsi başa düşülür.

**Blaunun** fikrincə hakimiyyət bir fərdin,yaxud qrupun başqaları

üzərində öz iradəsini həyata keçirməsidir.

**Dyuverje** hakimiyyyətin 2 tərəfinin olduğunu qeyd edirdi.Onun fikrincə hakimiyyət bir tərəfdən bir qrupun digəri üzərində ağalıq alətidir,digər tərəfdən isə sosial qaydanı qoruyub saxlamaq üsulu,ümumi rifah naminə hamının bir kollektivdə müəyyən inteqrasiyasıdır.

**M.Veber** yazırdı ki,hakimiyyət başqa əqidələrlə mübarizədə,belə bir insanın nəyə əsaslanmasından asılı olmayaraq,şəxsən iradəsini yeritmək üçün hər hansı bir imkan deməkdir.

**Makiavelliyə** görə hakimiyyətin silahı hüquq,əsası yaxşı qanun və yaxşı ordudur,hakimiyyət gücdür.

Hakimiyət haqqında bir sıra müasir konsepsiyalar vardır: relyativist, biheviorçu sistem.

Relyativist(latın sözü olub nisbi deməkdir) konsepsiyaya görə hakimiyyət şəxsiyyət münasibətlərindən ibarət olub obyektin subyektinə təsiridir.Bu konsepsiya sabitlik naminə cəmiyyətə təsir göstərmək yollarına malikdir.

Bihəviorçu konsepsiyaya görə bir qrup şəxslər hökmranlıq edir,digərləri tabeçilikdə qalır.Bu konsepsiyanın daha bir xüsusiyyəti ondadır ki,burada insanların davranışına diqqət yetirilir.

Sistem konsepsiyasına görə isə hakimiyyəti siyasi sistemində sistem əmələ gətirən münasibətlər araşdırır və digər ünsürlər siyasi hakimiyyətlə bilavasitə əlaqədədirlər.

Hakimiyyət əsasən iki növə bölünür:sosial və siyasi hakimiyyət.

İqtisadi,mənəvi,əxlaqi,psixoloji,dini hakimiyyət sosial hakimiyyətin növləridir.İqtisadi hakimiyyətdə siyasi macburetmə yoxdur və insanların iqtisadi münasibətlər nəticəsində yaranır.Məsələn ibtidai icma dövründə əmək alətləri hamıya məxsus olduğuna görə əldə edilən qənimət bərabər bölüşdürülürdü.Siyasi hakimiyyət meydana gələndən sonra da xüsusi mülkiyyət sahibləri öz maddi istehsal sahələrini qorumaq,inkişaf etdirmək üçün ona təsir göstərdilər.Mənəvi-əxlaqi hakimiyyət dövlət hakimiyyətindən əvvəl yaranıb.İbtidai icma dövründə qəbilə başçısı qəbilə tərəfindən yaradılan əxlaq normaları əsasında idarə edirdi.Əxlaqi normalar cəmiyyətin özü tərəfindən yaradılır və cəmiyyət inkişaf etdikcə mənəvi-əxlaqi dəyərlər zənginləşir.Psixologiji hakimiyyət insanların hakimiyyətə tabe etdirmək mərasimlərinin,rituallarının keçirilməsində təsir edir.Dini cəmiyyətin yaranması ilə meydana gələrək,insanlararası münasibətləri tənzim edir.

Siyasi hakimiyyətin birinci mənbəyi,əsası kimi xalq götürülür. Bunlar da öz növbəsində üfüqi (icraedici, qanunverici, məhkəmə

orqanları) və şaquli (mərkəz,region,yerli orqanlar) istiqamətdə xalqın adından hakimiyyətin subyekti kimi çıxış edirlər.İkinci mənbə kimi siyasi partiyalar, siyasi təşkilatlar, qurumlar. Üçüncü mənbəyi dövlətdir. Dövlət hakimiyyəti müəyyən təşkilat, müəyyən əməli fəaliyyətdir. Dövlət hakimiyyəti bütün əhali üçün məcburi qanunlar vermək hüququna malikdir.

Siyasi hakimiyyət-ictimai xarakter daşıyır,böyük qrupların maraqlarını ifadə edir: çünki, siyasət milyonlarla insan olan yerdə hərəkətə gəlir.

- siyasi institutların fəaliyyəti ilə ifadə olunur.

- peşəkar idarəçilik əməyi ilə məşğul olan xüsusi qrupların hakimiyyət iddialarında,iradələrində təzahür edir.

-siyasi qərarlarınhazırlanması,qəbulu və həyata keçirilməsi prosesində təzahür edir.

-insanları inandırma,nüfuz,ənənə,emosiya,məcburiyyət,güc vasitəsiylə təsir göstərir.

Siyasi hakimiyyətin subyektləri ayrı-ayrı fərdlər idarə edən oliqarxiya,siyasi partiyalar,millət və.s zənginləşmək, rifaha qovuşmaq, əlaqələr yaratmaq məqsədilə hakimiyyətə can atmaq siyasi hakimiyyət subyektlərinin xarakterik xüsusiyyətləridir. Subyektlər vaxtlı-vaxtında düzgün qərarlar qəbul etməyə və başlanan işi axıra çatdırmağa qadirdirlər.

Siyasi hakimiyyət subyektlərini 2 qismə ayırır:

1) kollektivlər, yəni, siyasi partiyalar, deputat qrupları və başqa birliklər

2) fərdlər, yəni siyasi elitlər və onların liderləri, hakimiyyətə sahib olanlar və siyasətdə müəyyən rol oynayanlar. Siyasi hakimiyyətin subyektləri cəmiyyətin içərisindən çıxır.

Siyasi hakimiyyətin obyektləri-həmin hakimiyyətin tətbiq etdiyi şəxslər və sosial qruplardır:

Siyasi hakimiyyətə ağalıq, rəhbərlik, idarəetmə, koordinasiya (əlaqələndirmə), təşkiletmə, nəzarət,metodlatı ilə idarə olunur və reallaşdırılır, qanunlar, normalar, qaydalar, iradi və emosional təsirlər vasitəsilə ifadə olunur.

Siyasi hakimiyyət güc, sərvət, cəmiyyətdəki müvqe, təşkilatlar, birlik və informasiya mənbələrinə malikdir.

Siyasi hakimiyyət mürəkkəb və çoxplanlı bir hadisədir. O, universal bir hadisədir və universallığı onun aliliyində ifadə olunur. Siyasi hakimiyyətin reallaşdırılması hər şeydən əvvəl cəmiyyətin bütövlüyünü

və vəhdətini saxlamağa xidmət edir.

Siyasi hakimiyyət yalnız qüvvəyə və zora deyil, ictimai münasibətləri qanunvericilik yolu ilə tənzimləməyə əsaslanır və yalnız bu qanunların icrası üçün zor tətbiq edir.Siyasi hakimiyyət dövlət hakimiyyətindən genişdir. Dövlət hakimiyyəti dövlət orqanları sisteminin öz yuridiksiyasına aid olan vətəndaşları,təşkilatları və müəssisələri özünə tabü etmək, onlara sərəncam vermək və onları idarə etmək qabiliyyəti, hamı üçün məcburi olan qanunvericilik və digər normativ aktları dərc etmək və onların təmin etmək qabiliyyəti nəzərdə tutulur.

**Hakimiyyətin tipləri.** Siyasi elmdə hakimiyyətin legitimliyi anlayışı M.Veberə məxsusdur. Legitimliyin bir tipli proses olmadığını qeyd edərək onun 3 formasını göstərmişdir: ənənəvi, xarizmatik, rasional-leqal.

**Legitimlik** – latın dillərindən tərcümədə qanunauyğun deməkdir. Legitimlik fərdlərin mənafelərini ifadə edir. Legitimlik siyasət və hakimiyyəti təsdiqləyir, siyasi qərarları, siyasi strukturların yaranmasını, dəyişməsini, yeniləşməsini izah və müdafiə edir. Demokratik prosedurlar əsasında formalaşdırılan hakimiyyətlər legitim sayılır. Güc əsasında formalaşdırılan isə çox hakimiyyət o zaman legitim olur ki, o birisi xalqdan gəlir və çoxluğun iradəsinə uyğun həyata keçirilir.

**Veber** xalis ideal tiplər nəzəriyyəsinə əsasən hakimiyyətin (ağalıq) 3 tipini müəyyənləşdirir: ənənəvi, harizmatik, rasional-leqal.

Ənənəvi – Cəmiyyət ənənələrə və davranış normalarına tabe olur. Bu hakimiyyəıtin daşıyıcısı tayfa başçısı,monarx (mütləq hökmdar) olur. Onlar ənənə əsasında öz təbələrinə əmr edə bilərlər. Xalis halda ənənəvi hakimiyyəti patriarxal hakimiyyət adlandırır.

Harizmalı hakimiyyət-yunanca Allah vergisi deməkdir. Hakimiyyətə kor-koranə inam deməkdir. Müdrik bir şəxs, görkəmli natiq, sərkərdə, harizmaya malik ola bilər. Harizmatik hakim digər tiplərin bir növ müqayisəçisidir və daha nüfuzludur.Harizma ağalığının ən xalis tipi kimi peyğəmbər,hərbi qəhrəman və.s ola bilər.O,sosial-siyasi böhran şəraitndə meydana çıxır,ənənəvi və leqal ağalıq isə nisbətən sabit sosial-siyasi şərait üçün səciyyəvidir.

Rasional-leqal hakimiyyətdən o zaman danışmaq olar ki,orada hüquq qaydalarının ədalətli olmasına inam əsasında onlara əməl edilir və onlar reallaşdırılır.

Rasional-leqal hakimiyyət qanunun qüvvəsinə, konstitusiyaya arxalanır. Lider qanun çərçivəsində və əsasında hərəkət edir.

Rasional-leqal hakimiyyətin mahiyyəti aşağıdakılarda öz ifadəsini tapır:

1. İstənilən norma hüquq kimi qəbul etdirilə bilər cə bütün vətəndaşların həmin normalara tabe olacağı ehtimal oluna bilər.

2. Hüquq mücərrəd qanunlar kompleksi olub, konkret şəraitdə həyata keçirildikdə real qüvvəyə minir.

3. Hakimiyyətdə olan adamlar müstəqil hakimlər deyil,müəyyən edilmiş dövrdə hüquqla təyin edilmiş vəzifələri yerinə yetirən yüksək səviyyəli icraçılardır.

4. İdarə olunanlar hökmdara tabe olan təbəələr deyil,hüquqa tabe olan azad vətəndaşlardır.

Siyasi hakimiyyətin yerinə yetirdiyi funksiyalar idarəetmə, təşkilati, tənzimləmə-nizamlama.

**İdarəetmə** -cəmiyyətin idarə edilməsi stategiyasının hazırlanması.

**Təşkilati** -cəmiyyətin inkişafının əsas istiqamətləri üzrə konkret qərarların hazərlanması və qəbulu.

**Tənzimləmə-nizamlama** -sosial proseslərin səmərəli idarə olunması və ictimai münasibətlərin

**Nəzarət** -cəmiyyətdə sabitliyin qorunması və sosial inkişafın ən mühüm göstəricilərinə nəzarət.

Siyasi hakimiyyətin işləmə mexanizmlərinə görə 3 aspektdə təzahür formalarına rast gəlinir:

1) hökmranlıq-tabeçilik(simvolik)

2) nəzarət-təsir(struktur)

3) idarəetmə-təzyiq(instrumental)

Bu aspektlər siyasi elmdə belə bir adlar almışdır: simvolik hakimiyyət – (legitim qaydaları saxlamaq);struktur hakimiyyət-(resursların hakimiyyət səlahiyyətlərinin bölünməsi); instrumental hakimiyyət – (vətəndaş cəmiyyətinin təzyiqi cə idarəedən insanlartın qarşılıqlı münasibəti)

Siyasi hakimiyyətin birinci mənbəyi, əsası xalqdır. Bunlar da öz növbəsində üfüqi (icraedici,qanunverici,məhkəmə orqanları) və şaquli (mərkəz, region, yerli orqanlar) istiqamətdə xalqın adından hakimiyyətin subyekti kimi çıxış edir.

1. mənbə-s.partiyalar,s.təşkilatlar,qurumlar

2. mənbə-dövlət

Siyasi hakimiyyətin resursları – (hakimiyyət subyektlərini obyektə təsir göstərməsinə şərait yaradan vasitələrin məcmusu) aşağıdakılardır:

İqdisadi resurslar-ictimai istehsal və istehlak üçün zəruri olan maddi

dəyərlər, pul, məhsuldar torpaqlar, faydalı qazıntılar

Güc (məcburetmə)resursları- xüsusi bu məqsədlə hazırlanmış insanlar

Sosial resurslar-sosial strukturdakı yeri,sosial statusun aşağı və yuxarıya doğru dəyişməsi imkanı

Mədəni-informasiya resursları- birliklər və informasiya, həmçinin onların əldə olunması və yayılması vasitələri

Siyasi-hüquqi-konstitusiya,qanunlar,siyasipartiyaların proqram sənədləri

Demokratik resurslar-insan başqa resursların yaradıcısı və universal resursu kimi

**Hakimiyyətin subyekti**-dövlət

**Hakimiyyətin obyekti**-vətəndaş cəmiyyəti

**Veber** həmçinin hakimiyyətin 3 növünü:

İqdisadi, ideoloji (siyasi), hüquqi (dövlət) göstərir. İqdisadi hakimiyyət və siyasi hakimiyyət arasında sıx əlaqə mövcuddur.

**Vyatrın** fikrincə, iqdisadi hakimiyyət xalis formada siyasi məcburetmə adlanan ünsürə malik deyildir.İqdisadi hakimiyyət siyasi məcburetməyə əsaslanmayan ictimai münasibətdir. İqdisadi hakimiyyəti həyata keçirməyə imkan verən maddi istehsal vasitələrinin sahibləri mülkiyyəti,yəni öz hakimiyyətinin mənbəyini səmərəli sürətdə müdafiə etmək üçün siyasi hakimiyyətə təsir etmək,onu ələ keçirmək istəyirlər. Öz növbəsində ixtiyarında siyasi məcburetmə vasitələri olanlar iqdisadi potensialdan öz hakimiyyətini möhkəmləndirmək üçün istifadə edirlər.

Hakimiyyət termini sosial kontekstdə kiminsə (şəxsin yaxud sosial qrupun) başqalarını müəyyən şəkildə öz istədiyini etməyə məcbur etməsi mənasını işlədilir.Buna yalnız o şəxs yaxud qrup nail ola bilər ki,o birincisi yaxşı natiq olsun: ikincisi biliyə yaxud qayğıkeşliyinə görə ona etibar olsun,üçüncüsü müəyyən vəzifə sahibi olsun, dördüncüsü itaətsizlik halları olduqda sanksiya vermək imkanına malik olsun.

Əgər kimsə öz şəxsi keyfiyyətlərinə,yaxud vəzifəsinə görə böyük nüfuza malikdirsə və buna görə də istədiyini başqalarına qəbul etdirə bilirsə, bu halda nüfuz hakimiyyəti üzə çıxır.Siyasi sistemdə nüfuz dövlət hakimiyyəti təsisatlarının qəbul etdikləri qanunlara insanları əməl etməyə razı olması deməkdir. Nüfuz hakimiyyətdən danışarkə legitimlik anlayışından danışmaq lazımdır.Cəmiyyətin normal inkişaf etdiyi şəraitdə legitimləşdirmə nüfuz hakimiyyətinin sabitliyini təmin edilməsinə kömək edir.

Təcrübədə elə hallar olur ki, formal cəhətdən hakimiyyət başında

olan şəxs faktik olaraq hakimiyyətdən, legitimlikdən məhrum olur. Məsələn, Azərbaycan respublikasında 1989-cu ilin sonu 1990 cı ilin əvvəllərində Vəzirov, 1992-ci ilin əvvəllərində Mütəllibov, həmin ilin aprel-may aylarında hakimiyyət əllərində olsa da, əslində real hakimiyyət Azərbaycan Xalq Cəbhəsinin başçılığı ilə demokratik qüvvələrin əlində idi.

Hakimiyyət o zaman legitim olur ki, o birisi xalqdangəlir və çoxluğun iradəsinə uyğun həyata keçirilir, yəni dövlət hakimiyyəti birbaşa, yaxud dolayısı ilə və müəyyən müddətə xalq tərəfindən seçilir və onun tərəfindən nəzarət altında olur:ikincisi dövlət hakimiyyəti konstitusiya prinsiplərinə uyğun surətdə həyata keçirilir. Hakimiyyətin legitim olması hələ onun səmərəli olması demək deyildir. Məs.: Stalin hakimiyyəti legitim idi,xalq kütlələri ona dərindən inanır,onun hakimiyyəti səmərəsiz legitim idi,çünki,dövlət nə iqdisadi, nə mədəni cəhətdən inkişaf etməmişdi. Çilidə Pinoçet 15 mindən artıq insan ölümünə səbəb olmuşdu, lakinonun hakimiyyəti səmərəli hakimiyyət idi, çünki, qısa müddət ərzində Çilidə müasir cəmiyyətin qurulmasını təmin etdi.

## Siyasi hakimiyyətin subyektləri

Marksizm və Lelinizmə görə siyasi hakimiyyət istehsal vasitələri üzərində xüsusi mülkiyyətin atributudur. Deməli, antoqonist cəmiyyətlərdə hakimiyyətin subyekti istehsal vasitələrinin sahibi olan kapitalistlər sinfi sosializm cəmiyyətində isə xalq kütləlləridir. II dünya müharibəsindən sonra Politogiyada qrup nəzəriyyəsi formalaşdı. Məhz bu qruplar siyasi hakimiyyətin əsas subyektlərindən bəhs edir.Bu qruplar aşağıdakılardır:

**Təsisatlı qruplar** – kilsə, ordu, şirkətlər, siyasi partiyalar kimi təsisatların yarımqruplarıdır. Onlar müvafiq təsisatların siyasi mənafelərinin qayğısına qalırlar.

**Assosiyalaşmamış qruplar** – müəyyən struktura, yaxud qeyri-mütəşəkkil müxtəlif sosial-demoqrafik,etnik birliklərin üzvlərinə kömək etmək məqsədilə çhökümət üzvləri ilə sıx əlaqə saxlayırlar.

**Anomik qruplar sistemi** - qısa müddətli qruplar olub,tərkibi qeyri-mütəşəkkil nümayişlər və həyəcanlar zamanı öz narazılığını ifadə edən fərdlərdən təşkil olunurlar.Belə qruplar əgər uzun müddət mövcud olurlarsa,assosiyalaşmış qrupa çevrilir və öz məqsədlərinə çatmaq üçün zorakı metodlardan da istifadə edirlər.

Hakimiyyət orqanlarına təsir göstərmək üçün qruplar adətən təzyiq metodlarından istifadə edirlər.Siyasi mənafelər əsasında birləşən qrupların istifadə etdikləri təzyiq vasitəsi lobbizm adlanır.Onun ən geniş yayılmış forması seçki kompaniyası zamanı namizədlərin birinin,yaxud müvafiq partiyanın nəfinə pul xərcləməkdir.

Ən yaxşı tədqiq olunmuş qruplardan biri siyasi hakimiyyət subyekti olmaq iddiasında olan elitadır.

## Siyasi elita. Elita nəzəriyyələri

Siyasi hakimiyyətin əsas daşıyıcılarından biri elita təbəqəsidir. Elita fransız sözü olub yaxşı seçilmiş mənasını verir. Elitanın əsasən iki 2 anlamda, həm geniş, həm də dar mənada işlədirlər. **Geniş mənada –** hər hansı sahədə seçilən, maksimum ölçülərlə göstərilən insanlar, şəhərlər və s. məs elitar hərbiçi, elitar şəhər, elitar idman növü.

**Dar mənada –** ümumi cəmiyyət üçün seçilən, qiymətli insanlar. Bu mənada işlədilən elita ifadəsi qurdarlıq və feodalizm cəmiyyətlərində aristokratiya kimi işlədilib. Siyasi elmə gəldikdə elita 1-ci mənada işlədilir.

Elitanın yaranmasının və mövcudluğunun başlıca şərtləri:

- İnsanların sosial və psixoloji qeyri-bərabərliyi,
- İdarəetmə fəaliyyətinin səmərəsini qaldırmaq məqsədi ilə onun xüsusi peşə növü kimi ayrılması,
- İdarəetmə əməyinin yüksək ictimai əhəmiyyəti və müvafiq surətdə həvəsləndirilməsi,
- İdarəçilik əməyinin sosial imtiyazlara imkan və şərait yaratması,
- Siyasi rəhbərlik üzərində idrəçiliyin qeyri-mümkünlüyü,
- Əhalinin böyük əksəriyyətinin siyasi passivliyi və idarə olunmağa meyilli olması.

**Siyasi elita** – dövlət hakimiyyətini və vəzifələrini öz əlində cəmləşdirərək cəmiyyəti idarə edən qrup, ictimi təbəqədir.

**Siyasi elita** – cəmiyyətin daxilən rəngərang, ictimai strukturlarda yüksək vəzifə tutan, yüksək qərarların qəbul edilməsinə təsir göstərən mütəşəkkil azlıqdır.

**Siyasi elita –** idarəetmə keyfiyyətini və funksiyalarını özündə əks etdirən insan qruplarıdır.

**Elita nəzəriyyələri.** Elita nəzəriyyələrinin baniləri Mizels, Paretto, Makiavelli və.s.

Elitanın bir sıra nəzəriyyələri var, dəyərlər nəzəriyyəsi, demokratik

elitorizm nəzəriyyəsi, pluralist nəzəriyyəsi, sosial-liberalçı nəzəriyyə.

**I.** II dünya müharibəsindən sonra Makeavelli məktəbi adı altında yaranan cərəyanın əsas ideyaları aşağıdakılardır:

1. Elitanın tərbiyəsi nəticəsində formalaşmış və fikri keyfiyyətlərin olması.
2. Hər hansı cəmiyyətdə elitarlığın yaradıcı azlıq və passiv çoxluğa bölünməsinin qəbul edilməsi.
3. Elitanın hakimiyyət uğrunda mübarizədə formalaşması və dəyişməsi.
4. Elitanın qrup halında birləşməsi.
5. Elitanın cəmiyyətdə hakim, konstruktiv rol oynaması.

**II. Dəyərlər nəzəriyyəsi**: elitanı cəmiyyətin aparıcı gücü hesab edir, onun dəyərlər aspektini izah edir:

1. Elitaya aid yüksək qabiliyyətləri və mühüm fəaliyyət sahələrində yüksək göstəricilərin olması ilə müəyən edilir.
2. Elita özünün həyata keçirdiyi hakim funksiya əsasında birləşir.
3. Elita-kütlə münasibətləri sosial ağalıq xarakteri daşımır, kütlə hakimiyyətə könüllü daxil olur.
4. Elitarlıq hər hansı cəmiyyətinin effektiv fəaliyyətinin şərtidir.
5. Elitanın formalaşması hakimiyyət uğrunda mübarizənin deyil, daha qiymətli münasibətlərin seçilməsinin nəticəsidir.

**III. Demokratik elitalizm nəzəriyyəsi**-demokratik konsepsiyalar əsasında yaranıb elita rəhbərliyə ləyaqətli insanların seçilməsinə bir növ nəzarət edir.

**IV. Pluralizm nəzəriyyəsi** – (Funksional) Elita nəzəriyyələrini inkar edir, ona kökündən yenidən baxılmasını tələb edir. Bu nəzəriyyənin müddəaları aşağıdakılardır.

1. Elitanın vahid,imtiyazlı, nisbətən birləşmiş qrup xarakteri inkar edilir.
2. Cəmiyyətin elitaya və kütləyə bölünməsi şərti və nisbidir.
3. Demokratiya cəmiyyətdə elita idarəetmə ilə bağlı mühim ictimai funksiya həyata keçirilir.
4. Müasir demokratiyalarda elita daha bacarıqlı və maraqlı şəxslərdən təşkil olunur ki, onlarda elitaya sərbəst daxil ola bilər.

**V. Sosial-liberalçı nəzəriyyə (Lassuel, Mills)** – pluralist nəzəriyyəsinin təkib edir, Makiavelli nəzəriyyəsinə yaxın olsada özünün spesifik müddəalarına malikdir.

1. Elitanın yüksək vəzifənin, kamanda mövqelərinin olması əsasdır.
2. Hakim elitanın qrup halında birləşməsi və rəngarəng olması.

3. Elita ilə kütlə arasında dərin fərqlərin olması.
4. Elitanın əsasən öz mühitindən seçilməsi.
5. Elitanın əsas funksiyası öz ağalığını təmin etməsidir.

**Elitanın tipləri:**

- İrsi elita-aristokratiya
- İqtidar və müxalif elita. Açıq və qapalı elita
- Yüksək (marginal 200-400 nəfər nəzərdə tutulur) və orta elita (3 əlamətlə ayrılır, gəlir, peşəkalıq, və təhsil)

Parktikada elitanın seçilməsinin başlıca olaraq 2 sistemi qərarlaşıb:

1) Gildiya sistemi-qapalılıq
   a) Yüksək vəzifələrə məhz həmin elitanın aşağı təbəqələrindən seçilir
   b) Vəzifə tutmaq üçün çoxsaylı tələblərin qoyulması
   c) Seloktroratın kiçik olması( 1-ci şəxslərdən biri). Artıq mövcud olan lider tipinin təkrar istehsalı tendensiyası.
2) İntrepenyor sistemi
   a) Açıqlıq- istənilən ictimai qrup üzvlərinin idarəetmə strukturlarına iddia etməsi üçün geniş imkanın yaradılması;
   b) Vəzifəyə namizədlərə formal tələblərin qoyulması;
   c) Ölkənin bütün seçicilərinin böyüklüyü;
   d) Şəxsi keyfiyyətlərin öndə olması;
   e) Elitanın tərkibinin dəyişkən olması.

## Siyasi liderlik

Siyasi lider – ingilis sözü olub, rəhbər, aparıcı, başçı deməkdir.

**Siyasi lider –** cəmiyyətdə insanların, müəyyən qrupların, təşkilatların hərəkatlarını birləşdirir, istiqamətləndirir.

**Siyasi lider -** cəmiyyətin, qrupun, təşkilatın elə bir avtoritetli üzvüdür ki, şəxsi nüfuzu ona siyasi proseslərdə mümkün rol oynamağa imkan verir.

**Siyasi lider -** böyük sosial qrupların maraqlarına cavab verən aydın siyasi proqramın populyarlığı, siyasi iradəsi, iti ağlı, siyasi intizamı, təşkilatçılıq istedadı, natiqlik qabiliyyəti olmalıdır.

Siyasi liderin funksiyaları:

1. Cəmiyyətin inteqrasiyası, xalq kütlələrinin birləşdirilməsi.
2. Kütlələrin qanunsuzluqdan süründürülməsi, bürokratiyadan müdafiəsi intizamın orunması.

3. Optimal siyasi qərarların tapılması və qəbul edilməsi.
4. Kütlə ilə hakimiyyətin komunikasiyası, vətəndaşların siyasi rəhbərliyindən uzaqlaşmasının qarşısının alınması
5. Yeniliyin irəli sürülməsi, sosial enerjinin generasiyası, kütlələrin siyasi məqsədlərin reallaşdırılmasına doğru səfərbər edilməsi.
6. Siyasi qurumun legitimləşdirilməsi
7. Siyas liderin əlamətləri haqqında nəzəriyyələr:

Xüsusiyyətlər nəzəriyyəsi, situativ nəzəriyyəsi, qarşılıqlı əlaqənin gözlənilməsi nəzəriyyəsi, humanist istiqamətli nəzəriyyə, motivasiya nəzəriyyəsi, atributiv nəzəriyyə.

1. **Xüsusiyyətlər nəzəriyyəsi-** İngilis psixoloqu Haltonun adı ilə bağlıdır. O, lideri irsi əlamətinə görə izah etməyə çalışmışdır. Bu nəzəriyyənin tərəfdarları liderlik xüsusiyyətləri kimi 79 keyfiyyətin siyahısını tutmuşlar: ağıllı, möhkəm iradə, çalışqan, mətanətli, səlahiyyətli, etibarlı, məsuliyyətli, gələcəyi görmə qabiliyyəti, natiqlik, nəzakətlilik və s.
2. **Situativ nəzəriyyə-** Bu nəzəriyyəyə görə liderin keyfiyyəti nisbi götürülür. Belə ki, əsas lider yox konkret şərait, zaman, yer götürülür.
3. **Qarşılıqlı əlaqənin gözlənilməsi nəzəriyyəsi-** Bu nəzəriyyə liderliyin qeyri-rasional modelini hazırlayıb
4. **Humanitar istiqamət nəzəriyyəsi-** Bu nəzəriyyəyə görə insan çox mürəkkəb orqanizm olduğundan, təşkilatda asan idarə olunandır.
5. **Motivasiya nəzəriyyəsi-** (S.Mitsel və S.Evans) bu nəzəriyyəyə görə liderin səmərəliliyi qarşıya qoyulan məqsədlərin yerinə yetirilməsi qabiliyyətindən asılıdır.
6. **Atributiv nəzəriyyə-** Bu nəzəriyyəyə görə lider öz ardıcılları, tərəfdaşları tərəfindən hərəkətə gətirilir.

Sosioloqlar, psixoloqlar, politoloqlar liderlərin çoxlu sayda tipologiyasını vermişlər. Məs.:

1. **Liderin təstiq edilməsinə görə:** formal (yuxarıdan təyin olunmuş və mövcud proqramla rəhbərlik edən) və qeyri-formal (öz-özünə formalaşan, seçicilərin bir-birinə inamı və simpatiyası prosesində formalaşmış şəxs);
2. **Hkimiyyətin legitimliyinə görə:** ənənəvi (dini lider, monarx və s.), rasional-leqal (düşünülmüş seçki nəticəsində qanuni seçilmiş rəhbər, demokratik cəmiyyətdə), harizmalı (xalq

tərəfindən seçilib çağırılmış, rəhbərlik qabiliyyəti olan şəxs);

3. **İdarəetmə və rəhbərlik üslubuna görə:** avtoritar (təkbaşına rəhbərlik), liberal (insanlara sərbəstlik verən rəhbər), demokratik (kollektiv rəhbərlik);
4. **Liderin rolu və imicinə (stil) görə:** lider-bayraqdar (hakimiyyət özünə lazımlı liderlər yetişdirir), lider-qulluqçu (seçicilərin maraqlarının təmsilçiləridir), lider-tacir (müasir lider iqtisadi inkişafına təsir edir), lider-yanğınsöndürən (sosial və beynəlxalq münaqişələrdə, iqtisadi çaşqınlıqda, operativ qərarlarda), lider-aktyor;
5. **Liderin psixoloji davranışına görə-** paranoid (ağıldankəm) (insanlara inanmamaq, onları nəzarətdə saxlamaq biz və qeyri-biz bölgüsü), demonstrativ (artist daim diqqət mərkəzində olmağa can atır, öz gözəliyinin vurğunudur, tərifi sevir, konkret iş görməsədə arxasınca kütləni apara bilir), kompulsiv (məcbur edən instruksiyaya tabe hərəkətlərində cəld, prinsiplərdən çıxmır, kompromisə getmir), depressiv (sərbəst rəhbər rolunu bacarmayan siyasətində bacaranlara yıxılan, pessimis), şizoid (abstrakt müşahidəni sevən, hər şeyi ölçüb-biçən, məqsədində yanılmayan lider).

**Siyasi lider haqqında aşağıdakıları ümumiləşdirmək olar:**

1. Siyasi lider qanunların aliliyinə hörmət edir və qanunlara əməl etməyi hər bir vətəndaşdan tələb edir.
2. Vətəndaşların hüquq və mənafelərini qoruyur
3. Dövlət hakimiyyətini yüksək təşkilatçılıq qabiliyyəti ilə idarə edir
4. Yüksək əxlaqi keyfiyyətə, siyasi mədəniyyətə və lakonik nitqə malikdir
5. Şəxsi xarakterinə görə kütlə içərisində nüfuz qazanır və siyasi prosesləri tənzimləyir

**Siyasi liderin əsas xarakterik cizgiləri:**

1. Kəskin ağıl, siyasi intuisiya
2. Təşkilatçılıq istedadı
3. Natiqlik qabiliyyəti
4. Siyasi iradə məsuliyyəti öz üzərinə götürmək bacarığı
5. Populyarlıq, insanların rəğbətini qazamaq bacarığı
6. Siyasi qrupların əksəriyyətinin xoşuna gələn aydın siyasi proqramın olması

Münaqişələrdən qaçmaq, onu idarə və həll etmək bacarığı.

# VI. SIYASI HAKIMIYYƏTIN SOSIAL ƏSASLARI

## Cəmiyyətin sosial diferensiyası və onun siyasi proseslərə təsiri

Siyasət real insanlar deməkdir. Insanlar öz tələbatlarına görə və mənafelərinə uyğun olaraq ya fərdi qaydada, ya da sosial qrupun tərkibində siyasətdə iştirak edir, siyasi münasibətlərə təsir edir və müvafiq qaydada özü də təsirə məruz qalır.

Həmin qruplar öz növbəsində, siniflər, stratlar, milli-etnik, demoqrafik qruplar və s. ola bilərlər. Məcmu halında onlara siyasətin sosial əsasları deyirlər. Sosial həyatın və siyasi prosesin başlıca subyektlərindən biri sosial qruplardır. Düzgün siyasət işləyib hazırlamaq və onu həyata keçirmək həmin qrupların mənafeyini nəzərə almağı, onların fəaliyyətini düzgün əlaqələndirməyi tələb edir. Bu mənada cəmiyyətin sosial strukturunu öyrənmək lazımdır. Bir və ya bir neçə ümumi sosial əlamət əsasında birləşmiş insanların məcmusu sosial qrup adlanır. Sosial qruplar demoqrafik, etnik, peşə, ərazi, dini və s. birliklərdir. Öz ictimai vəziyyətinə görə insan eyni zamanda bir neçə sosial qrupun üzvi ola bilər (məsələn: qoca, azərbaycanlı, müsəlman, dulusçu).

Cəmiyyətin sosial strukturu dedikdə, bir-biri ilə qarşılıqı əlaqədə və təsirdə olan sosial qrupların məcmusu, onlar arasındakı münasibətlərin müəyyən qaydası nəzərdə tutulur.

Insanın ictimai vəziyyətindəki əsas əlamətlər sosial strukturun aşağıdakı növlərini ayırmağa imkan verir: sosial statistika; sosial etnik strukturu, sosial peşə strukturu, sosial ərazi strukturu.

Həlledici rol sosial struktura aiddir. Sosial struktur başqa ictimai hadisələr kimi cəmiyyətin inkişafı ilə həmahəng inkişaf edir və dəyişir.

**Sosial stratifikasiya** – (latın dilində "təbəqə" sözündəndir) nəzəriyyəsinin əsas elementi stratlar hesab olunur.

Müasir Amerika sosialogiyasinda cəmiyyətin sosial strafikasiyası aşağıdakı əsas meyarlar əsasında müəyyən olunur.

1. **Peşə nüfuzu** – Tarixdən məlumdur ki, bütün xalqlarda müəyyən peşələrə üstünlük verilir, valideynlər övladlarına nüfuzlu peşəyə yiyələnməyi tövsiyə edir. Bu da öz növbəsində, müvafiq peşə sahəsində çalışanların başqalarından fərqlənməsinə gətirib cıxarmış, həmin peşə sahəsində çalışan xüsusi adamlar qrupun yaranmasına səbəb olmuşdur.
2. **Hakimiyyət və əzəmət** – Cəmiyyətdə mövcud qruplar əllərində

olan hakimiyyətə məzənnətə görə bir-birindən fərqlənirlər, hakimiyyət nərdivanında hər birinin öz yeri var.

3. **Gəlir və Sərvət** – Ayrı-ayrı qrupların gəlir və sərvət mənbəyi 2 cür olur: peşə sahibi özünəməxsus yolla gəlir və sərvət alır. Digər tərəfdən, onlara miras qalır. Hər 2 halda sərvətin miqdarı müvafiq qrupu başqalarından fərqləndirir. Gəlirlər həm varlanmaq, həm də yüksək rola sahib olmaq vasitəsi kimi çıxış edir.

4. **Təhsil yaxud Bilik** – İnsanların təhsil almaq imkanları, həmişə müxtəlif olub. Bu da onların sosial roluna və irəliləmək imkanlarına təsir edir. Insanların irəliləməsinə pul yox, təhsil daha çox təsir edir.

5. **Din yaxud Mərasim təmizliyi.**

6. **İnsanların qohumluq əlaqəsinə görə fərqləndirilməsi** – Nəslin davam etdirilməsi, bacı-qardaş, valideynlər, valideynlərlə uşaqlar və s. qohumlar arasındakı münasibətlərin psixoloji-sosial və əxlaqi cəhətdən tənzim edilməsi.

İnsanın və ya qrupun sosial strukturda yerini dəyişməsi **sosial yerdəyişmə**, yaxud **mobillik** adlanır.

## Sosial Siyasət

Sosial siyasət cəmiyyətdə vətəndaşların, sosial qrup və birliklərin tələbatlarını nəzərə alaraq, onlar üçün yaşayış şəraiti yaratmaq sahəsində dövlətin konkret fəaliyyətidir. Sosial siyasət dövlətin ən geniş fəaliyyət sahəsi olub, cəmiyyətin bütün təbəqələrini, bütün əhalini əhatə edir. Müasir şəraitdə sosial siyasət bir növ dövlətin bütünlükdə siyasətinin səmərəliliyini, humanist xarakterini müəyyənləşdirən barometr sifətində çıxış edir. Onun başlıca vəzifəsi cəmiyyət üzvlərinin təkrar istehsalına şərait yaratmaq, insanların maddi ehtiyaclarını ödəməkdir.

Sosial siyasətin 2-ci funksiyası sosial ədalətin həyata keçirilməsi ilə əlaqədardır. Bu funksiyanın yerinə yetirilməsində sosial siyasət mühüm rol oynayır. Siyasi rejim sosial ədalət haqqında rəsmi baxışları və mövqeyi müəyyənləşdirir. Və ona uyğun sosial siyasət həyata keçirir.

3-cü funksiya cəmiyyətdə ictimai ahəngdarlığın, sosial sülhün təmin edilməsidir. Cəmiyyətin həyat qabiliyyəti onu təşkil edən ünsürlərin harmoniyasından, dinc qarşılıqlı fəaliyyətindən asılıdır. Sosial siyasət hakimiyyətin sosial əsasında, rejimin özünü müdafiə sistemində mühüm rol oynayır. Sosial siyasət cəmiyyətdə siyasi sabitliyi təmin edən ən güclü amildir. Iqtisadiyyatı zəif olan dövlətlərdə sosial siyasətin səmərəlilik və təsirlik imkanları olmur.

Sosial siyasət habelə ölkələrdə ehtiyyatların və sərvətlərin bölgüsünün ədalətli aparılmasından, dövlətin və vətənin sərvətlərinin bölgüsündə və istifadəsində nəzarətinin xarakterindən, habelə keyfiyyətindən asılıdır. Korrupsiya, rüşvətxorluq sosial siyasətin zəifləməsinə səbəb olur.

Sosial siyasətin rəngarəngliyi ümumi, oxşar əlamətlər əsasında 3 qrupda istifadə olunur:

a) Kommunist sosial siyasət;
b) Liberal sosial siyasət;
c) Sosial-demokrat sosial siyasət.

**Kommunist sosial siyasət** - marksizm-leninizm ideologiyasına əsaslanır. SSRİ, Şərqi Avropanın sosial və maddi tələbatlarını dövlət öz üzərinə götürür. Çatışmayan cəhətləri: insanların həyat səviyyəsinin fərdi əmək və qabiliyyətdən asılılığını zəiflədir; bərabərləşdirici prinsipi zəminində sosial ədalət pozulur.

**Liberal sosial siyasət** – kommunist modelinin əksidir. Onun başlıca xüsusiyyəti, fərdin tələbat və qabiliyyətlərinin müxtəlifliyini nəzərə almasıdır. Bu model azad bazar münasibətlərinə, liberal iqtisadiyyata üstünlük verir. Dövlət insanların fərdi şəkildə tələbatlarının yönümünə uyğun olaraq ehtiyaclarının ödənilməsi, həyat səviyyəsinin yüksəlməsinə şərait yaradır.

**Sosial-demokrat sosial siyasət** – ikisinin qarışığıdır. Onun xüsusiyyəti insanların tələbat və ehtiyaclarının ödənilməsində mərkəzləşmiş səyləri ilə onların özlərinin fərdi qaydada iştirakını üzvi sürətdə əlaqələndirməkdir.

## Milli Siyasət

**Milli siyasət –** millətlər və xalqlar arasındakı qaşılıqlı münasibətlərin, dövlətin müvafiq sənədlərində və qanunvericilik aktlarında təsbit olunmuş şərtlərdə tənzim olunması üzrə məqsədyönlü fəaliyyətidir.

Milli siyasət münasibətlərin idarə edilməsi sahəsində dövlətin həyata keçirdiyi konkret fəaliyyətdir. Milli siyasətin xarakteri bir sıra səbəblərlə yanaşı cəmiyyətdə qərarlaşmış milli-etnik münasibətlərin təbiəti ilə şərtlənmiş olur.

Sosial münasibətlərin spesifik formalarından biri olan milli-etnik münasibətlər mürəkkəb sosial-siyasi kateqoriyadır. Onlar xalis formada deyil, iqtisadi, sosial, siyasi və mənəvi münasibətlərin bir cəhəti kimi

təzahür edirlər. Bu mənada, sosial münasibətlərin bütün məcmusu onlarda üzə çıxır. Öz növbəsində, milli münasibətlərin spesifikliyi milli xüsusiyyətlərdən irəli gəlir.

Milli münasibətlər anlayışı milli xarakterli münasibətlərin üç formasını özündə birləşdirir: millətdaxili; milli-etnik birliklərarası və şəxsiyyət səviyyəsində millətlərin və xalqların münasibətləri. Sözün ciddi mənasında, millətlərarası münasibətlər müxtəlif millətlərə mənsub adamlar arasındakı bilavasitə əlaqələrdə yaranan münasibətlərdir. Xalqların ictimai şüurunda vahid ideologiya, yaxud din hakim olursa, onda millətlərarası münasibətlərin inkişafı üçün əlverişli şərait yaranır.

Milli münasibətlər sistemində həlledici rol siyasi amillərə (cəhətlərə) xasdır. Bu, hər şeydən əvvəl, millətin formalaşması və onun inkişafının mühüm amili olan dövlətin əhəmiyyəti, milli və sosial-siyasi proseslərin daxili əlaqəsi ilə şərtlənir.

Milli münasibətlərin siyasi aspektləri milli məsələdə daha qabarıq şəkildə üzə çıxır. Milli məsələ hər şeydən əvvəl milli hüquq bərabərsizliyidir, millətlərin imtiyazlı və natamam hüquqlu millətlərə bölünməsi, hakim və məzlum millətin olması, onların inkişafının qeyri-bərabərliyi deməkdir. Nəhayət, bu milli düşmənçilik atmosferidir.

Milli məsələ həmişə konkret tarixi xarakter daşıyır. O, müvafiq ölkənin bu və ya başqa inkişaf səviyyəsində orada mövcud olan milli problemləri özündə əks etdirir.

Beləliklə, milli məsələ millətlər və xalqlar arasında dövlətdaxili və dövlətlərarası ünsiyyətdə üzə çıxan siyasi, iqtisadi, hüquqi, ideoloji və s. problemlərin məcmusudur. Milli məsələ milli münasibətlərin xüsusi növüdür.

Belə ki, milli məsələni demokratik yolla tənzim etməyin əsas siyasi-hüquqi prinsipi millətlərin öz müqəddaratını təyin etməsi hüququdur.

Milli məsələni həll etməyin 2-ci demokratik prinsipi dilindən, irqindən və s. asılı olmayaraq, bütün millətlərin və vətəndaşların hüquq bərabərliyinin təmin edilməsidir. Mühüm əhəmiyyətli məsələlərdən biri xalqın milli-dövlət quruluşudur. Bəşər təcrübəsinin gedişində xalqların milli-dövlət quruluşunun aşağıdakı əsas formaları yaranmışdır:

1) Unitar dövlət inzibati-dövlət vahidləri üzərində mərkəzləşdirilmiş rəhbərliklə səciyyələnir. Burada əlahiddə (müstəqil) dövlət qurumları olmur.

2) Federasiya iki və daha artıq dövlətin vahid dövlətdə birləşməsidir. Hazırda dünyada 3-4 min, o cümlədən sayı bir milyondan yuxarı olan 300 xalq və bunun müqabilində cəmi 200-ə yaxın dövlət

vardır.
3) Konfederasiya dövlətlərarası ittifaqdır.

Milli siyasət millətlər və xalqlar arasındakı qarşılıqlı münasibətlərin dövlətin müvafiq sənədlərində və qanunvericilik aktlarında təsbit olunmuş şəkildə tənzim olunması üzrə məqsədyönlü fəaliyyətidir. Onun konseptual müddəaları aşağıdakılardır: xalqın bərabərliyi; bütün xalqların mənafeləri və sərvətlərinə qarşılıqlı hörmət; qarşılıqlı faydalı əməkdaşlıq; millətçiliyin neqativ təzahürlərinə qarşı barışmazlıq; başqa xalqların mənafelərinin tapdanması hesabına öz xalqı üçün rifah yaradan adamların siyasi, coğrafi amili, demoqrafiq prosesləri, tarixi xüsusiyyətləri; müvafiq xalqın milli dövlətçilik ənənələri; əhalinin milli tərkibi; yerli və gəlmə əhalinin nisbəti; dini mənsubiyyəti; milli psixologiyanın xüsusiyyətləri; milli adətləri və s. nəzərə alınmalıdır.

Milli siyasətin mühüm funksiyası onun proqnoz və preventiv xarakterindədir. Burada əsas cəhət yalnız vaxtı çatmış ziddiyyətlərin qarşısını almaq deyil, həm də onları qabaqcadan görməkdir. Millətlərarası münasibətlərin və onların tənzimlənməsindən ibarət olan milli siyasətin mühüm sferası milli-etnik və ya millətlərarası münaqişələrlə əlaqədardır.

Millətlərarası münaqişə dedikdə, eyni zamanda iki müxtəlif səviyyədə bir-biri ilə yanaşı mövcud olan və bir-birini tamamlayan reallıqlar başa düşülür. Belə ki, bir tərəfdən ictimai şüur səviyyəsində o, başqa xalqa qarşı yalnız sadəcə olaraq neqativ deyil, habelə məhz qarşıdurma niyyəti ilə müəyyən olunan qavrayış, yaxud münasibət tipidir. Başqa sözlə desək, o passiv sürətdə qavramamağın və etinasızlığın yerini fəal qarşıdurma və birbaşa əskiklik əhval-ruhiyyəsinin tutması deməkdir. Bu mənada millətlərarası münaqişə dedikdə, milli mənafelərin müdafiəsi üçün yaradılmış və bir-birilə rəqabətdə olan ictimai hərəkatlar arasındakı siyasi münaqişə başa düşülür. Bu münaqişənin fərqli cəhəti ondadır ki, onların iştirakçılarının ən azı biri öz hərəkətlərində ictimai strukturlara, başqa sözlə desək, ilk növbədə müstəqil təşkil olunmuş qeyri-peşəkarlara arxalanır. Millətlərarası münaqişələrin aşağıdakı əsas tipləri məlumdur: sosial-iqtisadi münaqişələr; mədəni dil münaqişələri; ərazi-status münaqişələri; seperat münaqişələri.

Tədqiqatçılar millətlərarası münaqişələrin meydana gəlmə səbəblərini aşağıdakı kimi izah edirlər: xalqların müstəqil siyasi həyat formalarına, idealda isə müstəqil milli dövlət qurmağa can atması; inkişaf ehtiyatlarının qıtlığı; etnik reallığını lazımi səviyyədə nəzərə

almayan monomilli dövlətin siyasi quruluşunun, etnoslararası gərginliyin və münaqişələrin daimi generatoru olması və s.

# VII. SiYASI SISTEM ANLAYIŞI

## Siyasi sistem nəzəriyyələri

Siyasi elmin aparıcı kateqoriyalarından biri siyasi sistem anlayışıdır. Siyasi sistemin ən mühüm mənası və əhəmiyyəti cəmiyyətin sosial-siyasi təbiətini, mövcud siyasi münasibətlərini, təsisatlarını, hakimiyyətin təşkili, norma və prinsiplərinin məzmununu obyektiv təhlil etməkdə vasitə rolunu oynamaqdan ibarətdir. Siyasi sistem nəzəriyyəsinin meydana gəlməsində **Fon Bertalan** tərəfindən yaradılan ümumi sistem nəzəriyyəsi mühüm rol oynayıb. Həmin nəzəriyyəyə əsaslanaraq ilk dəfə **İ.Parsons** cəmiyyəti iqtisadi, siyasi, mənəvi sistemlərdən ibarət olan mürəkkəb idarəetmə sistemi kimi nəzərdən keçirmiş və belə bir fikir irəli sürmüşdür ki, siyasi sistemin təyinatı ümumi məqsədlərin işlənib hazırlanması, cəmiyyətin inteqrasiyasıdır. Siyasi sistem nəzəriyyəsinin yaradıcısı Parsonsun ideyalarını davam etdirən amerikan alimi **C.İston** sayılır. O, 1953-cü ildə **"siyasi sistem"** adlı monoqrafiya çap etdirmişdir. Siyasi sistemi ilk dəfə olaraq xaricdən daxil olan impulslara cavablar verən, özünütənzimləyən orqanizm kimi səciyyələndirmişdir. İstona görə, siyasi sistemə xaricdən sosial və mədəni mühitdən müxtəlif impulslar daxil olur. Bunların bir qismi siyasi sistemə tələblərlə bağlıdır, digər qismi isə ona dəstək verməkdən ibarətdir. Siyasi sistemin bu impulslara cavab reaksiyası siyasi qərarlar, onların reallaşmasına yönəlmiş siyasi fəaliyyətdir. Siyasi sistem nəzəriyyəsi üçün mühüm əhəmiyyət kəsb edən "sistemə giriş", "sistemdən çıxış" anlayışları elmi dövriyyəyə daxil oldu.

Siyasi sistem bütövlükdə sosial sistemin bir ünsürü, onun yarımsistemidir. Sosial sistem siyasi sistemin mövcudluğu üçün əsas yaradır, habelə onun formalaşması və fəaliyyət göstərməsi üsulunu müəyyən edir.

Sosial sistem siyasi sistemdən əvvəl meydana gəlir və ictimai həyatın başlıca problemlərinin həlli imkanlarını şərtləndirir. Siyasi sistemə sosial sistemin elə ünsürləri daxil olur ki, onlar bir tərəfdən cəmiyyətdə siyasi idarəetmənin və sosial qrupların yanaşı mövcudluğunu təmin edir, digər tərəfdən isə, öz tələbatını və mənafeyini reallaşdırmaq, ictimai iradəsini təsisatlandırmaq, ictimai həyatda öz iştirakını genişləndirmək üçün sosial qruplara şərait yaradır.

Siyasi sistemin strukturu ilə bağlı müxtəlif fikirlər vardır. **Q.Almond** hesab edir ki, siyasi sistem dövlət və qeyri-dövlət təsisatlarının siyasi

davranışının müxtəlif formalarıdır. Hindistanlı politoloq **P.Şaranın** fikrincə, siyasi sistemin başlıca ünsürləri hakimiyyət (resursların rəqabət aparan qruplar arasında paylanması), mənafelər, siyasət, siyasi mədəniyyətdir.

Siyasi sistemin atası sayılan **K.Doyç** kibernetik modelin müəllifidir (1950-1970). Ona görə hökumət informasiya vasitəsilə, həmçinin mühit və sistemdaxili ünsürlərin qarşılıqlı hərəkəti nəticəsində siyasi sistemi səfərbər edir. Doyçun nəzəriyyəsinə görə sistemin 4 mərhələsi var:

1. İnformasiyanın qəbulu və seçilməsi;
2. İnformasiyanın işlənib hazırlanması;
3. Qərarların qəbulu;
4. Qərarların əks əlaqəsi.

Doyç siyasi sistemlə əlaqənin 3 əsas tipini ayırır: şəxsi (qeyri-formal) əlaqə, təşkilat vasitəsilə (siyasi partiyalar) əlaqə, KİV vasitəsilə əlaqə.

Siyasi sistemin mövcudluq mexanizmini, mənşəyini izah etmək üçün çoxlu sayda yanaşmalar mövcuddur:

1. **Təsisatlı** – siyasi sistemin, müəyyən təsisatların təşkil olunmuş fəaliyyətini izah edir. İnsan siyasi deyil, sosial və bioloji varlıq kimi dünyaya gəlmiş və formalaşan təsisatlar (dövlət, siyasi partiya) çərçivəsində çıxış edir.
2. **Genetik** – siyasi sistemin mövcud olmasını iqtisadi və sosial amillərlə izah edir.
3. **Sistem** – siyasəti bir tam sistem kimi izah edir.
4. **Konkret-tarixi yanaşma** – cəmiyyətin həyati fəaliyyətindən asılı oıaraq, onun sosial-iqtisadi (əmək alətləri, istehsal vasitələri, əməyin növi və s.), sosial-struktur (sinfi təbəqə), sosial-mədəni (əhalinin təhsil səviyyəsi, şəxsiyyətin inkişaf dərəcəsi, sosial-siyasi (xalqın özünüidarəetmə reallığı, hakimiyyətin sinfi tərkibi), hüquqi (insanların azadlıq və hüquqları, hakimiyyətin legitimliyi) meyarlarını ayırır və siyasi sistemi bunların cəmi izah edir.
5. **Substonsional** – siyasi sistemin yaranmasının özəyini açmağa kömək edir və bu rolda hakimiyyət çıxış edir.

Siyasi sistemin tərkibində yarımsistemlər:

1. **Təsisatlanmış** – (dövlət, siyasi partiyalar, siyasi hərəkatlar). O, özündə siyasi idarəetmə formalarını (respublika, monarxiya), siyasi rejimləri (demokratik, totalitar, avtoritar), siyasi partiyaları və hərəkatları, seçki sistemini birləşdirir.
2. **Normativ** – (siyasi normalar, ənənələr, əxlaq, siyasi davranış etikası). Bu yarımsistem milli, tarixən təşəkkül tapan adət-ənənələri,

hakim siyasi görüşləri, prinsip və inamları özündə birləşdirərək siyasi sistemə təsir göstərir.

3. **İdeoloji** – (siyasi konsepsiyalar, nəzəriyyələr və görüşlər, siyasi hakimiyyətin həyata keçirilməsi, üsul və metodları). İdeoloji yarımsistem cəmiyyətdə meydana çıxan siyasi problemlərin həllində mühüm rol oynayır.

4. **Kommunikativ** – (siyasi sistemə daxil olan yarımsistemlərin qarşılıqlı əlaqə və fəaliyyətinin forma və prinsipləri). Bu sistem cəmiyyətin siyasi sisteminin fəaliyyəti prosesində yaranan münasibətlərin məcmusu olub, əsasən cəmiyyətin idarə olunmasına, hakimiyyət uğrunda mübarizəyə, onu əldə saxlamağa aid edilir.

5. **Mədəni yarımsistem** – (siyasi şüur, müvafiq siyasi mədəniyyət). Bu sistem cəmiyyətin tarixən, aid olduğu, yaratdığı, sonralar inkişaf etdirdiyi mədəniyyət və bu mədəniyyətin insan şüuruna təsiri nəticəsində əhalinin siyasi idarəetmə qərarlarının, qəbul edilmə qərarlarının qəbuluna reaksiyasını özündə birləşdirir, habelə siyasi sistemin sabitliyini, idarəedən elitanın sosial bazasının möhkəmliyini təmin edir.

Siyasi sistem həm hakim qüvvələr, həm də müxalifət qüvvələr tərəfindən yaradılan dövlət və qeyri-dövlət təşkilatları və müəssisələrinin məcmusudur.

Sistem – öz aralarında və xarici mühitlə qarşılıqlı əlaqədə olaraq tamlıq, bütövlük yaradan elementlər deməkdir.

## Siyasi sistemlərin təsnifatı və funksiyaları

Siyasi sistemin təsnifatına aşağıdakılar aiddir:

1. **Siyasi hakimiyyətin mənşəyinə görə** - avtoritar və demokratik;
2. **Tarixiliyinə görə** - imperiya, milli dövlət, konfederasiya;
3. **Iqtisadi-ictimai formasiyaya görə** - ibtidai, quldarlıq, feodalizm, kapitalizm, sosializm;
4. **Coğrafi durumuna görə** - Avropa, Asiya, Şimali Amerika;
5. **Milli və dini meyarlara görə** - xristian, islam;
6. **Gerçəkliyə münasibətinə görə** - mühafizəkar, islahatlı, tərəqqipərvər, irticaçı;
7. **Siyasi mədəniyyətin səviyyəsinə görə** - ingilis-amerikan, kontinental Avropa, sənaye dövrü və sənayeyə qədərki, totalitar.
8. **Siyasi proseslərin xarakterinə görə** - amirlik, bəhsləşmə, sosial barışdırıcı;

Siyasi sistemin əsası cəmiyyətin siyasi təşkilidir. Hakimiyyətin təsisatlı quruluşu prinsipi onda öz əksini tapır.

Siyasi sistemin mühüm təsisatlarından biri də KİV-dir. Onlar həm dövlət müəssisələri, həm də partiyaların və təşkilatların orqanları kimi çıxış edirlər.

Siyasi sistem cəmiyyətin siyasi şüurunun təsiri altında fəaliyyət göstərir və müvafiq siyasi mədəniyyəti özündə birləşdirir.

Siyasi sistem bir sıra funksiya yerinə yetirir. Q.Almond aşağıdakıları göstərir:

Siyasi sosiallaşma, vətəndaşların siyasi proseslərə cəlb edilməsi, onların mənafe və tələbatlarının ödənilməsi – bunlar sosial mühitin siyasi sistemə təsiri ilə əlaqədar funksiyalardır.

Siyasi sistem normaların (qanunların) işlənib hazırlanmasını, tətbiq edilməsini və onlara nəzarət edilməsi funksiyalarını da həyata keçirir.

Siyasi sistemlərin klassik təsnifatını ilk dəfə 1956-cı ildə **Q.Almond** vermişdir. O, siyasi sistemləri 4 əsas kateqoriyaya bölür: ingilis-amerikan – siyasi sistemini nasionallığa, vətəndaşların və siyasi elitanın qarşılıqlı dözüm və loyal münasibətlərinə əsaslanan siyasi mədəniyyət səciyyələndirir. Bu sistem sabitdir, səmərəlidir və özünütənzimləmək qabiliyyətinə malikdir, hakimiyyətin bölgüsü bu sistemi xarakterizə edən əsas cəhətdir.

**Totalitar siyasi sistem** – hakimiyyət ciddi sürətdə bürokratiyanın əlində cəmlənir, cəza orqanları yüksək fəallıq nümayiş etdirir. Vətəndaşların siyasi fəallığı dövlət tərəfindən məqsədyönlü şəkildə təşkil edilir və hətta bəzən məcburi xarakter daşıyır.

Kontinental Avropa siyasi sistemində köhnə və yeni siyasi mədəniyyət qarşılıqlı təsir şəraitində fəaliyyət göstərir. Bu sistem əsasən Fransa, Almaniya, İtaliyada mövcuddur. Skandinaviya ölkələri ingilis-amerikan, kontinental Avropa siyasi sistemi arasında mövqe tuturlar.

**Blondel** – siyasi sistemi idarəetmənin məzmununa görə, 5 tipə bölür: **1)** Dövlət qərarlarının qəbul edilməsində liberalizmə əsaslanan liberal demokratiya; **2)** Liberal vasitələrin inkar edildiyi kommunist sistemi; **3)** Oliqarxiya tərəfindən idarə olunan ənənəvi siyasi sistemlər; **4)** İnkişaf etməkdə olan ölkələrdə qərarlaşan avtoritar idarəçilik sistemi; **5)** Müxtəlif vasitələrin hesabına sosial-iqtisadi bərabərliyi qoruyub saxlamağa çalışan avtoritar, mühafizəkar sistemlər.

**Siyasi sistemlərin tarixi təsnifatı.** Dövlət quruluşuna əsaslanan cəmiyyətlərdə tarixən aşağıdakı siyasi sistemlər vardır: **İmperiya, Müasir Milli Dövlət, Konfederasiya.**

İmperiya – (latın dilində "hökümət, dövlət" deməkdir). Birincisi dövlət başçısı imperator olan monarxiyalara, ikincisi geniş müstəmləkə torpaqları olan iri dövlətlərə deyilir. İlk imperiya e.ə I əsrdə **Avqust Sezar** özünü imperator elan etdikdən sonra Romada təşəkkül tapmışdır. Sonralar Bizans, Çar Rusiyası I Pyotrun dövründə.

**İmperiyanın əlamətləri:**

1. Geniş ərazinin olması;
2. Güclü mərkəzləşdirilmiş hakimiyyət;
3. Daim yeni torpaqların işğalına can atan elita;
4. Mərkəzlə əyalət arasında assimmetrik ağalıq-tabelik münasibətləri;
5. Konkret qrupların mənafelərinin fövqündə duran ümumi siyasi ideyanın olması;
6. Etnik, mədəni və milli tərkibin rəngarəng olması;
7. Sabitliyin olmaması;
8. Cəbrə əsaslanan siyasi mədəniyyətin olması.

İmperiyanın qüdrətinin qorunub saxlanması və möhkəmləndirilməsində ordu mühüm rol oynayır. Ordu polis nəzarətini yerinə yetirir.

**Müasir Milli Dövlətin əlamətləri:**

Onun yaranması 2 əsas mərhələdən keçib: 1**) Mütləq monarxiya; 2) Konstitusiyalı monarxiya və yeni respublika.**

1. Birlik və ərazi sabitliyi;
2. Digər qrupların fövqündə duran elitanın əlində suveren siyasi hakimiyyətin mərkəzləşməsi;
3. Siyasi elitadan asılı olan silahlı qüvvələrin formalaşması;
4. Vahid bürokratiyanın yaranması;
5. Mərkəzləşdirilmiş məhkəmə sisteminin inkişafı.

XVI əsrdən etibarən Avropada burjua inqilablarının baş verməsi nəticəsində muasir milli dövlətlər yaranmağa başladılar. Müasir milli dövlət unitar və federativ dövlət formasında mövcuddur.

**Konfederasiya** – (latın dilində "müqavilə ilə əlaqələndirmək" deməkdir). Adətən müvəqqəti xarakter daşıyır və uzun sürmür. O, adətən hərbi böhran və ya xarici təhlükə zamanı yaranır və çox keçmədən ya federativ dövlətə çevrilir, ya da onun ərazisində müstəqil dövlətlər təşəkkül tapır.

**Müasir siyasi sistemlərin müqayisəli təhlili.** Müasir siyasi sistemlərin 3 əsas modelini ayırmaq olar: **amirlik, bəhsləşmə, sosial-**

**barışdırıcı.**

**Amirlik sistemi** - qədimdən məlumdur. O, inteqral xarakterə malikdir və ictimai orqanizmin özünütənzimləmə üsullarını rədd edir, cəbr, məcburetmə metodlarına üstünlük verir. Keçmiş SSRİ-də formalaşmış inzibati amirlik sistemi buna ən yaxşı misaldır.

**Bəhsləşmə sistemi** - də qədimdən məlumdur. Bu sistemdə pluralizm vardır, şəxsiyyətin və birliklərin hüquq bərabərliyi hüquqi yolla təmin olunur, fövqəladə hallarda cəbr metodları tətbiq olunsa da, məcburetmə onun səciyyəvi əlaməti deyildir. Bəhsləşmə sistemi cəmiyyət həyatının müxtəlif sferalarında özünü tənzimləmənin olması ilə seçilir.

**Sosial-barışdırıcı sistem** – uyğunlaşma və kompromis sistemidir. O, qarşılıqlı məhdudiyyətləri nəzərdə tutur. Orada sosial aspekt ön plana çıxır. Bu cür sistemlər adətən yüksək iqtisadi inkişaf şəraitində özünü daha çox doğruldur. Bu modelin ayrı-ayrı təzahürlərinə orta əsrlərdə müsəlman dünyasında (məclis, kasıbların nəfinə 2,5 %-li vergi, zəkat, xeyriyyə məqsədi ilə vəsiyyət edilən əmlak-vəqf), Bizans imperiyasında (Zilot respublikası), Çində (Taypinlər dövləti) və s. təsadüf olunmuşdur.

## Azərbaycan Respublikasının siyasi sistemi

Azərbaycan Respublikasının siyasi sistemi milli və tarixi şəraitin xüsusiyyətlərini əks etdirməsi ilə səciyyəvidir. Azərbaycan Respublikasının siyasi sistemi demokratiyaya keçid mərhələsindədir. Azərbaycan Respublikasının siyasi sisteminin yeni konstitusiyasının struktur formalaşması 1995-ci il noyabr ayının 12-də ölkənin yeni konstitusiyasının qəbul edilməsi ilə başa çatdı. Konstitusiya ilə Azərbaycan demokratik, hüquqi, dünyəvi-unitar respublika kimi müəyyənləşdirilmişdir. Dövlət hakimiyyətinin həyata keçirilməsi formasına görə Azərbaycan prezident üsul-idarəsinə əsaslanan respublika parlamentinə uyğundur. Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Azərbaycanda müstəqil şəkildə formalaşan və fəaliyyət göstərən 3 hakimiyyət qolu qərarlaşdırılmışdır: qanunverici hakimiyyət səlahiyyətlərini həyata keçirən Milli Məclis, icra hakimiyyətini həyata keçirən prezident və məhkəmə hakimiyyəti.

Azərbaycan Respublikasının prezidenti ümumi və birbaşa seçki əsasında 5 il müddətinə seçilir. Konstitusiya ilə prezidentə geniş səlahiyyətlər verilir. Milli Məclisin razılığı ilə 5 naziri təyin və azad edir. Nazirlər kabinetini istefaya göndərir, nazirləri təyin edir, mərkəzi və yerli icra hakimiyyəti orqanları yaradır, icra başçılarını təyin edir və

azad edir, dövlət büdcəsini təsdiq üçün Milli Məclisə təqdim edir. Prezident Milli Məclisdə qanunvericilik təşəbbüsü hüququna da malikdir.

Milli Məclis qanunvericilik funksiyasını həyata keçirir. Onun fəaliyyəti və statusu 2 əsas istiqamətdə reallaşır: **1)** Milli Məclis geniş məsələlər kompleksi üzrə ümumi qaydalar çərçivəsində icraedici hakimiyyət, konkret idarəçilik funksiyası həyata keçirir. **2)** Milli Məclisin bilavasitə həll etdiyi məsələlər: Milli Məclis impiçment yolu ilə prezidenti vəzifədən kənarlaşdırmaq səlahiyyətlərinə malikdir.

Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və İqtisad Məhkəməsi həyata keçirir. Prezidentin təqdimatına əsasən, Konstitusiya Milli Məclis tərəfindən təyin edilən 9 hakimdən ibarətdir. Milli Konstitusiya Məclisi qəbul edilmiş qanunların, normativ-hüquqi aktların konstitusiyaya uyğun olub-olmamasını müəyyənləşdirir, habelə ayrı-ayrı dövlət orqanlarının və yüksək səlahiyyətli vəzifəli şəxslərin fəaliyyətlərini aşıb-aşmadığına nəzarəti həyata keçirir.

Ali Məhkəmə cinayət və digər işlər üzrə, İqtisad Məhkəməsi isə iqtisadi mübahisələrə baxılması üzrə məhkəmə icrasını həyata keçirir.

Azərbaycan Respublikasının Konstitusiya ilə müəyyən edilmiş unitarçılığı spesifikliyə malikdir. Bu da onun tərkibində Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyəti statusuna malik olmasıdır. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Orada qanunverici hakimiyyəti Naxçıvan Muxtar Respublikasının Milli Məclisi, icra hakimiyyətini Nazirlər kabineti, məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəməsi həyata keçirir. Naxçıvan Muxtar Respublikasında ali vəzifəli şəxs Ali Məclisin sədridir.

Azərbaycanın siyasi sisteminə çoxpartiyalılıq xasdır. Siyasi partiyalar qanunverici orqanda təmsil olunmaq vasitəsi ilə dövlət hakimiyyətinin həyata keçirilməsində imkanı qazanır.

# VIII. SİYASİ SİSTEMDƏ DÖVLƏT

## Dövlətin meydana gəlməsi və onun mənşəyi haqqında nəzəriyyələr

**Siyasi sistemin başlıca ünsürü dövlətdir. Onun xarakteri** fəaliyyət forma və üsulları siyasi sistemin təbiətini müəyyənləşdirən həlledici amillərdən biridir. Dövlət-siyasi cəmiyyət təsisatı olub, kütləvi hakimiyyət mexanizmi vasitəsi ilə fərdlərin və cəmiyyətin mövcudluğunun əsaslarını və xalqın suverenliyini təmin edən ərazi birliyidir.

Dövlət anlayışı 2 mənada işlədilir:

Geniş və dar mənada

**Geniş mənada** dövlət müəyyən ərazidə yaşayan, ali hakimiyyət orqanlarında təmsil olunan insanların birliyidir. Bu mənada dövlət ölkə və ya xalq anlayışları ilə eyniyyət təşkil edirdi. Bu fikri ilk dəfə Makiavelli təkzib etdi.

Dövlət **dar mənada** müəyyən ərazidə ali hakimiyyəti həyata keçirən təşkilatların və orqanların vahid sistemi kimi qavranılır.

**Dövlət** – siyasi birlik olmaq etibarı ilə müəyyən struktura malik olan, siyasi hakimiyyətin müəyyən təşkili ilə səciyyələnən və müəyyən ərazidə sosial proseslərin tənzimlənməsini təmin edən xüsusi təsisatdır.

**Dövlət –** adamlar arasında tarixən qərarlaşan siyasi, sosial-siyasi əlaqələr və hüquqi münasibətlər sistemidir.

**Dövlət –** adamların davranışının məcburi surətdə tənzimlənməsini nəzərdə tutan və normalar sistemi əsasında idarə olunan taşkilatdır. Onun başlıca məqsədi ümumi mənafeyi və ümumi iradəni ifadə etməkdən, insan hüquqlarını və azadlıqlarını qorumaqdan ibarətdir.

**Dövlət** – insanların birliyinin siyasi təşkilinin universal formasıdır. Elə buna görə də o beynəlxalq hüququn başlıca subyektidir.

**Dövlət** – tarixi inkişafın gedişində meydana gəlmişdir. Dövlət anlayışı qədimdə müxtəlif anlayışlarla ifadə olunmuşdur. Məsələn, polis, krallıq, imperiya, şahlıq, sultanlıq, knyazlıq və s.

Dövlət sinifli cəmiyyətdə quldarlıq quruluşunda meydana gəlmişdir. İlk quldarlıq quruluşu Qədim Misirdə, Mesopotamiyada yaranmışdır.

Qədim Şərqdə, Misirdə dövlət başçısını ilahiyə bənzətmə və dövlətin meydana gəlməsiylə ilahi iradənin təzahürü kimi baxmışlar.

Qədim Çin filosofu **Konfutsi** dövlət hakimiyyətini tayfaları qəbilələrdə, qəbilələri isə qəbilə ittifaqlarında birləşdirən ailə başçısının hakimiyyəti kimi başa düşürdü.

Platon "Dövlət" əsərində dövlətin meydana gəlməsini ictimai əmək bölgüsünün inkişafı və müxtəlif insan qruplarının meydana gəlməsi ilə başlayırdı. O, sənətkarları, əkinçiləri, döyüşçüləri dövlətin atributu, dövləti idarə edənləri filosoflar, hikmətli adamlar hesab edirdi.

**Tusi** göstərirdi ki, dövlət insanların könüllü ittifaqlı əsasda yaranmışdır və ona görə də onların birliyindən, siyasi cəmiyyətdən başqa bir şey deyildir.

Fransız mütəfəkkirlərinin fikrinə görə dövlət "ictimai müqavilə" əsasında meydana gəlib.

Klassik alman filosofları dövlətin meydana gəlməsini zəkanın inikası və gerçəklikdə əxlaqi ideyanın təcəssümü kimi təsəvvür edirlər.

XX əsrdə yaranan "Zorakılıq" nəzəriyyəsi (Qumploviç) dövlətin zəif, qeyri-mütəşəkkil qrupların, tayfaların daha güclü və mütəşəkkil qrup tərəfindən işğal edilməsi sayəsində meydana gəldiyini sübut etməyə çalışır.

**Politologiyada dövlətin yaranmasında 3 qrup amilin olduğu göstərilir:**

**l) ictimai əmək bölgüsü**

**2) istehsal vasitələri üzərində xüsusi mülkiyyətin istismarın və ontoqonist siniflərin yaranması**

**3) insan özünün təkrar istehsalında baş verən mühüm dəyişikliklər.**

Afrikada insanın həyatının istehsah və təkrar istehsalı, Şərqdə ictimai əmək bölgüsünün Qərbi Avropada əsasən xüsusi mülkiyyətin yaranması ilə formalaşıb. inkişafı ilə əlaqədardır. Dövlət-tarixi inkişafın məhsuludur.

Polyak alimi **Yeji Vyatrın** fikrincə, həmin proses aşağıdakı modifikasiyalarla baş verib.

**l) Klassik yol** – icmanın öz xarakterinə görə sosial sinfi dəyişikləri, xaricdən heç bir təsir olmadan daxili ziddiyyətlərin kəskinləşməsi.

**2) Dövlət quruluşunun təşəkkül tapmasının mövcud olan əsaslarına artıq mütəşəkkil dövlət quruluşu olan xalqın hücum etməsi də əlavə olunur.** (Bolqarların Balkan Slavyan torpaqlarına basqın etməsi və Bolqar dövlətinin yaranması)

**3) Daxili müqəddəm şərtlərin yetişdiyi bir vaxtda dövlətin yaranmasının sürətləndirən real hücum təhlükəsi qarşısında Kiyev Rus dövlətinin yaranması.**

**4) Qonşu dövlətlərin təcrübəsi** (Qərbi Avropa regionunda Romanın təsiri) hakimiyyətlə şəxsiyyət arasında qarşılıqlı əlaqələrin xarakterinə

idarəetmə rasionallığına görə dövlətin inkişafında 2 başlıca mərhələ ayrılır. Ənənəvi və konstitusiyalı dövlət

**Ənənəvi dövlət** kortəbii şəkildə ənənələr əsasında formalaşıb. Onun ən geniş yayılmış forması monarxiyadır. **Konstitusiyalı dövlət** insanların şüurlu surətdə cəmiyyəti idarəetmə mexanizmi və sistemi yaratmaq səylərinin nəticəsi kimi qiymətləndirilir. Konstitusiyalı dövlət hakimiyyəti vətəndaşların başlıca olaraq dövlətə etibar etdiyi funksiyalarının yerinə yetirilməsi hüdudları ilə məhdudlaşır.

Dövlət cəmiyyətin bazisi üzərində yüksələn siyasi üstqurumlar.Tarixən bazisin dəyişməsindən asılı olaraq, dövlət hakimiyyəti də bir sinfi əlindən digərinin əlinə keçir. Dövlət bazisə münasibətdə mühüm, lakin nisbi rnüstəqilliyə malikdir, yəni o ictimai münasibətlərin inkişafına həm təkan verə bilər, həm də ləngidə bilər. Dövlətin sinifli cəmiyyətdə digər siyasi institutlardan fərqi, ali hakimiyyətin ona məxsus olmasıdır. İstehsal vasitələrinə malik olan siniflər dövlət vasitəsilə özlərinin iqdisadi-ictimai hökmranlığının, cəmiyyətdə aparıcı rolunu tətbiq edirlər. Başqa sözlə dövlət bir sinfin digəri üzərində ağalığını saxlamaq mexanizmidir.

## Dövlətin funksiyaları, formaları və əlamətləri

Dövlət yaranarkən onun funksiyaları da formalaşır. Dövlətin xarici və daxili funksiyaları mövcuddur.

**Dövlətin daxili fuksiyaları aşağıdakılardır:**

1) Vətəndaşların və cəmiyyətin təhlükəsizliyinin, qanunçuluğun və hüquq qaydalarının təmin edilməşi, yəni qanunçuluq funksiyası.

2) Cəmiyyətin iqdisadi əsaslarının, bütün rəngarəng mülkiyyət formaların müdafiəsi.

3) Sosial münaqişələrin və sinfi ziddiyyətlərin tənzim edilməsi, fərdlərin və sosial qrupların mənafeyinin və tələbatının əlaqələndirilməsinin təmin edilməsi.

4) Maarif və tərbiyənin, mədəniyyət sferasının tənzim edilməsi.

5) Etnik qrupların münasibətlərinin tənzim edilməsi və milli birlik

6) Demoqrafik və ekoloji funksiya, adamların mühafizə edilməsinin və təbii ehtiyatlardan səmərəli istifadə edilməsini təmin edilməsi.

**Dövlətin xarici funksiyaları.**

l) Beynəlxalq münasibətlərin bütün sferalarında dövlətin mənafeyinin və suverenliyinin müdafiəsi.

2) Diplomatik münasibətlər və xidmətlər, habelə təşkilatların,

ittifaqların, birliklərin (BMT, AİB, NATO) və s. işində iştirak etmək yolu ilə dövlətlərarası və Beynəlxalq mənafelərin aydınlaşdırılması və reallaşdırılması.

**Dövlətin formalarının tarixi tipləri:**

l. Quldarlıq (IV-III minillik, Qədim Misir, Çin)

2. Feodalizm (IX-X əsrlər, Azərbaycanda, X-XI əsr Avropada)

3. Kapitalizm

4. Sosializm

Quldarlığın formaları: Aristokratiya, Abtokratiya, Monarxiya, Diktatura, imperiya, demokratiya, Politologiya ortabab kütlənin hakimiyyəti, Oxloqratiya, Tiraniya, Plutokratiya.

Dövlət formaları dedikdə 3 başlıca ünsür: dövlətin quruluşu, idarə formaları, siyasi rejimlər başa düşülür. Ərazi quruluşuna görə dövlətin aşağıdakı formaları vardır: unitar və federetiv. Konfederasıya.

Siyasi ədəbiyyatda muxtariyyət anlayişı mövcuddur. Siyasi muxtariyyət dövlətin ərazi siyasi təşkili forması hesab olunur.

**Unitar dövlət (latıncadan "unis-bir") vahid dövlət olub** inzibati-ərazi vahidlərə, vilayət və regionlara və bəzən də muxtar qrumlara bölünür. Böyük və orta şəhərlər inzibati ərazi vahidi hesab edilir. Tərkibində muxtar qrumlar olan unitar dövlət mürəkkəb hesab olunur. Onun vahid konstitusiyası, vahid dövlət hakimiyyəti orqanları sistemi, ümumi hüquqi sistem qüvvədə olur. Unitar dövlət mərkəzləşmiş (Böyük Britaniya, Danimarka) mərkəzləşməmiş (Fransız, İtaliya, İspaniya) olur. Birinci halda yerli idarəetmə orqanlarına böyük səlahiyyətlər verilir. Mərkəzləşmiş unitar inzibati ərazi bölgüsünün bütün pillərini idarə etmək üçün yuxarıdan nümayəndələr təyin olunur və yuxarı orqanlar tərəfindən təsdiq olunur.

Mərkəzləşməmiş unitar dövlətdə hökümətin inzibati ərazi vahidlərində təyin etdiyi və idarə etmə üzrə ümumi səlahiyyətlərə malik olan nümayəndələri yoxdur. Mərkəzləşməmiş unitar dövlətdə böyük regionlar böyük muxtariyyata malikdirlər, özünün hökümətlərini, inzibati-idarə strukturlarını müstəqil təşkil edir. Mərkəzləşməmiş unitar dövlətlərdə inzibati ərazi vahidləri arasındakı sərhədlər və onların razılığı əsasında mərkəzi dövlət orqanlarının iştirakı olmadan dəyişir. Muxtar qurumların səlahiyyəti konstitusiya ilə və ya konkret muxtariyyət haqqında xüsusi qanunla müəyyən olunur.

Muxtariyyətin iki əsas forması fərqləndirilir:

1) Milli ərazi 2) Milli mədən

Milli ərazi muxtariyyətinin iki forması mövcuddur:

1) Siyasi muxtariyyət 2) İnzibati muxtariyyət

Siyasi muxtariyyət böyük səlahiyyətlərə malik olur bəzi dövlətçilik əlamətlərini özündə birləçdirir və qanunçuluq hüququna malikdir. (Bu da özunun həmin ölkənin konstitusiyasında təsdiqini tapır). Bəzən siyasi muxtariyyətdə yerli parlament yaradılır lakin, onun qəbul etdiyi qanunlar dövlətin və onun strukturlarının hisslərinin mənafeyinə zidd olmamalıdır. Siyasi muxtariyyət postsosialist respublikalarında mövcud olmuşdur.

İnzibati muxtariyyətin nümayyəndəli orqan öz səlahiyyəti daxilində normativ aktlar qəbul edə bilər.

**"Federasiya"** – latın dilində birlik, ittifaq deməkdir. Federasiya hüquq cəhətdən müəyyən siyasi müstəqilliyi olan bir neçə dövlətin bir ittifaqda, bir qrupda birləşmiş dövlət formasıdır. ABŞ, Almaniyada Bavariya və Vyutemburq krallığı. SSRİ-də Yuqoslaviya, Çexoslavakiya və s. ölkələr.

**Federasiyanın xüsusiyyətləri**: 1) onun ərazisi ayrı-ayrı subyektlərin ərazisindən ibarətdir. 2) Öz konstitusiyalarını qəbul edə bilərlər 3) özünün hüquq və məhkəmə sistemi vardır. AFR, Romada, Malayziya, Avstraliya, İsveçrə. Federasiyaya 2-li vətəndaşlıq səciyyəvidir.

Federasiya subyektlərinin öz konstitusiyası və vətəndaşı olur və onların sərhədləri subyektlərin razılığı olmadan dəyişdirilə bilməz. Belə federasiya növü ittifaq və müqavilə federasyası adlanır. Onlar ikiqat suverenliyə malik olur.

Muxtariyyət və konstitusiya federasiyalarının subyektləri suverenliyə malik olmur, öz konstitusiyaları olmur onların sərhədləri mərkəzi orqanlar tərəfindən dəyişdirilir.

**Dövlətin idarəetmə üsullarına görə 2 forması:**

Respublika və monarxiya

1) Respublika dövlət idarəçilik formasında ali hakimiyyət orqanları və vəzifəli şəxslər xalq tərəfindən seçilir və 2 forması var: 1) prezident üsul-idarəsi; 2) parlamentli respublika

Parlamentli respublika ilk dəfə XVIII əsrdə İngiltərədə meydana gəlib. Parlamentli respublikada qanunvericilik fuksiyalarını icra edən ümummilli nümayəndəli orqandır. İtaliya, Avstriya, Türkiyə. Parlamentli respublikada hökümət prezident qarşısında deyil yalniz parlament qarşısında məsuliyyət daşıyır. Parlamentli respublikda daha sabit hökümət yaradılması üçün konstitusiya üsulları mövcuddur.Parlamentli respublikda prezidentin seçilməsinin elə qaydası mövcuddur ki, o öz mandatını bilavasitə xalqdan almır. O ya parlament

(Yunanıstan), ya da xüsusi kollegiya tərəfindən seçilir (Almaniya).

Prezident üsul-idarəsində prezident həlledici rol oynayır. O həm dövlət, həm də hakimiyyət başçısı funksiyalarını yerinə yetirir. Nazirlərin namizədliyini verir və onlar parlamentdə səsvermə yolu ilə seçilirlər. ABŞ prezident üsul-idarə parlamentin qəbul etdiyi qanunlara prezident veto qoymaq hüququ var. Prezidentin üzvü olduğu partiya hakimdir.

Beləliklə, dövlət insanların davranışının hüquqi normalarla məcburi tənzimlənməsidir. Dövlət quruluşunun substansional ünsürü millətin siyasi cəhətdən öz müqəddaratını təyin etməsidir.

Konfederasiya da – ayrıca bir dövlət forması kimi qeyd olunur. Konfederasiya müstəqil suveren dövlətlər tərəfindən öz ümumi vəzifələrini əlaqələndirmiş formada həll etmək məqsədilə yaradılan birlik formasıdır. Buraya daxil olan dövlətlər öz daxili, bəzən hətta xarici müstəqilliyini də tamamilə saxlayır və müstəqil hərəkət edirlər. Onun yaranması isə, bir qayda olaraq, xarici təsir altında baş verir. Konfederasiyanın mərkəzi hakimiyyət orqanları, vahid konstitusiya, vətəndaşlığı, vahid valyutası və s. olmur.

Konfederasiya sözünün hərfi mənası-latın dilində "müqavilə ilə əlaqələndirmək"-dediklərimizi bir daha təsdiq edir.

Tarixdən konfederasiyanın bir sıra nümunələri 1815-1866-cı illərdə mövcud olmuş 38 alman dövlətinin Alman ittifaqı, 1848-ci ildə Konstitusiyasına qədər mövcud olmuş İsveçrə ittifaqı, 1776-1787-ci illərdə fəaliyyət göstərmiş ABŞ və s. məlumdur. Dövlətin formalarının digər bir təsnifatı idarə üsullarına əsaslanır. Bu baxımdan dövlətin 2 forması göstərilir – monarxiya və respublika. Monarxiyada hakimiyyətin mənbəyi monarx və onun sülaləsidir. Onun hakimiyyəti isə nəsildən-nəslə keçir. Monarxiyanın bir neçə növü var: mütləq monarxiya və konstitusiyalı monarxiya.

**Dövlətin əlamətləri.** Siyasi elmdə dövlətin aşağıdakı əsas əlamətləri göstərilir:

1. **Məcburetmə** - heç kim dövlətdən kənar olması və dövlət hakimiyyətinə tabe olmaması haqqında özbaşına qərar qəbul edə bilməz, çünki, dövlət mənsubiyyəti ictimai zərurətdir, o, məcburidir və dövlət hüquqi, habelə beynəlxalq hüquqla tənzim olunur. Dövlətsizlik qeyri-normal hal hesab olunur. Bu 1930-cu il Beynəlxalq Haaqa müqaviləsi və 1948-ci ildə qəbul olunmuş "İnsan hüquqları haqqında ümumi bəyənnamə" tərəfindən etiraf olunur.

2. **Zor tətbiq etmək hüququ** – Dövlətin xüsusi zor orqanları vardır

və qanunun nəzərdə tutduğu hallarda o onlara əl atır.

3. **Suverenlik** – müəyyən ərazidə ali hakimiyyəti nəzərdə tutur. Öz daxili subyektlərinə münasibətdə dövlət ali və qeyri məhdud hakimiyyətə malikdir, xarici dövlətlər isə bu prinsipinə hörmət etməyə borcludurlar.

4. **Umumilik** – Dövlət hakimiyyəti onun ərazisində yaşayan bütün adamlara aiddir.

5. **Hüquq** – Dövlət onun müəyyən etdiyi hüquq qaydaları və normaları çərçivəsində fəaliyyət göstərir.

**6. Əhalidən vergi və mükəlləfiyyətlər toplamaq hüquqi** – Dövlət idarəetmə strukturlarını, mühafizə və müdafiə qurumlarını saxlamaq üçün əhalidən vergilər və müxtəlif mükəlləfiyyətlər şəklində vəsaitlər toplayır.

Dövlətin əsasən 3 əlamətlərini fərqləndirirlər: ərazi, əhali, ümumi hakimiyyət

Dövlətin birinci atributiv əlaməti sadəcə dövlət sərhədləri daxilində tanınmış ərazi deyil, milbtin tabeliyinin tarixən bağlı olduğu ölkə, coğrafı vilayət hesab olunur.

Dövlət quruluşunun substansional dementi siyasi cəhətdən öz müqəddaratını təyin edən millətdir.

Müasir dövlət nəzəriyyəsində dövlətin 3-cü əlaməti insan hüquqları ilə məhdudlaşdırılmış, yəni insanların birgə siyasi iqdisadi və mənəvi varlığını təmin edən kütləvi siyasi hakimiyyət təşkilidir.

## Vətəndaş cəmiyyəti və hüquqi dövlət

**Vətəndaş cəmiyyəti** – Cəmiyyətin inkişafının müəyyən pilləsində formalaşan insanların birliyi olub özündə bu cəmiyyətin siyasi, sosial, iqtisadi, mədəni sferalarında könüllü yaranan qeyri-dövlət strukturlarını birləşdirir.

**Vətəndaş cəmiyyəti –** Dövlət tərəfindən əlaqələndirilməyən, fərdlərin öz aralarında yetkin iqtisadi, mədəni, hüquqi, siyasi münasibətləri olan bir cəmiyyətdir. Bu cəmiyyətdə assosiasiyalı həyat, yaxud kütləvi sfera (kütləvi hərəkatlar, partiyalar, mənafe qrupları) azad inkişaf edir.

Bu elə cəmiyyətdir ki, özündə struktur ünsürü kimi dövlət strukturlarını və siyasi strukturları deyil, insanların könüllü formalaşan ilkin birliklərin - ailəvi kooperasiyaları, assosiasiyaları, təsərrüfat şirkətlərini, ictimai təşkilatları, həmkarlar ittifaqlarını, yaradıcı, idman,

etnik, dini və sosial birlikləri birləşdirən insan birliyinin daha yüksək mərhələsi və daha mütəşşəkil formasıdır.

Cəmiyyətdə mövcud olan qeyri-dövlət,qeyri-siyasi münasibətlərin; iqtisadi, sosial, ailə, milli, mənəvi, əxlaqi, dini və i.a. münaibətlərin və kooperasiya mülkiyyəti təşkil edir.

**Vətəndaş cəmiyyətinin prinsipləri**

**1)** İqtisadi azadlıq, müxtəlif mülkiyyət formaları, bazar münasibətləri.

**2)** İnsan və vətəndaşların təbii hüquqlarının qeyd-şərtsiz tanınması və qorunması.

**3)** Qanun və ədalət qarşısında hamının bərabərliyi və şəxsiyyətin etibarlı hüquqi müdafiəsi.

**4)** Hakimiyyətin legitimliyi və demokratik xarakteri.

**5)** Hakimiyyətin bölünməsi və qarşılıqlı fəaliyyətinə əsaslanan hüquqi dövlət.

**6)** Siyasi və ideoloji pluralizm, legal müxalifətin mövcudluğu.

**7)** Fikir, söz, mətbuat azadlığı.

**8)** Dövlətin, vətəndaşların şəxsi həyatlarına qarışmaması, onların qarşılıqlı vəzifələri və öhtəlikləri.

**9)** Sinfi sülh, əməkdaşlıq və milli barışıq.

**10)** İnsanların layiqli həyat şəraitini təmin edən effektli sosial siyasət.

**Vətəndaş cəmiyyətinin struktur elementləri.**

1) Şəxsiyyət
2) Ailə
3) Məktəb
4) Məscid(kilsə, sinaqoq)
5) Sahibkarlıq və təşəbbüskarlıq.
6) Sosial qruplar, siniflər.
7) Vətəndaşların şəxsi həyatları və onların təminatı.
8) Demokratik institutlar.
9) İctimai birliklər, siyasi partiyalar və hərəkatlar.
10) Müstəqil məhkəmələr.
11) Təhsil sistemi.
12) Müstəqil k.i.v-lər.
13) Qeyri-dövlət sosial-iqtisadi əlaqələr.

Vətəndaş cəmiyyətinin əsas elementi şəxsiyyətdir. Vətəndaş cəmiyyəti şəxsiyyətə öz qabiliyyətinin reallaşdırılmasına imkan yaramalıdır. Vətəndaş cəmiyyəti siyasi yox, iqtisadi və şəxsi həyat

fəaliyyəti sferasıdır. Burada əxlaq və humanizmə, qanunlara və əxlaqa hörmət edilir. Vətəndaş cəmiyyəti hüquqi dövlətin mövcudluğu şəraitində öz vəzifələrini tam demokratik şəkildə müvəffəqiyyətlə həyata keçirə bilər.

**Hüquqi dövlət.** Hüquq dövləti ideyasının müəliifi Con Lokdur. "Hüquqi dövləti" anlayışı hüququn hakimiyyətin fövqündə dayanmasını hakimiyyətin, cəmiyyətin və onun vətəndaşlarının qanuna şərtsiz əməl etmələrini özündə ehtiva edir. Belə dövlət aşağıdakı əlamətlərə malik olur:

- Dövlət öz fəaliyyətini qanun çərçivəsinə salır, qanunun müəyyənləşdirdiyi sərhədləri keçmir.
- Hamı qanun qarşısında bərabərdir.
- Hər bir vətəndaş dövlət, dövlət isə hər bir vətəndaş qarşısında məsuliyyət daşıyır, insan azadlıqlarına və haqlarına tam təminat verilir.
- Dövlət stabil konstitusiya və qanunvericilik sisteminə malik olur.
- Qanunun aliliyi, hüququn üstünlüyü.
- Vətəndaşların hüquqlarının müdafiəsi.
- Qrup hüquqlarının müdafiəsi.
- Hakimiyyət bölgüsü.
- Konstitusiya nəzarəti.
- Dövlət və qeyri-dövlət təsisatlarına funksiya və səlahiyyətlərinin məhdudlaşdırılması.
- Qanunverici, icraedici, məhkəmə hakimiyyətinin tam səlahiyyətli fəaliyyət göstərməsi.

**Hüquqi dövlət-** bu, ölkədə məskunlaşmış xalqın, millətin və xalqların suverenliyini özündə birləşdirən dövlətdir. Hakimiyyət bölgüsü hüquqi dövlətin çox mühim prinsipi kimi çıxış edir.

Hüquqi dövlətin əsasları:

a) **İqtisadi əsası-** Hüquqi dövlətin iqtisadi əsası multistruktur, bərabərhüquqlu və hüquqi baxımdan eyni dərəcədə müdafiə olunmuş, müxtəlif mülkiyyət formalarına söykənir.

b) **Sosial əsası-** Hüquqi dövlətin sosial əsasını azad vətəndaşları-ictimai tərəqqi daşıyıcılarını birləşdirən, özünətənzimləyən vətəndaş cəmiyyəti təşkil edir. Belə dövlətin diqqət mərkəzində insan, onun müxtəlif maraqları dayanır.

Hüquqi dövlətin mənəvi əsasını ümumi bəşəri humanizm və ədalət,

bərabərlik, şəxsiyyətin, onun şərəfi və ləyaqətinin azadlığı prinsipləri təşkil edir. Hüquqi dövlət eyni zamanda sosial dövlətdir.

**Hüquqi dövlət** – Ümumi, bərabər, birbaşa seçki yolu ilə yaranır və öz qanunlarını bu prinsip əsasında həyata keçirir. Hüquqi dövlətdə təkcə dövlətlə fərdlərin öz aralarında sağlam münasibətlər olur.

Demokratiya hüquqi dövlətlə əlaqələndirilir. Demokratik hüquqi dövlətin hamiya aydın görünən əlamətləri bunlardır: siyasi prosesdə iştirak hüquqi, siyasi partiyalar, müxtəlif maraq qrupları arasında müəyyən onun qaydalarının gözlənilməsi, ümumi seçki prosesində bütün səviyyələrdə hakimiyyət dəyişikliyi, parlamentarizm və pluralist demokratiyanın digər norma və prinsipləri.

Demokratik dövlətlərdə hüquqi dövlət qurmaq, onu möhkəmləndirmək üçün dövlətin fəaliyyətinin bütün sferaları, fəaliyyət mexanizmləri qanunlarla bağlı olmalı, həmişə qanunların təsiri altında olmalıdır. Hüquqi dövlət hakimiyyətin təşkilinin ən mütərəqqi formasıdır, yeni cəmiyyətə uyğun olaraq onun möhkəmlənməsinə xüsusi diqqət verilir.

# IX. SİYASİ REJİMLƏR

## Siyasi rejimlərin mahiyyəti və təsnifatı

Dövlət sistemində həlledici rol siyasi rejimlərə aiddir. Siyasi rejim idarəetmə metodları və üsullarının məcmusudur. Siyasi rejim dövlətin ictimai vəziyyətini dövlət hakimiyyətinin fərdə, ictimai təsisatlara, etnik birliklərə və s. münasibətini, cəmiyyətdə siyasi azlığın səviyyəsini, şəxsiyyətin hakimiyyətə münasibətini səciyyələndirir. Geniş mənada, o həm də vətəndaş cəmiyyətinin strukturlarına aiddir və məcmu halında siyasi sistemin mahiyyətini ifadə edir.

**Siyasi rejim:**

1. Siyasi, habelə milli qüvvələrin nisbəti;
2. Fərdlərin və vətəndaş cəmiyyətinin siyasi yetkinliyi;
3. Coğrafi-siyasi şərait;
4. Rəhbər dövlət xadimlərinin (siyasi liderlərin) şəxsiyyəti ilə şərtlənir.

**Veberin "ideal tip" siyasi rejim təsnifatı:**

1. ***Hakimiyyətin sosial bazasına görə:***
   **Demokratiya** – xalqın əksəriyyətinin hakimiyyəti;
   **Aristokratiya** – nəcib mənşəyə malik adamlar qrupunun, elitanın hakimiyyəti;
   **Plutokratiya** – varli, yuxarı təbəqələrin hakimiyyəti;
   **Oliqarxiya** – maliyyəçi və sənayeçi qrupların hakimiyyəti;
   **Teokratiya** – din xadimlərinin hakimiyyəti;
   **Oxlokratiya** – kütlənin hakimiyyəti (keçid dövrlərdə vaxtı təsadüf olunur).
2. ***Siyasi fəaliyyət metodlarına görə:***
   **Demokratiya, parlamentli prezident;**
   **Totalitarlıq;**
   **Avtoritarlıq.**
3. **Sosial tərəqqi münasibətinə görə:**
   **İnqilabi;**
   **Mütərəqqi;**
   **Mürtəce;**
   **Liberal;**
   **Mühafizəkar.**

Siyasi rejimlərin ilk təsnifatını tarixçi **Herodot** verib. **Platon** ideyanı zənginləşdirmiş**,** **Aristotel** daha da təkmilləşdirmişdir. Onun təsnifatı

siyasi ədəbiyyatda **Monteskye**yə qədər monarxiya, aristokratiya və demokratiyadan ibarət olmuşdur. Monteskye buraya respublikanı, monarxiyanı, despotizmi əlavə edib.

**Marksizm**ə görə, siyasi rejimlərdə fərqlər əsasən, istehsal sistemindən irəli gəlir. Hər bir tarixi dövrdə siyasi rejimlərin təsnifatı həmin dövrün reallıqlarına əsaslanır. Müasir dövrdə ən geniş yayılmış totalitar, avtoritar və demokratik rejimlərdir.

## Totalitarizm və avtoritarizm

**Totalitarizm.** Totalitar - (latın dilində "bütün, bütöv, tamam, ümumi" mənasını verir) 20-ci illərin əvvəllərində ilk dəfə bu termin İtaliyada Mussolininin faşist rejimini səciyyələndirmək üçün istifadə edilmişdi. 40-50-ci illərdə bu nəzəriyyə formalaşıb başa çatdı.

Totalitarizm məsələləri üzrə ilk elmi əsərlər Xayekin "Rəzilliyə aparan yol", Ariedin "Totalitarizmin mənbələri", Fridrix və Z.Bjezinskinin "Totalitar diktatura və avtokratiya" kitablarıdır.

Totalitarizm ideyası qədim kökə malikdir. Qədim dövrlərdə fərdin dövlətin tam tabeliyində olması haqqında baxışlar mövcud idi. E.ə V əsrdə Herakliv yazırdı: "Müdriklik və alimlik zirvəsinə yüksələrək bütün əşyaları qəti şəkildə idarə etmək mümkündür".

Totalitarizmin ideya əsaslarının inkişaf etdirilməsində utopik sosializmin nümayəndələri T.Morun, Kampanellanın, Sen Simonun, Rusonun təlimlərinin xüsusi rolu olmuşdur. Marksın, Leninin siyasi baxışlarında daha qabarıq özünü göstərmişdir.

Totalitarizmin meydana gəlməsi müəyyən ictimai şərait zəminində mümkün olub. Onun ən ümumi şərti cəmiyyətin öz inkişafının sənaye mərhələsinə qədəm qoyması hesab olunur. Bu mərhələ kütləvi kommunikasiya sistemlərinin mürəkkəbləşməsi, şəxsiyyətin davranışı və bütün həyat üzərində nəzarətini həyata keçirməyə, ona fasiləsiz güclü ideoloji təsir göstərməyə imkan verən texniki vasitələrin icad edilməsi ilə səciyyələnir.

Totalitarizmin yaranma səbəblərindən biri də cəmiyyət həyatının mürəkkəbləşməsi, onun rasional idarə edilməsi ilə şəxsiyyətin azadlığı arasında ziddiyyətin dərinləşməsi hesab edilir. Mussolini bu rejimə haqq qazandırmaq üçün deyib: "Biz ilk dəfə olaraq bəyan etdik ki, sivilizasiya mürəkkəbləşdikcə şəxsiyyətin azadlığı məhdudlaşır".

Totalitar rejimin yaranma səbəblərindən biri də sənaye mərhələsində meydana çıxan yeni sosial əlaqələr sisteminin insanlarda doğurduğu

psixoloji uyğunsuzluq və narahatçılıq halı da mühüm rol oynayır. Totalitarizmi yaradan siyasi şərtlər: cəmiyyətin totalitar hərəkatının nüvəsini təşkil edən sosial qruplardan ibarət siyasi qüvvənin yaranması (marginal qüvvələr); ifrat ideologiyalaşmış, güclü intizama əsaslanan, yarımhərbi struktura malik siyasi partiyalar.

**Totalitarizmin əlamətləri:**

1. Hakimiyyət bölgüsünün olmaması;
2. Vahid partiyanın olması və bütün hakimiyyət ona tabedir;
3. Partiya demokratik yolla deyil, liderin ətrafında təşkil olunmuşdur;
4. Cəmiyyətdə bir ideologiya hakimdir;
5. İctimai həyatın bütün sferaları total nəzarət altındadır;
6. Terrorçu polis nəzarəti var və terrorçu rolunu oynayır. Kimsə cəzalandırılanda onun günahı məhkəmə yolu ilə sübut edilmir;
7. Siyasi elita olmur. KİV üzərində ciddi senzura. Siyasi müxalifət yoxdur.

Onun başlıca xüsusiyyəti yeni cəmiyyət və yeni insan yaratmaqdır. Vətəndaş cəmiyyətinə ziddir, insanların sərbəst birliklərinə, mənafelərini ifadə etməsinə dözmür. İqtisadiyyat dövlət hökmranlığı, təsərrüfat həyatının müxtəlifliyinin aradan qaldırılması, xüsusi mülkiyyətə yol verilməməsi, rəqabətin aradan qaldırılması.

**Totalitarizmin formaları** – kommunizm, faşizm, milli sosializm.

Totalitar rejim islahatlar yolu ilə dəyişdirilə bilər, lakin asan deyil. Məsələn: 1991-ci ildə SSRİ-nin qəti sürətdə dağılması bu fikri alt-üst etdi.

**Avtoritarizm** – (latın dilində "təşəbbüsçü, müəllif, bani, yaradıcı" mənalarını verir). Sosialogiyada bu termini neomarksizmin cərəyanlarından biri olan Frankfurt məktəbinin nümayəndələri (Xorkhaymer, Adorno, Markuze) irəli sürmüşlər.

Bu rejimdə hakimiyyət öz-özlüyündə total xarakter daşımır, vahid ideologiyaya deyil, milli birlik konsepsiyasına əsaslanır. Bu rejim totalitar rejimdən demokratik rejimə keçid rolunu oynayır. Ona görə də az da olsa plüralizm vardır. Antidemokratik mahiyyətiondan ibarətdir ki, hakimiyyət orduya arxalanır. Vətətndaşların siyasi hakimiyyətə münasibəti özgələşmə ilə səciyyələnir, yəni onlar hakimiyyətdə iştirak etmirlər.

**Avtoritar siyasi rejimin xüsusiyyətləri:**

1. Təkhakimiyyətlilik, və ya hakimiyyət məhdud qrupa mənsub olur. Rejimin başında bir nəfər (monarx), və ya qrup (hərbi xunta, oliqarxiyaqrupu) durur;
2. Hakimiyyətin qeyri-məhdudluğu, onun vətəndaşlarının nəzarətindən çıxması. Bu rejimdə qanunlar olur, lakin qəbul edilməsi rejimin başında duranın iradəsindən asılıdır və onun mənafeyinə tabedir;
3. Hakimiyyət gücə arxalanır. Kütlənin narazılığı güclə yatırılır;
4. Hakimiyyət və siyasət inhisarlaşır. Müxalifətə və siyasi rəqabətə imkan verilmir. Müxalifət partiyalar fəaliyyət göstərmirlər;
5. Siyasi elita təyinetmə yolu ilə formalaşır;
6. Əhali siyasətdən uzaqlaşır;
7. KİV-lər hakimiyyəti tənqid edə bilər, ancaq çevrilişə çağırmaq olar;
8. KİV üzərində senzura sosial institut kimi saxlanılır.

Avtoritar rejimlər: Teokratik (İran/hərbi, İraq, Liviya və s.)

Müasir dövrdə avtoritar rejimli monarxiyalar inkişaf etmiş dövlətlərdə olur (İordaniya, Mərakeş, Səudiyyə Ərəbistan). Qərbi Avropaya aid deyil. Bu rejimdə seçkilər siyasi partiyalar və demokratik rejim ünsürləri olur, güclü siyasi hakimiyyət azad iqtisadiyyatla birləşir.

### Qeyri-demokratik rejimlərdən demokratik rejimlərə keçid

Bu proses XX yüzilliyin II yarısından başlandı. Bu proses ilk dəfə **Veber**in ictimai münasibətlərin rasionallaşdırılması adlanan nəzəriyyəsində öz əksini tapib. Bunu politoloqlar 3 səpgidə nəzərdən keçiriblər: **1)** Qabaqcıl ölkələrə çatmaq məqsədini güdən inkişaf, radikal islahatlar; **2-3)** Ölkə, habelə cənubi-şərqi Avropa ölkələrində mövcud olan Avropa nümunələrinə əsaslanaraq hərəkət etmək.

Rostov bu prosesin baş verməsinin 3 mərhələsini göstərib: 1) Hazırlıq mərhələsi; 2) Qərarların qəbul edilməsi; 3) Adaptasiya.

Qeyri-demokratik rejimdən demokratik rejimə keçid inqilab yolu ilə düzgün deyil. Bu bəzən qeyri-demokratik rejimə gətirib çıxarır. Məsələn: Yunanistan, Braziliya, Uruqvay.

**Demokratik rejimə keçid** – bir neçə formada həyata keçirilir:

1. Yuxarıdan həyata keçirilən islahatlar yolu həmişə özünü doğrultmur, səbəbi rəhbərlər hərəkətlərində ardıcıl olmurlar. Rəhbər demokratik rejim istəyir, lakin hakimiyyətdən getməkdən qorxur. Məsələn: Xruşov, Qorbaçov.

2. **Abdikasiya** – hakimiyyətdə olan qeyri-demokratik hərəkətləri ilə özünü xalqın gözündən salır və hakimiyyəti demokratik qüvvələrə verməyə məcbur olur (Azərbaycanda 1993-cü ildə hakimiyyətin dəyişdirilməsi).

**İqtidarla müxalifət arasında edilmiş razılığa əsasən, həyata keçirilən tədrici islahatlar**. Məsələn: İspaniyada baş nazir Suareş ilə müxalifət arasındakı 1977-ci ilin oktyabr ayında bağlanmış "Monkloa" sazişləri avtoritar rejimi dağıtdı, demokratik rejim quruldu. Bu da hər zaman baş tutmur. Çünki müxalifət hər zaman iqtidarla işləməyə razı olmur. Müxalifət hakimiyyətə gəlmək, iqtidar isə hakimiyyətdən getmək istəmir. Demokratik rejimi qurmaq da elə asan olmur. Bunun üçün ölkənin iqtisadi vəziyyəti, çoxmillətlilik, milli konfliktlərin olub-olmaması, müxalifətin fəaliyyətinin xarakteri, siyasi liderlərin fəaliyyəti, ölkə ərazisində müharibənin olub-olmaması, beynəlxalq aləmdə mövqeyi, dünya birliyinin ona münasibəti və s. həmin prosesin gedişinə öz təsirini göstərir. Demokratik rejimə keçiddə dünya təcrübəsindən bacarıqla istifadə etmək əsasında qarşıya çıxan problemləri ancaq demokratik metodların köməyi ilə həll etmək, siyasi prosesə qədəm qoyan bütün qüvvələrin mənafelərini nəzərə almaq tələb olunur.

# X. SİYASİ PARTİYALAR

## Siyasi partiya anlayışı

Vətəndaş cəmiyyətinin təhlili zamanı qarşıya çıxan ilk təsisat, siyasi partiyalar vətəndaş cəmiyyəti ilə dövlət arasında əlaqələndirici vasitədir. Siyasi partiyalar XX yüzilliyin sonlarında dünyanın siyasi mənzərəsinin ayrılmaz ünsürünə çevrildi. Hazırda bütün ölkələrdə müxtəlif saylarda partiya və partiya sistemləri fəaliyyət göstərir.

Politologiyanın xüsusi bir bölməsi, partologiya bu məsələlərlə məşğul olur. Palitologiyada partiyaların yaranması haqqında müxtəlif fikirlər söylənilir. Məsələn: Siyasət meydana gələn gündən partiyalar yaranıb, dəyişən yalnız onların yerinə yetirdikləri funksiyaları və cəmiyyətin onlara münasibəti olub.

Kontinental Avropa politoloqlarının fikrincə, partiyalar ümumi seçki hüquqnun verilməsi ilə eyni vaxtda meydana gəlib. Dyuverjenin fikrincə, partiyaların yaranmasıQərb demokratiyasının inkişafı ilə bağlıdır. Ingilis-amerikan konsepsiyasına görə, siyasi partiyalar XVII-XVIII əsrlərdə meydana gəlmişlər. XVII əsrdə bir-biri ilə rəqabət aparan partiyalar fraksiyalar adlandırılırdılar, lakin onlar cəmiyyətin sağlamlığına zıyanlıdırlar, sosial orqanizmin məhsuldar fəaliyyətinin qarşısını almaqla onu parçalayır və dağıdırdılar. XVIII əsrin əvvəllərində Patterson belə hesab edirdi ki, partiyalar labüdən özlərində xeyir və şəri birləşdirir və bununla da cəmiyyətə sağlam yarış ruhu gətirirlər. Fraksiyalar terminınə qarşı çıxır və partiyaları lingvistik cəhətdən düzgün adlandırmağı məsləhət görürdü. Veberin fikrincə, partiyalar öz inkişafında 3 əsas mərhələdən keçib: 1) Aristokratik qruplaşmalar antik dövrdə qədim Roma və Yunanistanda mövcud olmuş, orta əsrlərdə İngiltərədə geniş yayılmışdır (viqilər və torilər). Orta əsrlərdə parlament çərçivəsində fəaliyyət göstərən, əsas etibarilə dini əlamətinə, yaxud bir-birilə rəqabət aparan kral sülaləsinə mənsubiyyətinə əsasən, bir-birindən fərqlənən seçki komitələri kimi təzahür edirlər. Seçki kompaniyası üçün pul yığır, yerli nobilitet (zadəganlar, əyanlar) tərəfindən namizədlərə yardım edilməsini təmin edir.

XVIII-XIX əsrlərdə siyasi klublar yarandı. Siyasi klubların sosial bazası daha geniş idi, onlara artıq siyasi fəaliyyət meydanına atılmış burjuaziyanın, şəhərlərin orta təbəqələrinin nümayəndələri daxil olurdular.

XX əsrin əvvəllərində Avropada ilk siyasi partiyalar yarandı. Tərkibinin kütləviliyi seçicilərə təsir göstərmək üçün mübarizə və böyük təsir vasitələri ilə onlar siyasi klublardan fərqlənirlər. Partiyaların yaranması vətəndaş cəmiyyətinin və insanların siyasi şüurunun inkişaf etməsinin nəticəsi olmuşdur. Partiyaların tarixi təkamülü elitar partiyaların kütləvi partiyalara çevrilməsi istiqamətində getmişdir. **Partiyaların yaranma üsulları:** Ümumilli seçkilər nəticəsində Parlament Partiyası yaranır. Hər hansı bir siyasi partiya qanunvericiliyin müəyyən etdiyi sayda deputat mandatına sahib olursa, onda o parlament partiyası olur.

**Kommunist partiyası** sosial demokratların qalıqlarından və yaxud qeyri-leqal şəraitdə fəaliyyət göstərən sui-qəsdçi qruplardan yaranır.

**Leyborist partiyası** həmkarlar ittifaqlarının fəaliyyəti nəticəsində yaranıb. İngilis alimi **Byork** partiyaya belə tərif verib: Ümumi prinsipləri rəhbər tutan və birgə səylərlə milli mənafeləri təmin etmək üçün birləşən adamlar qrupudur.

**Konstan** – partiya eyni siyasi doktrinaların ardınca gedən adamlar yığıncağıdır.

ABŞ alimi **Palombara** siyasi partiyaların aşağıdakı ünsürlərini göstərib: **1)** İstənilən partiya hər şeydən əvvəl müəyyən ideologiyanın ən azı dünyaya və insana xüsusi baxışın daşıyıcısıdır; **2)** Partiya siyasətin müxtəlif səviyyələrində insnaların kifayət qədər uzunmüddətli birliyi, təşkilatıdır; **3)** Partiyanın məqsədi hakimiyyəti ələ almaq və onu həyata keçirtməkdir. Çoxpartiyalı sistemdə bir partiya hakimiyyəti ələ ala bilmir; **4)** Hər bir partiya xalqı öz tərəfinə çəkir. Bu barədə bəzi partiyalar kilsəni xatırladır. **R.Debre** demişdir: "Kilsə Allahın partiyasıdır".

Partiyaların 3 başlıca əlaməti vardır: **1)** Cəmiyyətin digər üzvləri ilə münasibətdə müəyyən adamlar qrupunun ayrılması; **2)** Həmin qrupu birləşdirən təşkilatın olması; **3)** Qrupun cəmiyyətdən ayrılması ideya platforması əsasında ola bilər, təşkilat isə həmişə siyasi xarakter daşıyır.

Partiyalar həmişə hakimiyyətə sahib olmağa can atır və bunun üçün məhz siyasi vasitələrdən istifadə edirlər.

**Partiya** – hakimiyyəti ələ almaq, yaxud hakimiyyətdə iştirak etmək məqsədilə müəyyən ideyaların və liderin fəal tərəfdarlarının birləşdiyi məqsədyönlü və mütəşəkkil qrupdur.

## Partiyaların təsnifatı və funksiyaları

XVIII əsrin ortalarında partiyaların ilk təsnifatını Yum verib: **1)** Ümumi mənafe zəminində mənafe partiyaları; **2)** Liderə bağlılığa görə affekt partiyaları; **3)** Ümumi prinsiplər əsasında yaranan prinsip partiyaları.

Müasir politologiyada partiyanın təsnifatını Dyuverje "Siyasi Partiya" əsərində verib:

I. **Binar partiyalar** (latın dilində "ikili" deməkdir) təsnifatına kadr və kütləvi partiyalar daxildir. Kadr partiyaları aşağıdakı elektoral komitələrin və yuxarılardakı parlament qruplarının təkamülünün məhsuludur. Deməli, bütün bunlar notabl (cəmiyyətdəki vəziyyəti onlara siyasi həyatda nüfuzu təmin edən adamlar) partiyalar.

Kütləvi partiyalar ümumi seçki hüququnun məhsuludurlar. **Dyuverje** bu 2 partiya növünü daxili strukturuna, vətəndaşı partiyaya bağlayan əlaqələrinin tipinə görə fərqləndirir. 3 əsas konsentvik dairə görür: **1)** Partiyanı özü üçün həyatın mənası, kilsə kimi hesab edən fəallar dairəsi; **2)** Partiyanı özü üçün təşkilat hesab edən partiya üzvləri dairəsi; **3)** Tək-tək hallarda mitinqlərdə iştirak etməklə və partiyanın namizədlərinə səs verməklə kifayətlənən təəsübkeşlər və seçicilər dairəsi. Dyuverje bilavasitə bir partiya növünü də göstərir (Britaniyada leyborist partiya belə partiyalardandır). **Koenin** təsnifatı: **1)** Siyasi avanqard partiya; **2)** Seçki kompaniyasında iştirak etmək üçün yaradılan partiya; **3)** Parlament partiyası; **4)** İcma partiyası.

**Partiyaların ümumi təsnifatı: 1)** Sinfi əlamətinə görə: sinfi, siniflərarası partiyalar, sosial qrupların partiyaları; **2)** Təşkilati strukturuna görə: kadr partiyaları və kütləvi partiyalar. Bu əlamətə bəzən "sərbəst üzvlüyü" olan partiyalar da daxildir; **3)** Siyasi sistemdəki yerinə görə: leqal və qeyri-leqal; **4)** İdeoloji əlamətinə görə: inqilabçı, islahatçı, mürtəce, mühafizəkar.

**Partiya rəhbərliyi təsisatına görə: 1)** Kollektiv rəhbərliyi olan; **2)** Lider başda olmaqla kollektiv rəhbərliyi olan; **3)** Harişmalı partiyaları ayırmaq olar.

Siyasi elmdə totalitar və demokratik partiyalar da vardır.

Totalitar partiya – partiya üzvlüyünü rəsmiləşdirən, ciddi intizamı olan, heç bir funksiyası olmayan, fikir ayrılığına, azlıq və çoxluq bölgüsünə yol verməyən, öz fəaliyyətində ideoloji amilə böyük əhəmiyyət verən partiyadaxili həyatıdır.

**II. Partiyanın cəmiyyətə münasibəti:** siyasi hakimiyyət uğrunda mübarizə apararkən mövcud quruluşdan narazı olanları birləşdirən, hakimiyyətə gəldikdən sonra başqa partiyaları ləğv edən, bütün sinifləri

və qrupları öz məqsədlərinə tabe etməyə can atırlar.

**III. Dövlətin partiyaya tabe etdirilməsi.**

**Partiyaların funksiyaları**

1. Cəmiyyətdəki müəyyən sosial qrupun siyasi maraq və mənafelərinin ifadə olunması;
2. Siyasi hakimiyyət uğrunda mübarizə, onun idarə olunması və nəzarət;
3. Böyük sosial qrupların aktivləşməsi və inteqrasiyası;
4. Partiya ideologiyasının işlənməsi, təbliğatın qurulması və aparılması; ictimai rəyin formalaşması, yönləndirilməsi;
5. Vətəndaşların siyasi maarifləndirilməsi;
6. Siyasi elitanın hazırlanması və partiya, cəmiyyət dövlət işlərinə səfərbər olması;
7. Partiyaya yeni üzvlərin cəlb olunması;
8. Partiyaların özünümaliyyələşdirmə işinin təşkili, maliyyə vəsaitlərinin və mənbələrinin tapılması;
9. İnformasiya və kommunikasiya işinin təşkili.

**Siyasi partiyaların əsas əlamətləri:**

1. Sosial bazanın mövcudluğu;
2. Sənədləşdirilmiş üzvlər;
3. Partiya orqanlarını və təşkilatlarını birləşdirən daxili struktur;
4. Üzvlərin və ona rəqabət bəsləyənlərin öz hərəkət və tələblərinin müdafiəsinə səfərbər etmək imkanlarının mövcudluğu;
5. Partiyanı milli, regional və yerli səviyyədə təmsil edən siyasi liderlər, dövlət xadimləri qrupu.
6. Proqram sənədlərində və seçkiqabağı platformalarda partiya ideologiyasının və siyasi xəttin əks olunması;
7. Nizamnamə ilə tənzimlənən daxili intizam normaları;
8. Xüsusi maliyyə və material bazası.

## Partiya sistemləri

İctimai quruluşun xarakterindən, sosial, iqtisadi, mənəvi və ən başlıcası siyasi inkişaf səviyyəsindən demokratik ənənələrin möhkəmliyindən asılı olaraq siyasi sistemdə fəaliyyət göstərən partiyalar müəyyən sistem əmələ gətirir.

Partiya sistemi dedikdə, müxtəlif partiyaların bir-birilə və dövlətlə sabit davamlı əlaqə və münasibətləri sistemi başa düşülür. Partiya sistemlərinin təsnifatının bir sıra metodları vardır:

1. Partiya sistemlərini bu sistemə daxil olan partiyaların kəmiyyət tərkibinə əsasən təsnif etməkdir: **təkpartiyalı** (rəqabətsiz) və **çoxpartiyalı** (rəqabətə əsaslanan).
2. Partiyaların sayına görə təsnif edilməsi lakin, partiyaların həqiqi mahiyyətini açmır.
3. Sartorinin partiyaların ideya distansiyalarına əsaslanır. Onun birpartiyalı partiya sistemi ilə "atomlaşmış" partiya sistemləri arasında 7 partiya sistemləri tipi vardır. Buraya "hegemon partiyalar", "üstün rol oynayan partiyalar", "ikipartiyalı", "məhdud plyuralizm", "radikal plyuralizm" və s. daxildir.

Partiyaların keyfiyyət müəyyənliyi əsasında təsnifatı – demokratik, totalitar, avtoritar.

**Demokratik partiya sisteminin əlamətləri:** cəmiyyətdə hakimiyyət uğrunda daim leqal mübarizə aparılır, hakimiyyətin mənbəyi ümumi xalq seçkiləridir, hakimiyyət parlament əksəriyyəti olan partiya, yaxud partiyalar qrupu tərəfindən həyata keçirilir, leqal müxalifət mövcuddur.

**Demokratik partiya sistemləri** - çərçivəsində ikipartiyalı, çoxpartiyalı və iki yarım partiya sistemləri vardır. Iki yarım partiya sistemi adətən ikipartiyalılıq və çoxpartiyalılıq arasında keçid variantı kimi çıxış edir. əgər iki əsas partiya ilə yanaşı üçüncü partiya da ortaya çıxarsa, onda o həmin partiyaların birinin qələbəsini və deməli, həm də hökümət koalisiyasının konturlarını müəyyən edir.

**Totalitar partiya sistemləri -** yalnız bir partiya leqal fəaliyyət göstərir, partiya dövlətin fövqündə durur, o cəmiyyətdə baş verən bütün dəyişikliklərin aparıcı qüvvəsi olur, ilkin və hakim rol oynayır, partiya aparatı dövlət aparatı ilə sıx bağlıdır, dövlət aparatını sıxışdırır və onu əvəz edirlər, partiya və dövlət rəhbərlə ierarxik tabelik prinsipləri əsasında təşkil olunur.

**Avtoritar partiya sistemi** – həm doktrinada, həm də siyasi praktikada hakim amil kimi dövlət əsas götürülür, dövlət onu öz rəhbərliyinin idarəetmə bazasını genişləndirmək məqsədi ilə yaradır, o hakimiyyətin həyata keçirilməsində iki dərəcəli rol oynayır. Burada başqa partiyalarda mövcud ola bilər, lakin məhdud dairədə fəaliyyət göstərə bilər.

**Sosialist partiya sistemləri** – çox hegemon partiya hesab olunur. Burada mövcud olan digər partiyalar onun aparıcı rolunu qəbul edir,

sosializm qurmağı ali məqsəd kimi qarşıya qoyur. Demokratik partiya sisteminə xas olan demokratik prinsiplər burada qərar tapa bilməmişdir.

# XI. DEMOKRATİYA: ƏSAS TƏSİSATLAR

## Sosial hadisə kimi demokratiyanın mahiyyəti

Demokratiya yunan mənşəli söz olub, 2 sözün - demos – xalq və kratos – hakimiyyət birləşməsindən yaranıb. Demokratiya anlayışı bəşəriyyətə 2500 ildən artıq tanışdır. İlk dəfə bu anlayışı Fukudidi işlədib, " xalq hakimmiyəti" mənasındadır. Qədim yunanlarda demokratiya dövləti idarə etməyin xüsusi forması kimi, müasir dövrdə çoxşaxəli hadisə kimi işlənir. Bu sözün etimologiyasına əsasən demokrotiya xalq hakimyyətinə əsaslanan dövlət quruluşu forması kimi başa düşülür, lakin yalnız dövlət formasına aid edilmir, o daha geniş hüdudlara və məna çalarlarına malikdir. Demokratiya bütövlükdə cəmiyyətin, cəmiyyətlə vətəndaşların müəyyən dəyərlər sisteminə və dünya görüşnə əsaslanan ictimai quruluşu, habelə insanların ierarxik (şaquli) şəxsiyyətlər arası münasibətlərini tənzimləyən norma və prinsiplərin məcmusu başa düşülür.

Demokratiya ideyasını əsasını insanların azadlığı və bərabərliyi kimi sosial-siyasi dəyərlərin dərk edilməsi və zəruruliyinin qiymətləndirilməsi təşkil edir.

Demokratiya ideyasını ilk irəli sürənlərdən biri Herodot, onu bərabərliyə əsaslanan dövlət adlandırmışdır ki, buna da izanomiya deyilirdi.

Demokratiya quldarlıq dövründə yaranmışdır, ancaq qullara şamil edilməmişdi.

Demokratiyanı səciyyələndirən ən əsas kefiyyətlərdən biri onun çoxluğun hakimyyətə əsaslanan quruluş olmasıdır.

Fukudidi deyirdi: "Bu quruluş vətəndaşların çoxluğuna əsaslanır.

Hobbsun fikrincə demokratiya ele dövlət fomasıdır ki, ali hakimiyyət bütün vətəndaşlara məxsusdur.

Monteskyenin fikrincə əgər respublikada hakimiyyət xalqa məxsusdursa onda bu demokratiyadır. Demokratiya xalq suverənliyi ilə eynidir.

Dövlət idarəçiliyi forması olmaq etibarı ilə demokratiyanın bir sıra səciyyəvi əlamətləri vardır;

1. Xalqın suverenliyinin, hakimiyyətinin hüququ cəhətdən tanınması və təsrifatlanmış şəkildə ifadə olunmasıdır. Xalqın suverənliyi ondan ibarətdir ki, məhz xalq hakimiyyəti formalaşdırır, yəni dövlət hakimiyyətini təsis etmək onun səlahiyyətidir.

2. Əsas dövlət orqanlarının seçkili olması,

3. Dövlətin idarə olunmasında vətəndaşların hüquq bərabərliyi,. Bu prinsipin tələbi öz ifadəsini seçki hüququnun ədalətliyində tapır. Demokratik cəmiyyətdə vətəndaşlar həm seçməkdə, həm də seçilməkdə tam bərabər hüquqlara malikdirlər.

4. Qərarların çoxluq tərəfindən qəbul edilməsi, çünki demokratiya çoxluğun hakimiyyətidir.

Demokratiyanın geniş yayılması vətəndaş cəmiyyətin inkişafına dəlalət edir. Vətəndaşların müxtəlif siyasi partiyalarda birləşməsi, təzyiq qrupları yaratması yolu ilə hakimiyyətə təsir göstərməsi vasitəsi ilə cəmiyyətdə yaranmış, problemlərin həlli demokratiyanın başlıca prinsipidir.

Vətəndaşların birləşdiyi qruplar, birliklər və ittifaqlar onların hüquq və azadlıqlarını müdafiəsini təmin edirlər. Vətəndaşla mərkəzi hakimiyyət arasında vasitə funksiyasını yerinə yetirirlər. Şumpeter müasir demokratiya nəzəriyyəsnə əsaslanaraq demokratiyanı konkret fərdlərin, liderlərin xalqın səsvermədə etimadını qazanmaq uğrunda rəqabətinə əsaslanan idarəetmə forması kimi qiymətləndirir.

## Demokratiya formasını tarixi təkamülü.

Demokratiyanın tarixi inkişafının aşağıdakı sxemini təqdim etmək olar;

1. İbtidai demokratiya birbaşa demokratiya,
2. Hərbi demokratiya,
3. Antik demokratiya – birbaşa demokratiya, kollektivçi, çoxluğun demokratiya,
4. Yeni dövrün klassik demokratiyası,
5. Müasir demokratiya.

İbtidai demokratiya birbaşa (bilavasitə) demokratiyanın ilk tarixi forması olub.

Bütün xalqlar və millətləribtidai demokrataya mərhələsindən keçiblər. Demokratiyanın məhz bu tarixi forması, digər demokratik idarəçilik təsisaflarının yaranması üçün ilkin başlanğıc olub.

İcma cəmiyyətində demokratiyanın inkişafı onun təşkili xüsusiyyətləri ilə əlaqədar olub, torpaq üzərində kollektiv mülkiyyət və izafi məhsulun qeyri – mümkünlüyü qəbilə üzvləri arasında bərabərliyi obyektiv zəruriyyətə çevrilmişdi. Bu bərabərlik sadəcə maddi imkanlar bərabərliyi deyil, həm də icma üzvi kimi hər bir fərdin hüquq və

vəzifələrini bərabərliyi kimi təzahür edirdi. Kollektiv idarəçilik əsaslarını formalaşmasının mümkünlüyü həmin bərabərlikdən irəli gəlir.

İcma münasibətinin təkamülü nəticəsində hərbi demokratiya meydanına gəldi. Cəmiyyətdə idarəçiliyin funksiyalarını hərbi hissələr, drujinalar yerinə yetirirdi. Durujinalar həm xarici, həm də daxili məsələlərin həll edilməsi məqsədlərinə xidmət göstərirdi. Qədim Romada ilk demokratik quruluş hərbi olub. Qoşunun rolu artdı, hərbi başçı tədricən ümumi qəbilə məsələlərinin həll edilməsində aparıcı simaya çevrildi. Bu demokratiya formasına bəzən “başçılıq”demokratiya formasıda deyirlər. Adi icma üzvləri tədricən qəbilə işlərinin idarə edilməsindən kənarlaşdırılırdılar. Qəbilə şürasında başçılar, qoşun rəisləri, qəbilənin müqəddəs ibadət yerlərinin mühavizəçiləri, xüsusi nüfuz sahibləri olan döyüşçülər iştirak edirdilər.

1. Nəsillərin və ailələrin tədricən əmlak və sosial təbəqələşməsi,
2. Xüsusi mülkiyyətə keçmə,
3. İdarəetmə orqanları yaranır,
4. Qonşu tayfalar arasında ziddiyyətlər yaranır,
5. Hərbi əsirlər qula çevrilirlər,
6. Tayfalar arası ittifaqlar yaranır,
7. Şəxsi hakimiyyətin ilk rüşeymləri yaranır.

Demokratik dövlətin formalaşması e.ə. V əsrdə meydana gəlmiş Afina respublikası hesab olunur. Antik demokratiyanın klassik nümunəsi Afina demokratiyasıdır. Qullar istisna olmaqla şəhərin bütün vətəndaşları ümumi bərabərlik və şəxsi azadlıq ideyası afinalılar arasında aristokratların hakimiyyətinin doğurduğu yoxsulluq və istibdada qarşı cavab reaksiyası kimi yayılmağa başlamışdır.

E.ə. 594-cü ildə Afinanın ilk orxontu seçilən Solon bir sıra mühüm islahatlar verdi və bununlada Qədim Yunanıstanda antik demokratiyanın qərarlaşmasına yol açdı. O, vətəndaşların siyasi hüquqlardan istifadə etməsinə əmlak senzi qoymaqla onların dövlət işlərində iştirakına münasibətdə qeyri-bərabərliyini qanuniləşdirdi. Afina vətəndaşları 4 dərəcəyə bölündülər; 1) orxontlar, 2) məmurlar və hakim, 3) dördyüzlər şurasına üzv seçilə bilənlər, 4) Fetlər vəzifə tuta bilməzlər, lakin xalq yığınacaqlarında, səs vermək və məhkəmə iclasçısı olmaq hüuqlarına malik idilər. Ən yüksək vergini orxontlar verir, Fetlər isə vergidən azad idilər. Solonun islahatları sayəsində Afinada hökümdarların seçılməsi və xalq tərəfindən nəzarət edilməsi ideyası inkişaf etməyə başlamışdı.

Lakin Afina demokratiyasının çiçəklənməsi Periklin adı ilə bağlıdı. (e.ə. 443-423cü illər). Siyasi hüquqları öz əlində topladı. Ona görə də

Fikudidi deyirdi; “Sözdə bu demokratiya adlanmrdı, əslində isə hakimiyyət bir adamın əlində toplamışdı. Perkl əmlak senzini ləğv etdi, vəzifələrə seçilmə zamanı səsvermə püşk yolu ilə əvəz olundu, dövlət vəzifələrinin icrasına görə məvacib verilməyə başlandı.

Antik demokratiyanın digər əksi öz ifadəsini qədim Roma dövlətində tapmışdir. Roma demokratiyası demosun aristokrafiya ilə mübarizəsinin kəskin xaraktek daşımasının nəticəsi idi. Bu mübarizə sayəsində e.ə. 494-cü ildə Plebey (xalq) tribunaları magistiriliyi institutu yarandı. E.ə. 471-ci ildə isə qanunvericilik səlahiyyətlərinə malik olan plebey yığıncaqları təsis edildi. Siyasi həyatda tribunaların rolu getdikcə möhkəmlənirdi, onlar toxunulmaz şəxsiyyət hesab olunurdu. Onlar konsulların sərəncamlarını, senatın qərarlarını, qanun layihələrini dayandıran veto hüququna malik idilər.

Antik demkratiyanın əsas əlamətləri; o birbaşa demokratiyadır, kollektivçi demokratiyadır, çoxluğun demokratiyasıdır. Bu demokratiya tədricən çoxluğun despotiyasına meydan verirdi.

Antik dövrün mütəffikirləri Platon və Aristotel demokratiyanı alqışlamamış onu oxlokratiya adlandırırdılar.

Orta əsrlərdə demokratiya ifadəsi leksikondan çıxarıldı.

Yeni dövrün demokratiyası əsasən Liberalizm təsiri altında formalaşdı. Liberalizm fərdin cəmiyyətdən və dövlətdən ayrılmasına dövlətin mülkü cəmiyyət və vətəndaşla qarşılıqlı münasibətlərdə qanunla səlahiyyətlərinin məhdudlaşdırılmasına, azlığın hüquqlarının müdafiə edilməsinə, bütün insanların siyasi cəhətdən bərabərliyinin bəyan edilməsinə və s. əsaslanır. Liberalizm prinsipləri ilk dəfə İngiltərə siyasi sistemində öz əksini tapmışdır. Monarx hakimiyyətinin məhdudlaşdırılmasına yönəldilmiş liberlaşdırma 1215-ci ildə Azadlığın Böyük Xartiyasının qəbulu ilə nəticələndi. Bununla da Liberal demokratiyanın reallaşması həyata keçirildi.

Liberal demokratiyanı əsas cəhətləri;

1) Hakimiyyətin subyekti kimi xalqın mülkiyyət sahibləri ilə eyniləşdirilməsi,
2) Şəxsiyyətin muxtariyyətinə üstünlük verilməsi,
3) Dövlətin səlahiyyətlərinin və ictimai asayişin qorunması,
4) Hakimiyyətin demokratikləşdirilməsi və tarazlaşdırılması mexanizimin yaradılması.

Yeni dövrün demokratiya nəzəriyyəsi xalqın bütövlüyü, tamlıq prinsipi monteskye və Lokktərəfindən işlənib hazırlanmışdır.

J.J.Russo ilk dəfə demokratiya təlimində suverenlik prinsipinə xüsusi

yer ayırmış və onu demokratiyanın əsas müddəası hesab etmişdir. Şumpeter onun fikirlərini tənqid etmiş və öz nəzəriyyəsini irəli sürmüşdür. Onun fikrincə,demokratiya xalqın idarəçiliyi ola bilməz,xalq yalnız hökuməti seçə bilər.

Şumpeter demokratiyanın normal fəaliyyəti üçün aşağıdakıları göstərmişdi.

1. Dövlət vəzifələrinə seçilmək üçün xalqın layiqli nümayəndələri olmalıdır.
2. Xalqın başa düşə biləcəyi qərarlar qəbul edilməlidir.
3. İdarəçilik işi yüksək məsuliyyətli bürokratiyaya həvalə edilməlidir.

**Müasir demokratiya nəzəriyyələri**

Pluralist nəzəriyyəyə əsasən demokratiya ictimai qrupu oz mənafeyini ifadə etməyə rərəqabət mübarizəsində onların qüvvələr nisbətini əks etdirən kompramisk qərarlar qəbul etməyə imkan yaradan idarəçilik forması kimi qavranılır.

Pluralist demokratiyanın başlıca prinsipləri;

1. Mənafe qrupu demokratik prosesin və siyasi sistemin başlıca ünsürü rolunda çıxış edir. Şəxsiyyətin mənafelərinin, hüquq və azadlıqlarını həyata keçirilməsi mənafe qruplarının yaradılması və səmərəli fəaliyyəti ilə bağlıdır. Şəxsiyyətin rolu siyasi prosesdə arxa plana keçir.
2. Müxtəlif mənafe qruplarının rəqabət və münaqişə xarakterli qarşılıqlı fəaliyyəti nəticəsində ümumi iradə formalaşır.
3. Demokratik hakimiyyətin sosial əsasının və gücünün mənafe qrupları arasında rəqabət və qüvvələr balansı təşkil edir.
4. Siyasi sistemdə və bütünlükdə cəmiyyətdə tarazlaşdırma mexnizminin yaradılması .
5. Bütövlükdə ictimai sistemin normal fəaliyyətinin təmin edilməsi,cəmiyyətdə sosial ahəngdarlığın yaradılması prosesində dövlətin rolunun artırılması.
6. Siyasi-iqtisadi və digər hakimiyyətin dövlət, partiyalar, mənafe qrupları kimi s. nüfuz mənbələri arasında paylanması .
7. Mənafe qruplarının daxili təşkıli demokratik prinsiplərin əsaslanması, qrupun onu təşkil edən üzvlərin mənafelərinə adekvat şəkildə təmsil edə bilmək imkanlarına malik olması.

Reprezentiv demokratiya nəzəriyyəsi demokratik prosesin

iştirakçılarının dairəsini məhdudlaşdırır. Lakin bu xalqın oz nəzarəti altında baş verir, seçkilər institutu vasitəsi ilə əhali ümumi rəyin ifadə olunmasının təmsilçələrə verilməsi prosesinə nəzarət edir. Xalqla onun təmsilçiləri arasında 2-lərin 1-ci lərdən müəyyən asılılığına əsaslanan spesifik qarşılıqlı münasibətlər formalaşır.

Reprezentiv demokratiyaya əsasən parlament demokratiyası şəklində təzahür edir. Onun növ müxtəlifliyi elitar demokratiya hesab olunur. Bu nəzəriyyə xalqın demokratik prosesdən kənar edilməsinə əsaslanır. Elitaristlərin fikrincə,cəmiyyətdə siyasi qərarların məhdud peşəkar qrup tərəfindən qəbul edilməsi obyektiv zərurətdir.

Elitar demokratiyada 2 cərəyan vardır. 1-si belə müddəaya əsasən demokratiyanı xalqdan qorumaq lazımdır. Çünki, xalq düzgün qərarlar qəbul etməyə qadir deyil vüffə demomoqların təsiri altına düşür. Məs. Almaniyada 20-30- cu illərdə faşizm rejiminin qələbəsi.

2-ci cərəyana görə hər bir cəmiyyətdə iearxik strukturlar yaranması obyektiv zəruriyyətdir. İctimai sistem müxtəlif elita qrupları, iqtisadi, siyasi, hərbi, maliyə elitaları yaradır və onlar cəmiyyətin ayrı-ayrı sferalarının idarə olunması funksiyasını yerinə yetirir.

20-ci əsrin ortalarından etibarən yeni bir demokratiya nəzəriyyəsinin – partisipar demokratiyanın meydana gəlməsi ilə nəticələndi.

Partisipar demokratiya nəzəriyyəsi insanın rasional varlıq olduğunu iddia etməklə onun düzgün və səmərəli qərarlar qəbul edə bilmək imkanlarına inam ifadə edir.

Partisipar demokratiyanın tərəfdarları demokratiyanın xalq hakimiyyəti ideyasına maksimum uyğunlaşmasına əsasən dövlət idarəçiliyi və ictimai quruluş forması yaradılması təklifini irəli sürürlər. Bu demokratiyanın neqativ cəhəti odur ki, cəmiyyətin kütləvi şəkildə siyasiləşməsi totolitarizm mövqelərinə yuvarlanması təhlükəsi yaradır.

## Demokratiyanın müasir prinsipləri və normaları.Demokratiyanın formaları. İnsan hüquqları və azadlıqları

Onun prinsipi qanunun aliliyini rəhbər tutulması və pluralizm yolu ilə dövlətin idarə edilməsi;

1. Hakimiyyətin bölüşdürülməsi,
2. çoxpartiyaliliq sisteminə şərait yaratmaq prinsip,
3. Mərkəzçılikdən qaçmaq prinsipi,
4. söz və məybuat azadlığı,

5. çoxluğun idarə edilməsi. Burada xalq suverenliyi əsas ideyadır.
6. Əsas prinsiplərdən biri insanın qanun üçün deyil, qanunun insan üçün mövcudluğudur. Başqa sözlə desək demokratiyanın məqsədi insanın özüdür, onun prinsipləri isə fəaliyyətlə bilavastə rəhbərlikdən ibarətdir. Mühüm demokratiyanın prinsiplərindən biri də cəmiyyətin siyasi həyatında vətəndaşların azadlırqları və məsuliyyətlərinin qarşılıqlı vəhdətidir: şəxsiyyətin azad, şüurlu və könüllü surətdə obyektiv zərurəti qəbul etməyə hazır olması və bu istiqamətdə hərəkət etməsidir. Cəmiyyətin sosial-siyasi həyatında demokrtaik prinsiplərə riayət edilməsinin ən mühüm meyarı ictimai rəyin nəzərə alınmasıdır. Demokratik prinsiplərin başlıca üstünlüklərindən biri onların açıq-aşkar olmasındadır.Demokratik tərəqqinin olmasında siyasi həyatda aşkarlığın olması və onun inkişafının xüsusi xidməti vardır. Aşkarlıq – dövlət və ictimai təşkilatların fəaliyyətində açıqlıq və düzgünlük cəmiyyətin əsas problemlərinin demokratik həllində ictimai rəyin təsirli və fəal formasıdır.Tənqid üçün bağlı zonaların olmaması, geniş diskusiyaların keçirilməsi aşkarlıq şəraitinin ünsürləridir.

# XII. PARLAMENT. SEÇKİ

## Parlamentin meydana gəlməsi və tarixi təkamülü

Parlament fransız sözü olub (danışmaq demıkdir) qanunverici hakimiyyət orqanıdır.Onun meydana gəlməsi hakimiyyətin demokratikləşməsi uğrunda aparılan mubarizənin nəticəsidir.O həm də təmsilçi orqandır.Parlament tarixdə ilk dəfə XIII əsrdə İngiltərədə nümayəndəli hakimiyyət orqanı kimi meydana gəlib.Müasir dövrdə başa düşdüyümüz parlament burjua inqilabından sonra XVII-XVIII əsrdən mövcuddur.Parlament ayrı-ayrı ölkələrdə müxtəlif cür işlədilir. İsraildə Knesset, Finlandiyada Seym, Norveçdə Stortinq, Rusiya Duma, Türkiyədə Böyük Məclis, Az-da Milli Məclis, İngiltərə,Hindistan və Kanadada Parlament. Nümayəndəli hakimiyyət orqanı kimi ilk parlament 1265-ci ildə İngiltərədə meydana gəlib,bu vaxta qədər Fransada məhkəmələr parlament adlanırdı. XIII əsrdə kral hakimiyyətdən narazı olan bütün təbəqələri – cəngavərləri, şəhər əhalisini və s. ətrafında birləşdirərək mərkəzi idarəçilik sistemində öz mövqeyini möhkəmləndirmək uğrunda mübarizəyə girişdilər.Kral hakimiyyəti ilə adları çəkilən təbəqələr arasında hərbi münaqişə 1215-ci ildən azadlığın böyük xartiyasının imzalanması ilə nəticələndi. 59 maddədən ibarət olan bu sənədin imzalanması ilə kral öz tələbələri ilə münasibətlərini yeni şəkildə tənzimlənməsi məqsədini güdürdü və bu sənəd İngilis Paralamentinin meydana gəlməsinin əsasını qoydu.İngilis parlamentinin formalaşmasında ikinci mühüm mərhələ 1258-1267-ci illər münaqişəsi hesab olunur.III Henrix azadlığın böyük xartiyasının maddələrinə məhəl qoymadı.Bu da İngilis əhalisinin yenidən mübarizəyə qaldırdı. 1258-ci ildə baronlarla kral arasında müqavilə imzalandı. Müqaviləyə əsasən bütün hakimiyyət 15 barondan ibarət şuraya verildi. Çura kralın fəaliyyətinə nəzarət edir, yüksək vəzifəli məmurları vəzifəyə təyin edir və vəzifədən azad edirdi. İldə 3 dəfə parlament çağırılırdı. İngilis Parlamenti qəti formalaşması 1297-ci ildə 1215-ci ildə Azadlığın Böyük Xartiyasın təsdiq edən müqvilə bağlandı. 14-cü əsrdə İngiltərə Parlamenti 2 palataya, yəni lordlar və nümayəndələr palatasına bölündü. Xalq təmsilçilərindən ibarət olan nümayəndələr palatanın təsis edilməsi ilə parlament həqiqi nümayəndəli demokratiya orqanına çevrildi. Kral öz səlahiyyətlərini qoruyub saxladı. Baronlar xalqın daha çox hakimiyyətə qarşı çıxmasından çəkinərək kralla kompromisə getdilər. Lordlar palatasının tərkibində din xadimləri,

baronlar idi. Nümayəndələr palatasını isə cəngavərlər və şəhərlilər təşkil edirdi. Lordlar palatası böyük səlahiyyətlərə malik idilər. Nümayəndələr palatası isə yox. 15-ci yüzilliyin əvvəllərində uzun mübarizədən sonra nümayəndələr palatası vergiqoyma qanun lahiyələrinin hazırlamaq səlahiyyətlərini öz əllərinə keçirdilər. Fransada da silki nümayəndəli idarələr meydana gəldi və onları Baş Ştatlar adlandırdılar. İlk dəfə B.Ş. 1302-ci ildə çağırılıb, nəzarətçi orqan olduğu üçün real hakimiyyətə malik deyildilər. Avropada silki nümayəndəli orqanları ən qədimi İspaniyadakı Korteslər hesab olunur və bu sonradan İspaniyada parlamentin meydana gəlməsinin əsasını qoydu. Parlament ziddiyətli və mürəkkəb anlayış olduğundan onun mahiyyətini anlamaq üçün səlahiyyət və funksiyalarına nəzər salmaq lazımdır. Ayrı-ayrı ölkələrdə parlamentin səlahiyyətlərini 3 qrupa ayırmaq olar :

- Parlamentin səlahiyyətləri Konstitusiya ilə məhdudlaşdırılır.(ABŞ konstitusiyasını misal çəkmək olar)
- Parlamentlər qeyri-məhdud səlahiyyətlərə malikdir.Məsələn: İngiltərə,İtaliya
- Parlamentlərin səlahiyyətləri vahid prinsiplə müəyyən edilir.(Hindistan)

Müasir dövrdə parlamentlər dövlətin ali orqani olub, xalqın suveren iradəsini ifadə edir.Parlament mühüm ictimai münasibətlərin qanunların qəbul edilməsi yolu ilə tənzimləyir dövlət büdcəsinin təsdiqi və ona nəzarəti həyata keçirir. Icra hakimiyyət orqanlarının və ali şəxslərin fəaliyyətinə nəzarət edir. Parlamentin iclasları açıq və qapalı olur.

Qapalı iclaslarda yalnız parlament üzvləri və xüsusi dəvət olunmuş uzvlər iştirak edə bilərlər;

Parlamentdə qanun yaratma prossesi çox mühümdür. Qanunvericilik prossesi bir neçə mərhələdən ibarətdir:

Qanun lahiyyəsinin təqdim edilməsi, müzakirə olunması və qanunun qəbul edilməsi. Qanunların qəbul edilməsi parlamentin iclaslarında müəyyən səs şoxluğu ilə həyata keçirilir. Qanun qəbul edildikdən sonra ölkə başçısı tərəfindən imzalanması dərc olunması mərhələsi başlanır. Qanun dövlət başçısı tərəfindən etiraz olunarsa, o veto hüququndan istifadə edərək imzalamaya bilər.

## Parlamentin formaları, strukturu, funksiyaları

Parlamentin əsas məqsədi qanunlar qəbul etməsidir. Bu məqsədləri parlamentin müəyyən funksiyaları reallaşdırır. Parlment başlıca olaraq aşağıdakı funksiyalardan yerinə yetirir.

• Dövlət aparatında hakimiyyətin hər hansı orqanının yerinin qanunvericilik vasitəsilə müəyyən edilməsi;

• İdarəetmə orqanları ilə qanunverici hakimiyyət orqanları arasında qaşılıqlı münasibət;

• Dövlət rəhbərliyinin həyata keçirildiyi siyasətin nəticələrinin qanunverici hakimiyyət qarşısında hesabat;

• Qanunvericilik funksiyası;

• İcra hakimiyyəti orqanının formalaşdırılması

Parlamentin strukturuna görə formaları vardır ki, onları da 2 yerə ayırırlar: birpalatalı və ikipalatalı parlamentlər.

İkipalatalı parlamentin təşəkkül tapması əsasən yuxarı palatada aristokratiyanın təmsil olunmasıdır. Federativ dövlət quruluşunda ikipalatalı parlament fəaliyyət göstərir.(istisna unitar İtaliya,İngiltərə və s.)

Birpalatalı parlamentlər isə əsasən unitar dövlətlərə məxsusdur. Azərbaycan dövlətinə gəldikdə isə unitar dövlət olduğundan birpalatalı (MM) sistemə aiddir.

Parlamentin strukturu və formalarını təyin edən mühüm ünsür onun palatalarının sayıdır. Qanunverici orqanın palatalarının sayının müəyyənləşdirilməsini ölkənin siyasi quruluşundan,demokratik durumdan,tarixi ənənələrdən siyasi qüvvələrin nisbətindən və s. amillərdən asılıdı. 2 palatalı dövlətlərdə 1-ci palata bütünlükdə ölkənin, millətin təmsilçiliyi, prinsipi,2-ci palata isə fedarasiya subyeklərinin təmsilçilyi əsasında formalaşır.

Bəzi unitar dövlətdə 2- palata olur ki, bu da aristokratiyanın mənafelərin qorulması ilə əlaqədar olur. Burada yuxarı palata kral hakimiyyətinə qarşı təziqin azaldılması üçün yaradılır. Demokratik rejimdə bu səlahiyyətlər azalır.

Hal-hazırda 2 palatalı parlamenət üstünlük verən ölkələrdə əsas arqumentlər 1) qanunverici nə icraedici hakimiyyətlər arasında tarazlıq yaratmaq, 2) yuxarı palatanın “ nəzarət” funksiyası sayəsində bütünlükdə parlamentin fəaliyyətinin yüksək səmərəliliyinin təmin edilməsi. Məs. Norveç, İslandiya. Bəzi ölkələr iki palatalı parlamentdən təkpalatalı parlamentə keçirlər. Məs. (Danimarka, Yeni Zenlandiya, Monsembuq və s. yuxarı palata ləğv olunub.

Parlament fəaliyyətinin təşkilinin mühüm ünsürlərindən biri parlament üzvlərinin statusu ilə əlaqədardır, yəni onların toxunulmazlığıdır. Parlament üzvlərinin statusu onların hüquq və səlahiyyətləri dairəsinin müəyyənləşdirilməsidir. Bu ideya qədim tarixə malikdir. Parlament üzvlərinin toxunallığımız xalqın elçisi kimi onların yerinə yetirə bilmək üçün mühafizəkar, hökumətin təsir və təzyiqlərinə ehtiyat tədbiri funksiyasını yerinə yetirirdi. Müasir demokratik dövlətlər Konstiutsiyalarında deputat mandatının toxunulmazlığı onun cəmiyyət qarşısında məsuliyyətdən azad olması deyil, parlamentdə söylədiyi fikir və mühalizələrə görə habelə üzərinə düşən yerinə yetirmək zərurəti ilə ələqadar. Çıxışlarında, yazılarında ifadə etdiyi fikirlərə görə məsuliyyətə cəlb edilməsi yolverilməzliyi kimi müəyyənləşdirilir.

Məhz parlament xalqın suverən hüquqlarını və idarəsini qanunlar şəklində ifadə etmək səlahiyyətlərinə malikdir.

Parlamentin qanunvericilik funksiyası hakimiyyətin bölünməsi konsepsiyasına uyğun olaraq parlamentin qəbul etdiyi qanunlarla təhzim olunan və parlamentin iştirakı olmadan müvafiq hökumət qərarları ilə tənzim edilən məsələlərin dəqiq siyahısının müəyyən edilməsi əsasında həyata keçirilir.

- Parlament hökumətin fəaliyyətinə nəzarət etmək, ona təsir etmək vasitələrinə malikdir.
- Parlament demokratiyası rejimlərində xalqın nümayəndəli hakimiyyət orqanı habelə icra hakimiyyəti orqanını təyn etmək səlahiyyətlərinə malikdir.

Demokratik rejimlərdə parlamentin hökumətin fəaliyyətinə nəzarəti, büdcənin təsdiq edilməsi və büdcəyə nəzarət vasitəilə həyata keçirilir. Sonra hüquqi qüvvəyə minir. Büdcənin yaranmasının mühüm mənbəyi olan vergilərin müəyyənləşdirilməsi məsələsinə razılıq verir. Parlament idarəçiliyi sistemində qanunverici orqanın icra hakimiyyəti strukturlarının formalaşdırılmasında rolu xüsusidir. Bir sıra ölkələrdə həm prezidentin, həm də hökumətin seçilməsi parlamentin səlahiyyətlərinə daxildir. Monarxiya rejimi olan dövlətdə hökuməti parlament formalaşdırır. və o qanuverici orqan qarşısında məsuliyyət daşıyır.

Nazir və hökumət impiçment qaydası ilə istefaya göndərilə bilərparlament tərəfindən əgər onların fəaliyyəti parlament üzvlərinin əksəriyyəti tərəfindən qənaətbəxş hesab edilsə. 1242-ci ildə İngiltərədə tətbiq olunub. İcra hakimiyyəti də parlamenti buraxa bilər.

## Azərbaycan parlamentinin tarixi və müasir dövrü.

Azərbaycan Parlamentiunin tarixi XX əsrin əvvəllərində rus imperiyasında geden tarixi prosseslərə sıx bağlı olmuşdur. Rusiyada fevral inqilabından sonra Qafqazı idarə edən xüsusi Zaqafqaziya Komitəsi yaradıldı. Həmin komitə bütünlükdə Qafqazı ayrı-ayrı regionların şəhər və qəsəbələrin idarə etmək üçün seçkilər keçirərək xalq hakimiyyəti orqanları yaratdılar. Həmuin seçkilərin nəticəsində Azərbaycan milli komitəsi yaradıldı. 1917-ci il oktyabr ayında Rusiyada başç verən çevrilişdən sonra Zaqafqaziyanın Rusiya ilə əlaqəsi kəsildi. Buna görə də 1917-ci il noyabr ayında Xüsusi Kommitənin təşəbbüsi ilə Tiflisdə çağrılan müşavurədə Komitənin fəaliyyətinə xitam verildi. Zaqafqaziyadan Müəssisələr Məclisinə seçilmiş deputatlardan ibarət Zaqafqaziya Seymi təşkil edildi və olkənin idarə edilməsi ona tapşırıldı. Lakin, Zaqafqaziya Seymi və onun yaratdığı hökümət uzun ömürlü olmadı. Zaqafqaziya Seyminin 1918-ci il tarixli qərarında Türkiyə əraziləri hesabına Muxtar Ermənistan Respublikası yaradılması tələbi irəli sürülmüşdür. Türkiyə isə Brest Litovsk sülh müqaviləsinə əsasən Kars, Ərdahan və Batum vilayətlərinə iddia edirdi. Zaqafqaziyada sülh danışıqlarının gedişini 1918-ci ilin yazında Bakıda Şamaxıda və digər yerlərdə erməni-rus birləşmələrinin törrətdikləri müsəlman qırğınları xeyli çətinləşirdi. Qafqaz Seymini üzvləri arasında ciddi ixtilaflar güclənirdi və bunun əsasında 1918-ci il mayın 26-da Zaqafqaziya Seymi öz səlahiyyətlərinin bitdiyi haqqında qərar qəbul etdi. Gurcüstan fraksiyası olkəsinin istiqlaliyyətinin elan etdi. Seymin Azərbaycanlı deputatlarında ibarıt fraksiya dərhal özünü “ Azərbaycan Milli Şürası” elan edərək, 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın müstəqil dövlət elan edilməsi haqqda bəyanətlə çıxış etdi. Bu isə, Azərbaycan parlamentin ilk rüşeymi idi. Milli Şüraya daxil olan deputatlar ümumi seçki əsasında seçilmiş millət vəkilləri idi. Parlamentli idarə üsuluna əsasən hökümət yaratmaq funksiyasını parlament öz üzərinə götürmüşdü və yaradılan hökümətə Milli Şüranın üzvləri daxil edilmişdir. Milli Şuranın qərarı iə 1918-ci ildə Fətəli Xan Xoyskinin sədrliyi ilə ilk dəfə hökümət təşkil edildi. 1918-ci ilin noyabrnda Milli Şura Bakıda keçirilən iclasda 120 deputatdan ibarət parlament yaradılması qərarına gəlir və beləliklə 1918-ci il dekabrın 7-də Bakıda Azərbaycanın ilk Parlamentinin açılışı oldu. Parlament yaradıldıqdan sonra Fətəli Xan Xoyskinin rəhbərliyi ilə III hökümət formalışdı. 1919-cu ilin aprelində Nəsib bəy Yusifbəylinin sədrliyi ilə IV hökümət

yaradıldı və dekabrın 24-də V kabinə təsis edildi.

Azərbaycanın ilk Parlamenti 17 ay yaşadı. 1920-ci ilin aprelin 27-də Azərbaycan Demokratik Respublikasını süqutu ilə 70 il Azərbaycanda milli parlamentçilik təcrübəsinə fasilə verilməli oldu. SSRİ-nin süqutu sayəsində Azərbaycan Dövləti yenidən öz müstəqilliyinə qovuşdu.1991-ci ildə Azərbaycan SSRİ Ali Soveti öz səlahiyyətlərini 50 nəfər deputatın daxil olduğu Milli Məclisə verdi. Milli Məclis 25 nəfər İqtidardan və 25 nəfər Demokrat bloku təmsil edən deputatlardan təşkil edildi. Milli Məclis yenidən müstəqilliyə nail olmuş Azərbaycan Respublikasının ilk parlamenti hesab olunur. Azərbaycan Respublikasının 1995-ci ilin noyabrnda qebul olunan Konstitusiyası parlamentin təşkilinin yeni qaydalarını təsbit etdi. Azərbaycan Milli Məclisi 5 il müddətinə seçilmiş 125 millət vəkilinin daxil olduğu tək palatalı Parlamentdir. Ölkədə Qanuvericilik hakimiyyətinin həyata keçirən Milli Məclis dövlət büdcəsini təsdiq və ona nəzarət edir , Baş nazirin təyin edilməsinə razılıq verir, Azərbaycan Respublikasının Konstitutsiyanın Məhkəmsini Ali Məhkəməsini, İqtisad Məhkəməsini təyin edir. Nazirlər Kabinetinə etimad göstərilməsi məsələsinə baxır habelə, impiçment qaydasında prezidentin vəzifədən kənarlaşdırılmasını həyata keçirə bilər.

Azərbaycan Respublikasının parlamenti ölkədə qərarlaşmış idarə etmə sisteminə əsasən hakimiyyətin bölünməsi prinsipi əsasında fəaliyyət göstərir. Elə buna görə də İcra hakimiyyəti strukturlarına təsir göstərmək hüquqları məhduddur, deputatlar icra hakimiyyəti strukturlarında vəzifə tuta bilməzlər. Lakin, Milli Məclisə seçkilər haqqında qanuna əsasən keçid dövründə prezidentə Milli Məclis deputatlarının15 fazinə qədərində həm də İcra hakimiyyəti strukturlarında istifadə etmək kimi müstəsna hüquq verilir.

Azərbaycan Respublikasının Milli Məclisin ildə iki dəfə çağrılan sessiyalar vasitəsi ilə fəaliyyət göstərir. Milli Məclisin qanunvericilik fəaliyyətinin həyata keçirilməsində parlamentin aşağıdakı daimi komissiyaları mövcuddur:

- Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komisiyası
- Büdcə məsələləri komissiyası
- İqtisadi siyasət komissiyası
- Aqrar siyasəti komissiyası
- Təbii ehtiyatlar energetika və ekologiya kommisiyası
- Sossial siyasət komissiyası
- Yerli özünü idarə məsələri komissiyası

- Elm və təhsil komissiyası
- Mədəniyyət məsələləri komissiyası
- İnsan hüquqları komissiyası
- Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komissiyası

**Seçkinin mahiyyəti və seçki sistemləri**

Seçki müasir cəmiyyətin ən vacib komponentidir. Seçki bəşəriyyətin yenicə formalaşdığı dövrdən meydana gəlmişdir. Keçmiş dövrdə seçkilər adətlərlə tənzimlənirdi. Ilk təsisatlı seçkilər yəni qanunla tənzimlənən seçkilər Qədim Yunanıstan da mövcud olmuşdur.( E.ə. 5əsrdə Afina da ). Orta əsrlərdə seçki ənənəsi ancaq istisna hallar üçün qalırdı. Demokratiyanı seçkisiz təsəvvür etmək mümkün deyil. SEÇKİ—səsvermə yolu ilə nümayəndəli siyasi hakimiyyətin formalaşdırılması vasitəsidir.

Seçki sistemi inkişaf etmiş ölkələrdə,hər bir sivil ölkədə konstitusiya hüququnun ən əsas institutlarından biridir.Ona görə bütün müxtəlif ölkələr bu sistemə xüsusi diqqət yetirirlər və geniş siyasi əhəmiyyətə malikdir.

Seçki sistemində sosial-siyasi aspektdə hamı tərəfindən razılaşdırılmış və riayət olunduqda hamı üçün məcburi nəticələr doğuran qaydaların məcmusudur.Seçki sistemi hakimiyyətin əldə edilməsinin ən sivil vasitəsidir,siyasi mədəniyyət yoludur və bu yolun dəyəri onun formalığındadir.Seçki sistemi istənilən sosial qrupa,təbəqəyə hakimiyyət uğrunda mübarizəsini realizə etməyə və qalib gələrsə,onu əldə edəcəyinə təminat verən açıq sistemdir.Dövlətin,cəmiyyətin müəyyən etdiyi istənilən subyekt təşkilatlanmaqla (siyasi partiyalar,partiya blokları) seçkilərdə hakimiyyət uğrunda mübarizədə iştirak edə bilər.Seçkilərin əsas məqsədi dövlət hakimiyyətini əldə etmək və onu təşkil etməkdir..Dövlət hakimiyyətinin legitimləşdirilməsinin formal əsası seçkilərdir.Seçkilərdə xalqın səsini qazananlar qalib olurlar.Deməli,xalq kimi seçirsə onlarda dövlət hakimiyyətini təşkil edir.

Seçkilərin mahiyyəti cəmiyyət üçün çox vacibdir.Çünki burada konkret şəxslərin deyil,bütün cəmiyyətin mənafeyindən söhbət gedir.Seçki sistemi dövlət tərəfindən müəyyən edilmiş,dövlət hakimiyyətinin ilkin təşkilinin,formalaşdırılmasının hamı üçün məcburi olan mexanizmi,qaydasıdır.Dövlət hakimiyyətinin təşkili ardıkəsilməz hüquqi-siyasi bir prosesdir.Seçkilər təşkilatlanmanın ən əsas

parametrlərini və həyata keçirəcək sosial qüvvələri,onların təşkilatını müəyyən edir.İkinci dərəcəli təşkilatı məsələlər də arasıkəsilməz və inkişaf edən prosess kimi dövlət quruculuğunda həyata keçirilir.Seçkilərin əsas məqsədi hakimiyyətin təşkilidir.Çünki məhz seçkilərdə qalib gələn siyasi qüvvələrin ideyası,proqramı,sonradan hakimiyyət orqanlarının bilavasitə mərkəzdə və yerlərdə necə təşkilatlanacağını,onların qarşılıqlı münasibətlərini müəyyən edir.

Seçki sisteminin əsasları həmişə konstitusiyalarda təsbitlənir.Bütün seçki sistemi cəmiyyət üzvlərinin baxışlarından asılı olan ən həssas olan sistemdir.

Seçki sisteminin funksiyalarının xüsusi əhəmiyyəti vardır.Funksiya ümumiyyətlə,fəaliyyətin əsas istiqamətləri kimi başa düşülür.Seçki sistemi aşağıdakı funksiyalara malikdir:

Seçkidə,səsvermədə iştirak edən şəxslərin məcmusu elektorat adlanır.Elektorat-əhalinin seçkilərdə iştirak etmək imkanına malik olan,bu və ya digər siyasi qüvvəyə münasibətini ifadə edə bilən hissəsidir.Elektoratın seçkilərdə iştirakına və qeydiyyatına görə üç növü vardır:

1.Potensial elektorat-seçkilərdə iştirak etmək hüququna malik olan qanunla müəyyən edilən şərtləri ödəyən bütün şəxslər

2. Faktiki elektorat-seçkilərdə gəlib iştirak etmiş,səs vermiş şəxslərin məcmusu

3.Hüquqi elektorat-seçici kimi dövlətin orqanları tərəfindən qeydiyyata alınmış şəxslərin məcmusu

Seçkilər hüquqi proses olaraq səsvermə prosesi ilə xarakterizə olunur. Demokratiyanın atributu kimi ümum seçki hüququ formalaşmışdır. Ümumseçki hüququ ayrı-ayrı dövlətlərin siyasi quruluşundan, siyasi rejimdən asılıdır. Ona gorədə dövlətlərdə qəbul edilən ümumi seçki hüququnda fərqli cəhətlər vardır. Seçki hüququ aktiv və passiv seçki hüququna malikdir. Aktiv seçki hüququ — seçicilərin səsverməsi nəzərdə tutur. Passiv seçki hüququ -- seçilənlərin iştirakını nəzərdə tutur. Aktiv seçki hüququnda yaş, vətəndaşlıq və fəaliiyətlə bağlı senzuralar tətbiq edilir. Passiv seçki hüququnda müəyyən coğrafi məkanda yaşamaq senzi tətbiq edilir. Səsvermədə iştirak etmək əhalinin həm hüququ, həm vəzifəsidir. Səsvermə vasitəsilə xalq suveren hüququnu icra edir. Bir çox ölkələrdə səsvermədə iştirak etməyənlərə qarşı absentizm tətbiq edilir. Səsvermə vətəndaşların borcu hesab edilir. Əhalinin səsvermədə iştirakının təmin edilməsi üçün ilk növbədə onların

siyasi mədəniyyəti yüksəldiməlidir. Demokratik ölkələrdə seçkilərin əsas prinsipləri aşağıdakılardır:

1. Dövlət hakimiyyəti orqanlarının formalaşdırılması;
2. Seçkilərin birbaşa olması;
3. Ədalətli bəhsləşmə pirinsipinə əməl olunması.

Seçkilərin funksiyaları:

1. Əhalinin müxtəlif səviyyəli maraqlarının artikulyasiyası, təmsil edilməsi.
2. Hakimiyyət təsisatlarına nəzarət.
3. Müxtəlif səviyyəli rəylərin inteqrasiya edilməsi yolu ilə ümumi siyasi iradənin formalaşdırılması
4. Siyasi sistemin legitimləşdirilməsi və sabitlişdirilməsi
5. Hakimiyyət təsisatları ilə vətəndaşlar arasında münasibətlərin genişləndirilməsi.
6. Seçki korpusunun ölkədə mövcud olan aktual problemlərinin həllinə səfərbər edilməsi
7. əhalinin siyasi iştirakçılIğının tinkişaf etdirilməsi.
8. Siyasi elitanın yenilişdirilməsi
9. Siyasi rəhbərliyi həyata keçirə bilən səmərəli müxalifətin formalaşdırılması

Seçki hüququ prinsiplərinin 2 əsas növü məlumdur:

1. Seçki hüququ prinsipi
2. Seçkilərin təşkilinin ümumi prinsipləri

Seçki hüquq prinsiplərinə: ümumilik, bərabərlik, seçkilərin gizliliyi, birbaşa seçkilər daxildir.

Seçkilərin təşkilinin ümumi prinsiplərinə: seçkilərin azadlığı , alternativ namizədləri seçmək imkanı, seçkilərdə yarış və rəqabətin olması, onun keçirilməsinin daimiliyi, siyasi partiyaların və namizədlərin bərabər imkanına malik olması daxildir

Seçki Sistemləri

**Seçki sistemləri** dedikdə vətəndaşların seçkili dövlət orqanlarının seçilməsində iştirakınn, habelə seçicilərlə seçkili dövlət orqanlarının üzvləri arasında əlaqələri müəyyən edən qaydalar başa düşülür.

Dünya praktikasında 3 seçki forması vardır: majoritar, proporsional, qarışıq. Hər bir dövlətdə tətbiq edilən seçki sistemi onun siyasətinin bir sıra xüsusiyyətlərini əks etdirir.

**Majoritar** - (fransız sözü olub çoxluq deməkdir). Bu sistem əsasən iri partiyalara üstünlük verir. Majoritar seçki sistemində ölkə parlamentdəki deputatların sayına görə seçki dairələrinə bölünür. : bir

dairədən bir deputat. Majoritar seçkilərdə seçicilərlə deputatlar arasında münasibətlər formalaşır. Seçicilər deputatlığa namizədin proqramı ilə yaxından tanış olurlar. Bu seçki sistemi çoxluğun iradəsinə əsaslanır. Yəni, seçicilərin çoxu 50+1 nəfəri hansı namizədi dəstəkləyirsə o da seçilir. Qalib olmaq üçün rəqibdən çox səs yığmaq lazımdır. Mənfi cəhəti odur ki, namizədlər çoxaldıqca tələb olan səslərin sayı da azalır. əgər konkret bir seçki dairəsində 10 nəfər namizəd yarışırsa, onlardan biri seçicilərin 10%-nin səsi ilə seçilmək imkanı yaranır. Deməli bu zaman qalan 905-in yəni mütləq çoxluğun səsi təsir gücünü itirir. Majoritar seçki sisteminin bir qüsurları: seçicilərin faizlərinin aşağı olması; bir sıra hallarda 2 turun keçirilməsi; siyasi partiyaların hakimiyyət strukturlarında təmsilşilik dərəcəsinin aşağı düşməsi; partiyaların mandat alanlarla onlara səs verənlər arasında disproporsiyanın yaranması ; ayrı-ayrı seçki dairələrində bir seçki blokunun siyasi partiyaların namizədlərindən 90%-i 2-ci, 10%-i 1-ci yerə çıxarsa, həmin seçki bloku və ya partiya bütövlükdə ölkə ərazisi üzrə çoxsaylı seçici səsi itirir. Hazırda bu sistemdən Böyük Britaniya, ABŞ, Kanada, Hindistan və b. öLkələr istifadə edirlər.

**Proporsional** - sistemə görə deputat mandatları seçkidə iştirak etmiş partiyalar və seçki blokları arasında toplanan səslərə mütənasib qayda da bölünür. Partiya və blokların siyahısı əvvəlcədən tərtib olunur və MSK-ya təqdim edilir. Avstriya, Danimarka, Hollandiya, Belçika, Braziliya, İsrail, Portuqaliya, İsveçrə kimi ölkələr də tətbiq olunur. Səslərin həddindən artıq bölünməsinin qarşısını almaq üçün bir çox ölkələrin seçki qanunvericiliyi zəruri minimum hədd müəyyənləşdirir. Toplanan səslərin nəticəsilərinə mütənasib olaraq partiyalar parlamentdə təmsilçilik üçün mandat qazanması 2 əsas prinsip əsasında müəyyənləşdirilir.

1. Növbəlilik, yəni deputat mandatı partiya siyahısından 1-ci namizəddən başlanaraq ardıcıllıqla qazanılır.
2. Preferensiallıq (rəğbət) yəni seçicilər rəğbətdən asılı olaraq namizədlərin siyahıdakı yerinə dəyişə bilirlər. Bu prinsipin üstün cəhəti odur ki, majoritar seçki sistemində olduğu kimi seçicilərin siyasi rəyi və istəyi nəzərə alınır.

Bu seçki sisteminin mənfi cəhətləri odur ki, xırda partiyalar, böyük partiyalar kimi parlamentdə təmsil oluna bilərlər və siyasi hakimiyyətin fəaliyyətinə təsir göstərmək imkanı qazanırlar. Hökümət formalaşdırmaq üçün zəruri səs toplaya bilməyən partiyalar koalisiyalı hökümət qurmağa məcbur olur. Belə hökümətlər isə tez-tez böhranla

üzləşir. Proporsiponal seçki sisteminin çatışmayan bir cəhəti də odur ki, seçicilər konkret namizədə deyil, partiyalara siyasi bloka ss verirlər. Bu eyni zaman da deputatların partiyalardan asılılığını artırır. Çünki siyahıdakı ardıcıllığı partiya müəyyənləşdirir.

**Qarışıq seçki sisteminin** mahiyyəti odur ki, parlamentin bir hissəsi konkret, yəni tək mandatlı dairələrdə qələbə çalmış namizədlərdən, digər bir hissəsi isə partiya və blokların siyahısı üzrə müəyyənləşdirilmiş namizədlərdən formalaşdırılır. Yəni bu sistem proporsional və majoritardan olan namizədə, həm də partiyanın və yaxud seçki blokunun namizədinə səs verir. Qarışıq seçki sistemi Almaniya , Litva, Yaponiya, Türkiyə, Meksika və b. Ölkələrdə tətbiq edilir.

Seçkinin aşağıdakı şərtlər mövcuddur:

1.Seçkilərin azad və ədalətli olması;

2. Əvvəllər keçirilən seçkilərlə bağlı ya;

3. Seçilənin kimliyi, onun proqramı və mənsub olduğu dəyərlər;

4. Əhalinin sosial tərkibi;

5. Əhalinin adət, vərdiş və stereotipləri, maraqları;

6. Seçki keçirilən ölkədə yaranan konkret şərait;

7. Əhalinin etnik tərkibi;

8. Əhalinin maddi vəziyyəti;

9. Siyasi maarifçiliyin , siyasi şüurun, siyasi mədəniyyətin inkişaf səviyyəsi,

10. Namizədlərin müasir seçki texnologiyalarından istifadə imkanları və bacarıqları və s.

Insanlar üçün geniş seçki hüquqları mövcud olduğu kimi, müəyyən yasaqlar da mövcuddur ki, buna seçki

1. Vətəndaşlıq senzi.bu senzin tələbinə görə seçmək və seçilmək hüququ vətəndaşlıq ilə bağlı olur.

2. Daimi yaşayış yeri senzi. Bu senzi hər hansı bir dövlətin ərazisində qanunla müəyyənləşdirilmiş daimi yaşayış müddəti ilə bağlıdır.

3. Yaş senzi. Müəyyən yaş həddinə çatmağa seçkidə iştirak hüququnu nəzərdə tutur.

4. əmlak senzi. Seçkidə iştirak etmək üçün əmlak sahibi olmalısan, vergi vermək imkanın olmalıdır.

5. Cins senzi. Ancaq kişilərə seçilmək hüququ verilir, lakin ABŞda, Fransada, Avropa da və b. Ölkələrdə götürülüb.

# XIII. SİYASİ ŞÜUR VƏ SİYASİ MƏDƏNİYYƏT

## Siyasi şüur anlayışı

Siyasi həyatın subyektiv tərəfi öz əksini siyasi şüurda tapır. Siyasi şüur praktikanı qabaqlayır, ictimai-siyasi prosesin inkişafını proqnozlaşdıra bilər ki, bu da siyasi həyata, cəmiyyətin siyasi mədəniyyətinin dinamikasına müəyyən təsir göstərə bilər. Siyasi şüur sosial subyektlər tərəfindən siyasi mühitin dərk olunmasıdır.

**Siyasi şüur** - siyasi reallıqların dərk edilməsi sayəsində meydana gələn və inam, etiqad, baxışlar, dəyərlər və onlara əsaslanan siyasi mövqe ilə ictimai rəyin məcmusu şəklində fəaliyyət göstərən siyasi şüur siyasi proseslərin mühüm hissəsi kimi çıxış edir. Siyasi şüur formaları estetik dəyərlərlə sıx bağlıdır.

Siyasi şüurun aşağıdakı funksiyaları vardır:

1) **Tənzimləyici funksiya** - Siyasi şüur gerçəkliyin qavranılması əsasında insanların sosial davranışını tənzimləyir;

2) **Dərketmə-məlumat** - Müasir dövrün tələblərinə uyğun olaraq siyasi sahədə seçim qarşısında qalırlar. Bu əsasda siyasi şüur siyasi bilikləri və məlumatları qavramaqda insanların köməkçisinə çevrilir, onların ictimai-siyasi həyatda öz yerini müəyyən etməsində və düzgün istiqamətlənməsində böyük rol oynayır;

3) **Dəyərləndirmə funksiyası** - Siyasi gerçəkliyin dəyərləndirilməsi əsasında insanlar özlərinin siyasi baxışlarının mövqe və inamlarını müəyyən edirlər;

4) **Səfərbərlik funksiyası** - Bu funksiyanın köməyi ilə siyasi şüur insanları siyasi cəhətdən istiqamətləndirilmiş davranışa, özlərinin sosial-siyasi maraqlarını müdafiə etmək xatirinə ictimai həyatda iştiraka sövq edir.

Siyasi şüur müxtəlif səviyyələrdə və formalarda olur:

1) **Dövlət səviyyəsi** - Rəsmi siyasətin əsaslandırılması və hazırlanması həyata keçirilir. Dövlət siyasi münasibətləri müxtəlif qanunyaratma mərhələlərini, proqramların konstruksiyasını və s. tənzimləyir. Bu səviyyədə siyasi şüur mövcud siyasi durumu və idarəetmə prinsiplərini müdafiə edir;

2) **Nəzəri səviyyə** - Siyasi şüur müxtəlif növlü siyasi xarakterli konsepsiyaları, ideya baxışlarını əks etdirir, siyasətin nəzəri səviyyədə dərk olunması imkan verir ki:

a) Onun həm fundamental, həm də cari məqsəd və

vəzifələrini qarşıya qoysun və həll etsin;

b) Onların nailiyyətlərinin vasitə və metodlarını müəyyən etsin;

c) Siyasi qərarların və məqsədli proqramların qəbul olunmasında sosial nəzarətin konsentual yanaşmaları hazırlansın;

d) Siyasi təcrübə əsasında siyasət təhlil edilsin;

3) **Empirik səviyyə -** Bu səviyyədə siyasi şüur təcrübələri müxtəlif sosial icmaların siyasi prosesdə iştirakına əsaslanır. Bu səviyyə siyasi gerçəkliyi duyğu, illuziya, təsəvvür və həyəcan formasında əks etdirir.

Adi səviyyə empirik səviyyədən onunla fərqlənir ki, o, ideoloji və nəzəri elementlərə malikdir. Bu səviyyəyə sosial-psixoloji əlamətlər: əhval- ruhiyyə, hiss, emosiya aiddir. Bunun sayəsində o, xüsusi dinamiklik, siyasi şəraitin dəyişməsinə dəqiq reaksiya vermək xüsusiyyətinə malik olur. Siyasi şüurun iki forması var: xüsusiləşmiş və kütləvi siyasi şüur.

Mahiyyət etibarilə siyasi şüur həm mənəvi, həm də ictimai hadisədir. Siyasi şüur qrup şüuru şəklində meydana gələ bilər ki, bu da tələbat və mənafelərin dərk edilməsi ilə əlaqədardır: **1)** Fərdin özünü hər hansı sosial birliyin, qrupun ayrılmaz hissəsi hesab etməsi; **2)** Şəxsiyyətin öz mənafelərini ümumi mənafelərdən ayrılmaz hesab etməsi; **3)** Şəxsi mənafeləri həyata keçirmək üçün siyasi sistemə və hakimiyyətə xüsusi kollektiv münasibətin formalaşması; **4)** Kollektiv şəkildə formalaşmış baxış və dəyərlərin ümumi, məcburi xarakter daşıması və hamı tərəfindən qəbul edilməsi. **Siyasi şüurun əsas ünsürləri: siyasi mövqe, ictimai rəy, stereotip.**

**Siyasi mövqe -** şəxsiyyətin hakimiyyətin həyata keçirilməsi və ya hakimiyyət uğrunda mübarizədə təzahür edən spesifik davranışını səciyyələndirən keyfiyyətlər başa düşülür.

**Şəxsiyyətin siyasi mövqeyinin komponentləri: siyasi hadisələrə emosional əhval-ruhiyyə, siyasi hadisələrə aid inam, siyasi fəaliyyət meyli.**

**Siyasi mövqe -** Şəxsiyyətin siyasi fəaliyyətinin motivlərini dərk etməyə kömək edən fərdi hadisədir. Fərdin siyasi mövqeyi onun bilavasitə siyasi fəaliyyətində özünü biruzə verir. Siyasi mövqe insanın siyasi hadisələri qiymətləndirilməsi ilə siyasi fəaliyyətini birləşdirən xüsusi vasitədir. Siyasi sahədə idraki prosesin fəaliyyətə çevrilməsi subyektin siyasi mövqeyinin formalaşması vasitəsilə baş verir.

**Siyasi mədəniyyət anlayışı**

Plan:
1. Siyasi mədəniyyətin mahiyyəti
2. Siyasi mədəniyyətin funksiyaları

XVIII əsrdə siyasi mədəniyyət termini ilk dəfə alman filosofu Herder siyasi mədəniyyət termini ilk dəfə ABŞ politoloqları Q.Almond, S. Verba tərəfindən işlədilmişdir(1963-cü ildə). Onlar belə qərara gəlmişdilər ki, demokratik rejim hər şeydən öncə yüksək siyasi mədəniyyət tələb edir.

**Siyasi mədəniyyət**- insanların fəaliyyətində, davranışında, təzahür edən zaman-zaman formalaşan dəyərlər, təsəvvürlər, vərdişlər, inanclar sistemidir, cəmiyyətin siyasi həyatının ənənəliyini təmin edir.

**Siyasi mədəniyyət**- vətəndaşların siyasi təcrübə ilə şərtlənən fəaliyyətini və davranışını, ümumi əhəmiyyət kəsb edən siyasi biliklərin səviyyəsinin və xarakterini səciyyələndirir. Başqa sözlə, siyasi mədəniyyət bu və ya başqa bir fərdin, milli yaxud siyasi birliyin siyasət dünyası, onun qanunauyğunluqları və fəaliyyət qaydaları haqqında təsəvürlərin məcmusudur.

**Siyasi mədəniyyət:**
- Kütlələrin siyasi şürunun və siyasi davranışını müəyyənləşdirir.
- Cəmiyyətin təbii-tarixi inkişafının məhsuldur, kollektiv, siyasi yaradıcılığın nəticəsidir.
- Möhkəm, həm də təkrar olunan əlaqələrə malikdir, siyasi təcrübəni möhkəmləndirir.

Siyasi mədəniyyətin ən azı 3 komponenti var:
1. Siyasi düşüncə mədəniyyəti (biliklər, təsəvvürlər, idealogiyalar, dəyərlər ).
2. Siyasi davranış mədəniyyəti (adət-ənənələr, normalar, peşəkar siyasi fəaliyyət standartları, vərdişlər və s.).
3. Siyasi institutların fəaliyyət mədəniyyəti (seçki, partiya, dövlət sisteminin effektliliyi və stabilliyi, siyasi münaqişələrin həlli vasitələri və yolları, vacib siyasi qərarların qəbul edilməsi praktikası).

Siyasi mədəniyyətin formalaşması siyasi şüurun tərbiyyə olunmasıdır. O, özündə şüur, siyasət və mədəniyyətin əlamətlərini birləşdirir. Siyasi sistemdə siyasi mədəniyyət əhəmiyyətli rol oynayır. Onlar bir-birindən ayrılıqda mövcud ola bilməz. Siyasi mədəniyyəti təşkil edən sərvətlər siyasi sistemin formalaşmasına və inkişafına imkan yaradır.

**Siyasi mədəniyyətin subyekti** – inam və fəaliyyət, cəmiyyət, sinif, qruplar, təsisatlar və şəxslərdir. O, eyni zamanda cəmiyyətin siyasi həyat tərzinin fəal tənzimləyicisidir.

Siyasi mədəniyyətin spesifikliyini göstərən bir çox əlamətlər mövcuddur:

1. Hakimiyyətə münasibət
2. Siyasi fəaliyyət davranışı
3. Vətəndaşların siyasi qərarların qəbul edilməsi prosesinə təsir etmək imkanı
4. Cəmiyyətin siyasi əhval-ruhiyyəsi

## Siyasi mədəniyyətin funksiyaları.

Siyasi mədəniyyətin əsas təyinatı siyasi norma və dəyərlərin yeni nəsillərə ötürülməsini, onların daha da təkmilləşdirilməsini, yayılmasını təmin etməkdir. Bu əsas vəzifənin həyata keçməsi üçün siyasi mədəniyyət bir sıra funksiyaları yerinə yetirir:

1. **İnteqrasiya funkiyası** - siyasi mədəniyyət cəmiyyəti bütövləşdirir, vətəndaş birliyi və həmrəyliyi yaradır.Bu proses siyasi davranış normalarının standartlaşması, çoxluğun bəyəndiyi konsalidasiya yaradan siyasi dəyərlərin qəbul edilməsi yolu ilə baş verir.
2. **Sosiallaşma** - fərd tərəfindən siyası hadisələrin mahiyyətini dərk edərək, müəyyən siyasi sistemdə öz yerini, siyasi davranış norma və vərdişlərini müəyyənləşdirir.
3. **Uyğunlaşma** - insanların öz hüquqlarını və idrəetmə səlahiyyətlərini həyata keçirmək şəraitini səciyyələndirir.
4. **Qovuşma -** siyasi sistem daxilində müxtəlif yönümlü siyasi qüvvələrin yanaşı yaşamasını və cəmiyyətin bütövlüyünü təmin edir.
5. **Eyniləşdirmə -** insanın yaşayıb fəaliyyət göstərdiyi cəmiyyətin mənafeyini müdafiə etməsini və siyasi sferada münasib üsullara yiyələnməsini xarakterizə edir.
6. **Əlaqələndirmə-** hamılıqla dərk edilən qaydaların, normaların və stereotiplərin tətbiq edilməsi vasitəsilə hakimiyyət təsisatlarının və siyasi fəaliyyət subyektlərinin qarşılıqlı əlaqəsini təmin edilməsidir.

### Siyasi mədəniyyətin tipləri.

Q.Almond və Verba AFR, ABŞ, İtaliya və Meksikanın siyasi sistemlərinin əsas komponentlərini və fəaliyyət normalarını öyrənərək 1963-cü ildə çapdan çıxmış "Vətəndaş mədəniyyəti" adlı kitabda onlar patriarxal, təbəəçi və fəal siyasi mədəniyyət tiplərini göstərmişlər.

**Patriarxal siyasi mədəniyyət** – onunla fərqlənir ki, cəmiyyət üzvləri tərəfindən siyasi sistemə, onun fəaliyyət üsul və metodlarına, habelə siyasi idarəçiliyin nəticələrinə heç bir maraq göstərilmir.

**Təbəəçi siyasi mədəniyyət** – cəmiyyət üzvlərində siyasi hakimiyyətə, onun fəaliyyətinin nəticələrinə müəyyən maraq var, çünkiöz mənafelərinin reallaşması ilə həmin fəaliyyətin arasında əlaqə olduğunu dərk edirlər.

**Fəal siyasi mədəniyyət** – sistemində cəmiyyət üzvləri nəinki hakimiyyətin fəaliyyəti ilə öz mənafeləri arasında əlaqəni dərk edir, habelə özünün siyasi sistemdə yerini və rolunu da yaxından anlayır. Ona görə də fərdlər həmin siyasi sistemə yüksək maraq göstərir, habelə siyasi proseslərdə fəal iştirak etməyi zəruri həsab edir.

Q.Almand və Verba qeyd edirlər ki, cəmiyyətdə heç bir siyasi münasibət xalis şəkildə tipi mövcud ola bilməz. Yuxarıda göstərilən siyasi münasibət tiplərinin qarışıq tipləri real həyatda üstünlük təşkil edirlər:

1. Patriarxal-təbəəçi
2. Təbəəçi-fəal
3. Patriarxal-fəal

Tarixən siyasi mədəniyyətin 3 başlıca tipi mövcuddur:

1. **Ənənəvi siyasi mədəniyyət**
   a) hakimiyyətin müqəddəsliyinin qəbul edilməsi;
   b) təbəələrin hüquqlarının və hakimiyyətin təbəələrə münasibətdə səlahiyyətlərinin cəmiyyətin qoyduğu ənənəvi normalarla nizma salınması prinsipinin qəbul edilməsi;
   c) siyasi sistemin və onun başlıca normalarının dəyişməzliyinin qəbul edilməsi;

Ənənəvi siyasi mədəniyyətin üç növü müxtəlifliyi ilə fərqlənir:

1. **Ənənəvi qəbilə siyasi mədəniyyəti-** Bu siyasi mədəniyyətin

fəaliyyət göstərdiyi siyasi sistemlərdə xalq toplantıları formasında idarəçilik, qəbilə başçısının səlahiyyətlərinin mədudlaşdırılması, onun ağa kimi deyil, yüksək səlahiyyətli qəbilə üzvü kimi statusa malik olması başlıca cəhətlərdir.

2. **Ənənəvi teokratik(dini) siyasi mədəniyyət-** Siyasi mədəniyyətin bu növünə görə hakimiyyət sahibi Allah və ya onun yer üzərindəki elçisi hesab edilir. Onun hakimiyyətinin hüdudları Allahın iradəsinin dərəcəsi ilə müəyyən edilir. Vyatrın fikrincə, teokratik siyasi mədəniyyət o xalqlara xasdır ki, onların dövlət sistemi peyğəmbərlər tərəfindən yaradılıb.
3. **Ənənəvi despotik siyasi mədəniyyət-** Təbəələrin hökümdara münasibəti onun heç nə ilə məhdudlaşdırılmayan hakimiyyətinin mütləq mənada qəbul edilməsinə əsaslanır. Başqa sözlə, bu siyasi sistemdə hökmdar bütün təbəələrin başının ağası sayılır.

Silki demokratiyanın siyasi mədənyyətinin iki əsas növ müxtəlifliyi göstərilir. Birincisi, antik Yunan şəhərlərində, Roma respublikasında və orta əsrlərin bəzi italiyan şəhərlərində qərar tapmış **patris siyasi mədəniyyəti.** İkincisi, son orta əsrlərdə və yeni tarixin ilk dövrlərində özünü göstərən **zadəgan siyasi mədəniyyəti**.

Yeni dövrün siyasi mədəniyyətini Vyatr kütləvi siyasi mədəniyyət adlandırır.Onun meydana gəlməsi siyasi sistemin fəaliyyət metod və prinsiplərində, habelə insanların siyasi sistemə, siyasi iştirakçılığa münasibətlərində baş verən əhəmiyyətli dəyişikliklərlə əlaqədardır.

Kütləvi siyasi mədəniyyət çərçivəsində **demokratik** və **avtokratik** siyasi mədəniyyət növləri seçilir.

Siyasi mədəniyyətin **demokratik** növünü səciyyələndirən xüsusiyyətlər bunlardır – vətəndaşların yüksək siyasi iştirakçılığı, onların siyasi sistemə cəlb edilməsi, insanların hüquq və azadlıqlarının təmin edilməsi, cəmiyyət üzvlərinin hökumətin fəaliyyətinə nəzarət edə bilmək imkanlarının mövcudluğu, siyasi plyuralizmin, azadfikirliliyin müdafiə edilməsi və s.

Kütləvi siyasi mədəniyyətin bu növü iki formada təzahür edir: Mühafizəkar-liberal və Liberal –demokratik siyasi mədəniyyət.

1. Mühafizəkar-liberal siyasi mədəniyyət - cəmiyyətin siyasi sisteminin əsaslı dəyişdirilməsinin qeyri-məqbul hesab edilməsi mövqeyindən çıxış edir.
2. Liberal-demokratik siyasi mədəniyyət – sistemində isə fərdlərin

müstəqilliyinin genişlənməsi zəruriliyinin dərk edilməsi siyasi sistemin əsaslı islahatı ideyasını obyektiv olaraq şərtləndirir.

Demokratik siyasi mədəniyyətin əksini **avtokratik** siyasi mədəniyyət təşkil edir. Onun başlıca səciyyəsi insanların hüquq və azadlıqlarının inkarına, avtoritarizmə və gücə əsaslanan hakimiyyətə meyillənməklə əlaqədardır. Kütləvi siyasi mədəniyyətin növ müxtəlifliyi kimi çıxış edən avtokratik siyasi mədəniyyət XIX əsrdə bonapartizm, XX əsrdə faşizm və kommunizm rejmlərində özü üçün əlverişli zəmin tapa bilmişdir. Avtokratik siyasi mədəniyyətin iki forması- avtoritar və totalitar formaları mövcuddur.

1. Avtoritar siyasi mədəniyyət - siyasi proseslərdə kütlələrin geniş iştirakını nəzərdə tutmasa da, xalq siyasi ideologiyanın təsiri altinda monipulyasiyaya məruz qalır.
2. Totalitar siyasi mədəniyyət -əhali siyasi proseslərin fəal iştirakçısı rolunda çıxış edir. Totalitar siyasi mədəniyyət əhalinin yüksək səfərbərliyi və kortəbii yaxud məcburi fəallığı sayəsində hakimiyyətin ifrat şəkildə mərkəzləşməsinə, bütün sahələrdə dövlət nəzarətinin bərqərar edilməsinə əsaslanır.

## İctimai rəy

Siyasi şüurun funksional mahiyyəti ictimai rəy vasitəsilə reallaşır. Ayrı-ayrı fərdlərin siyasi baxış və mövqeləri toplum halında ictimai rəyi yaradır, o fərdi xarakter daşıyır və siyasi təsəvvür və baxışları sintez edərək ümumi siyasi rəy formasına gətirir. İctimai rəyin vasitəsilə rəngarəng siyasi və ... üçün xas olan ümumi məqamlar və cəmiyyətdəki başlıca siyasi meyllər, cərəyanlar müəyyənləşdirilir.

Qranişin deyir: İctimai rəy vətəndaş cəmiyyəti ilə siyasi cəmiyyətin, yəni vətəndaşlarla hakimiyyətin mənafelərinin qovuşma nöqtələrini axtarıb tapır.

Hər hansı fikir o vaxt ictimai rəyə çevrilir ki, o ümumi mövqeyi ifadə edir.

İctimai rəy insanların böyük dəstələrinin bu və ya digər siyasi əhəmiyyət kəsb edən məsələ üzrə kütləvi şəkildə ifadə olunan ictimai şüurunun tarixən şərtlənmiş və dəyişmişkən halıdır.

Stereotip yalançı şüurun formalarından biri və ya onun konkretləşməsidir.

Stereotip ictimai şüurda gerçəklik haqqında sadə, bəsit, sxematik təsəvvürlərdir. Stereotip təsəvvür və baxışların ictimai şüurda uzun

müddət dəyişməz qalmasının nəticəsində meydana gəlir. Belə olduqda stereotip ictimai reallığı dərk və əks etdirmək üsulu kimi təhlükəli mahiyyət kəsb edir.

Stereotiplər siyasi şüurun daimi müşaiyətçiləridir. Siyasi şüurda stereotiplərin meydana gəlməsi səbəbi həyatda baş verən sürətli dəyişikliklərə vaxtlı vaxtında cavab verə bilməməsi eyni təsəvvürlər uzun müddət şüurda yaşayaraq stereotipləşir.

Stereotiplər əsas etibarilə kütləvi şüurun qərarlaşdığı qrup və ictimai birliklər zəminində formalaşır. Siyasi sistemin mühafizə edilməsində stereotiplər mühüm əhəmiyyət kəsb edir.

# XIV. SİYASİ İDEOLOGİYA

## Siyasi ideologiya anlayışı. Onun forma və funksiyaları

**İdeologiya –** yunan sözüdür – "ideyalar haqqında təlim vermək" deməkdir.

İdeologiya siyasi şüurun bir forması olub, onun özəyini təşkil edir. O, hakimiyyət münasibətlərinin məzmununa fəal təsir göstərir. İdeologiya termini elmdə 18-ci əsrin sonu – XIX əsrin əvvəllərindən etibarən işlədilir. Bu anlayışa ilk dəfə fransız alimi Destyut De Trasinin "Düşünmək qabiliyyəti haqqında etüdlər" adlı kitabında rast gəlinir. Daha sonra "İdeologiyanın ünsürləri" adlı əsərində bu hadisəni geniş şərh etməyə çalışmışdır. De – Trasinin nöqteyi–nəzərincə, ideologiya ideYaların meydana gəlməsi və inkişafı, insan idrakının qanunları haqqında elmdir.

Keçmiş totalitar rejim olan sovet dövründə marksizm kütləvi bir ideologiyaya çevrilmişdir. Marksizmdə bu termin üç mənada işlənmişdir.

1. Yalan, eybəcərləşdirilmiş şüur;
2. Nəzəri şüurun növü;
3. Müəyyən sinfin şüurunun məcmusu;

Marksa görə, ideologiya mənəvi istehsalın geniş dairəsini əhatə edərək, həmin istehsalı inhisarlaşdıran hakim sinfə xidmət edir.

İdeologiya bu və ya digər insan qrupunun hakimiyyət iddialarını əsaslandıran və buna müvafiq olaraq ictimai fikri öz mənafelərinə tabe etdirməyə çalışan müəyyən doktrinadır. Siyasi ideologiyalar özündə tarixin elementlərini rəmzlərini, dəyərlərini əks etdirir.

İdeologiya siyasəti və siyasi fəaliyyəti pərdələməyə xidmət edir. Bu fikir Napaleona aiddir. O, ideologiyaya dövlət başçının fəaliyyətində praqmatizmi əsaslandırmağa xidmət edən amil kimi baxırdı. M. Veber ideologiyanı inamla əlaqədar hadisə kimi nəzərdən keçirərək, onun idrakı funksiyalarını inkar edirdi.

Rebul ideologiyanı 3 qrupda birləşdirib: sezarçı, marksist, sosioloji.

Sezarçı baxışlar sisteminə görə cəmiyyətdə qərar tutmuş münasibətlərin və sosial qaydaların tənqidinə əsaslanan və bu zəmində mövcud quruluşun dəyişdirilməsinə yönəldilmiş baxışlar sistemi, doktrinalar ideologiya hesab olunur. Marksizmə görə, mövcud quruluşun müdafiəsində duran, hökmran siniflərin mənafeyini qoruyub

saxlamağı öz məqsədi hesab edən baxışlar sistemi, doktrinalar ideologiya hesab edilməlidir.

Sosioloji cərəyanlara görə, ideologiya kollektiv inam və düşüncə səviyyəsinə qalxmış fikir və ideyaların məcmusudur.

Siyasi ideologiyanın mövcudluğu və funksional ...

Mahiyyəti onun siyasi şüurun bir forması olmasında öz ifadəsini tapır. Onun məzmununu müəyyənləşdirən əsas cəhət ideologiyanın hakimiyyət münasibətlərinə güclü təsir göstərməsidir.

İdeologiya ayrı-ayrı qrup mənafelərinin reallaşdırılması məqsədlərinə xidmət göstərir. Siyasi şüur forması kimi ideologiyanı səciyyələndirən mühüm cəhət onun sistemləşdirilməsidir. Müəyyən məqsəd ətrafında cəmlənmiş və konkret mənafeləri müdafiə edən ideya və baxışların vahid sistemi ideologiya hesab olunur.

İdeologiya gerçəkliyi məqsədyönlü şəkildə bu və ya digər mənafelərə uyğun olaraq əks etdirir. Buna görə də ideologiyada inam, etiqad kimi mənəvi – psixoloji ünsürlər həlledici rol oynayır. İdeologiya dünyagörüşü anlayışı ilə qarşılıqlı fəaliyyət halında mövcuddur.

İdeologiyanın məzmununu təşkil edən 3 əsas tərkib ünsürü göstərilib:

1. Gerçəkliyin təsviri;
2. Aksioloji ünsür;
3. Praktik göstərişlər;

1) Gerçəkliyin təsviri başlıca olaraq cəmiyyətin qarşılaşdığı sosial problemlərin mövcudluğunu onların həllinin vacibliyinə diqqəti cəlb etmək məqsədi daşıyır.

Dünyagörüşü sosial gerçəklik haqqında insanların ümumi baxışları sistemi, gerçəkliyin subyektiv obrazıdır.

Idraki təməl – Gerçəkliyin təsviri insanların sosial mühiti və buradakı münasibətləri dərk etməsi prosesi və onun dərəcəsi ilə əlaqədardır.

2) Aksioloji sistemin mahiyyəti mövcud gerçəkliyin təsvirinə əsasən müvafiq qiymətlər sistemini əsaslandıraraq anı real gerçəkliyə çevirmək səylərində ifadə olunur.

3) Praktik göstərişlər insanların davranışını yeni ideologiyanın daşıyıcıları olan sosial qrupun mənafeyinə uyğun istiqamətə yönəltmək kimi həlledici rol oynayır. Hər bir ideologiya kollektiv şüur kimi fəalliyyət göstərir. İdeologiyanın gücü onun kollektiv inam və düşüncəyə çevrilməsi dərəcəsi ilə ölçülür. İdeologiyanın ən mühüm əhəmiyyət kəsb edən mənbəyi ideal ilə gerçəkliyin müqayisəsidir.

Politoloqların fikrincə idealoji dəyərlərə xas olan xüsusiyyətlər

aşağıdakılardır:

1) Möhtəkirlik (qarşıya böyük məqsədlərin qoyulması). Bu zaman ideya real problemin zövqünə yüksəldilir. Ümumi işə xidmətdə insan özünün dəyərli olduğu qənaətə gəlir.
2) Daqmatik (ideala inam). Bu idealın şəxsi mənfəət əldə etmək üçün xırdalanmış pul olmadığı anlamın verir.
3) Apoloqetiklik (ideala sadiqlik bağlılıq). Nəyin bahasına olursa-olsun sahib olduğun ideyanı, "həqiqəti" müdafiə etmək, ondan üz çevirməmək.
4) Avtoritarlıq (tələbkarlıq). İdeologiya tələblərə xitab edir. Onun daşıyıcıları qarşısında arası kəsilməyən tələblər qoyur.
5) İdeologiyanın növləri: liberalizm, pozitivizm, sosializm, konservatizm.

Liberalizmin müəllifi C. De (XIX əsrin əvvəlləri) sayılır. "Liberalis" latın sözü olub "azadlığa toxunan" mənasını verir.

Liberalizmin əsas prinsipləri aşağıdakılardan ibarətdir: vətəndaş cəmiyyəti, plüralizm, parlament demokratiyası, hakimiyyət bölgüsünün tam həyata keçirilməsi, qanunun aliliyi, şəxsiyyətin toxunulmazlığı, fikir və söz azadlığı. Liberalizm həm maarifçilik, həm də mütləqiyyətin kontrmoedeli olan bir ideologiyadır.

Liberalizm siyasi doktrin kimi XII-XIII əsrlərdə Qərbi Avropada kilsə hakimiyyətinə qarşı etirazlar əsasında meydana gəlmişdir.

Sonrakı dövrlərdə liberal görüşlər xeyli təkmilləşdirildi. Monteskyö "təmsiledici demokratiya (seçilmiş nümayəndələrin formalaşdığı xalq hakimiyyəti), Hobbs və Russo ictimai müqavilə (könüllü müqavilə əsasında yaranan dövlət), C.Lokk hakimiyyətin bölünməsi prinsiplərini hazırladı.

XX əsrdə liberalizmin bir neçə tipləri meydana gəldi; iqtisadi liberalizm, hüquq dövlət tərəfdarları, radikal liberalizm, sosial liberalizm.

XX əsrdə yeni bir konsepsiya – neoliberalizm meydana gəldi. Bu konsepsiya tərəfdarları liberal iqtisadiyyatın (azad bazar iqtisadiyyatının) inkişafını, dövlətin iqtisadiyyata müdafiəsinin azaldılmasını zəruri sayılır. Fridman öz əsərlərində yazır ki, müasir liberalizmin məqsədi dövlət sərhədlərinin aradan qaldırılmasıdır.

Konservatizm – terminini ilk dəfə fransız yazıçısı Fransua Şatobrian işlədib. O, burjua siyasi fikrinin əsas cərəyanlarındandır. Konservatizm – təbii hüquqlar və ictimai müqavilə ideyalarına qarşı çıxırdılar. Bir ideologiya və nəzəriyyə olaraq konservatizmin əsas mahiyyətini

aşağıdakı prinsiplər müəyyənləşdirir: insan həyatının mənası aktiv fəaliyyətdə deyil, daxildəki dini barışıqdadır, fərd atdığı hər bir addımın mövcud qayda qanunlara və adətlərə uyğunlaşdırmalıdır, cəmiyyət Allahın kəraməti ilə yaranır, vətəndaş cəmiyyətinə münasibətdə dövlət mənən dini əsaslara malik olan 2-ci amildir. Siyasət əxlaqa tabedir, insan hüquqlarının ən əsası mülkiyyət hüququdur.

Konservatizmdə əsas önəm ənənəviçilikdir. Konservatizmdə digər bir dəyərə görə insan kamil deyil. Konservatorlara görə demokratiyanın həddi olmalıdır və bu hədd insanların siyasi cəhətdən aktivləşdiyi zamanlarda müəyyənləşdirilməlidir.

1) Konservatorlar insanların bərabərliyi dedikdə hüquq bərabərliyini nəzərdə tuturlar.
2) Onlar millətçidirlər.
3) Hökumət aparatının sadələşdirilməsində radikaldırlar.
4) Ailəni cəmiyyətin təməl daşı hesab edir, onu qorumağa çalışırlar.
5) Təhsildə milli və tarixi varisliyi mühüm hesab edir, onu qorumağa çalışırlar.

Onlar belə fikirləşirlər dövlətin zəngin olması deyil, millətin zənginləşməsi dövlətin zənginləşməsidir. Onların düşüncələrinə görə "millət dövlət üçün deyil, dövlət millət üçündür. Türkiyədə ANAP-konservativ partiyanın belə şüarı var: "Dövlət millətin əfəndisi deyil, millət dövlətin əfəndisidir".

Konservatiyyada sıralama belədir: fərd, millət, dövlət. Dünyanın aparıcı mühafizəkar partiyaları aşağıdakılardır: Respublikaçılar (ABŞ), mühafizəkarlar (İngiltərə), xristian demokratlar (Almaniya) ədalət və kalkınma partiyası (Türkiyə).

**Sosializm ideologiyasının** kökləri çox qədim zamanlardan müşahidə edilib (Platon və b.). Sosializm siyasi ideologiya olmaq etibarilə kütlələrin tarixən sosial ədaləti, həmrəyliyi, şəxsiyyətin sosial müdafiəsini həyata keçirən cəmiyyət arzulayır. Bu ideologiya sosial yoxsulluğu istehsal vasitələri üzərində mülkiyyət münasibətləri və sosial sferada dəyişikliklərin aparılması zərurəti ilə əlaqədardır. Az-çox sistemli şəkildə sosializm ideaları böyük vetopistlər T.Mor və Kampanellinin, sonralar isə Sen-Simon, Fürye, və Quenin əsərlərində şərh edilib. Sosializmin əsas ideası bərabər, ədalətli, xoşbəxt, istirmarsız cəmiyyət qurmaqdır. K.Marks və F.Engels sosializmin təliminin nəzəri əsaslarını hazırlamışlar ki, bunlar da aşağıdakılardır:

- Burjua cəmiyyətinin öz inkişafı zəruri sürətdə onun sosializm

cəmiyyətilə əvəz olunması şəraitini hazırlayır;

- Bu əvəzləmənin əsasını sinfi istismar və bu zəmində baş verən sinfi mübarizə təşkil edir;
- Sinfi mübarizə zəruri olaraq sosial inqilabla nəticələnəcək və proletar diktaturası qurulacaq;
- Sosializm məhsuldar qüvvələrin yüksək inkişaf etdiyi ölkələrdə qələbə çalan və öz növbəsində kapitalizmdən kindən daha yüksək məhsuldar qüvvələr yaradacaq.
- Sosializm ümumi sosial ədalət cəmiyyəti olacaq.
- Sosializmdə ictimai şüur yüksək səviyyədə inkişaf edəcək, cəmiyyətdəki neqativ hadisələri dərk edərək dəf etməyə hazır olacaq.

Sosializmin zəminində yaranmış sosial demokratiya sosial və dövlətlərarası aləmin üstünlüyünü müddəa etməklə yanaşı, həm də ədalətli, ictimai quruluş idealını, həmrəylik və azadlıq prinsiplərini əlaqələndirirlər. Siyasi demokratiyalar idealogiyasının əsasını K.Kantski, A.Bebel.Bernşteyn qoyublar. Sinfi mübarizı idealogiyanı qəbul etməyə sosial demokratiya burjua cərəyanının tədrici islahat yolu ilə sosializm cəmiyyətinə keçəcəyini iddia edirdilər. Onlar üçün vacib olan sosial və dövlətlərarası sülh, azadlıq və həmrəyliyə siyasi ədalətli ...

# XV. ŞƏXSİYYƏTİN SİYASİ SOSİALLAŞMASI ANLAYIŞI VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

Siyasi sistemin sabitliyini cəmiyyət üzvlərinin sosial və siyasi normalara münasibəti siyasi dəyərləri mənimsəməsi və öz fəaliyyətində həmin dəyərlərə istinad etməsidir.

**Şəxsiyyətin siyasi dəyərləri, normaları, davranış qaydalarını mənimsəməsi və onlar öz fəaliyyətində reallaşdırması hadisəsi, siyasi sosiallaşma anlayışı ilə ifadə edilir.**

Siyasi sosiallaşma anlayışı sosiallaşma anlayışının növlərindən biridir. Hər bir cəmiyyət üzvünün cəmiyyətdə mövcud olan sosial normalara, mənəvi dəyərlərə riayət etməsi zəminində şəxsiyyətin sosial keyfiyyətlərini formalaşdırır və onun ictimai həyata qoşulması sosiallaşma adlanır. Sosiallaşma prosesi fərdin və ictimai mühitin bir-biri ilə qarşılıqlı əlaqələrini və qarşılıqlı surətdə bir-birinə təsirinin təbiətini dərk etməyə imkan yaradır. Sosiallaşma prosesində üç ünsür mövcuddur. Birincisi, şəxsiyyətin cəmiyyətdə mövcud olan sosial normaları, dəyərləri, mədəniyyəti qəbul etməsi. İkincisi, şəxsiyyətin özünə aid olan dəyərlər sisteminin, sosial tələbatların baxışların formalaşdırması. Üçüncüsü, mənimsənilən dəyərlərin formalaşmış baxışların, tələbatların əsasında fərdin ictimai həyata qovuşması.

Şəxsiyyətin formalaşmasında iki faza mövcuddur və onlar bir birindən fərqləndirilir: sosial adaptasiya və sosial keyfiyyətlərin formalaşması fazası. Birinci fazada fərdin daxil olduğu mühitdə özünün sosial roluna uyğunlaşması prosesi baş verir. Ikinci fazada isə fərdin daxili inamın və psixoloji yönümünün qarşılaşması sayəsində onun sosial keyfiyyətləri formalaşır. Ilk dəfə, XIX əsrdə Fransız sosioloqu

Q.Tardın əsərlərində müasir sosiallaşma nəzəriyyəsi işlənib. Tard ilk dəfə olaraq sosial təsir və qarşılıqlı təsir vasitəsi ilə sosial normaların yayılması prosesini izah etmişdir. Onun nəzəriyyəsi təlqin etmə prinsipinin sosial mahiyyətinin və əhəmiyyətinin aşıqlamaq baxımından dəyərlidir. Onun fikrincə təlqin etmə sosial orqanizmin fəaliyyət mexanizminin təmin edilməsində xüsusi rol oynayır. Təlqinetmə nümunəvi siosial münasibət kimi dəyərə malikdir. Təlqinetmənin həm psixoloji həm də sosial özülü mövcuddur. Psixoloji təlqinetmə münasibətlərində bioloji tələbatlar, daxili mənəvi motivlər əsasdır. Sosial təlqinetmə münasibətlərin də isə nüfuz, maddi mənafə və s. kimi sosial amillər vacibdir.

Politologiyada sosiallaşma prosesinin siyasi aspekti öyrənilir. Bu mövzunu ilk dəfə 1959-cu ildə Xaimenin "Siyasi sosiallaşma" əsərində istifadə etmişdir. Siyasi sosiallaşma prosesini Y.Dauson və K.Priuitin 1969-cu ildə "Siyasi sosiallaşma" əsərində mükəmməl işləyib hazırlayıblar.

ABŞ-ın Çikaqo Universitetinin alimləri D.İstanın rəhbərliyi altında siyasi sosiallaşma prosesinin mahiyyəti insanın siyasət sahəsində yerinə yetirməli olduğu rola öyrədilməsi kimi başa düşülür. Siyasi mühitdə fəaliyyət göstərmək üçün siyasi sistemin üzvləri siyasi sosiallaşma vasitəsilə üç mühüm keyfiyyət qazanır: 1. Siyasi biliklər. 2. Siyasi dəyərlər. 3. Fərdin siyasi obyektlərə münasibətdən seçdiyi həyat mövqeyi. Məsələn, siyasi obyektlərə nam və rəğbət, inamsızlıq və ya antipatiya.

Siyasi sistem və ya onun ayrı-ayrı ünsürləri, idarəçilik metodları, çəxsiyyətin siyasi mövqeyinin obyektidir. D.İstonun fikrincə siyasi

sosiallaşma nəzəriyyəsində mühüm cəhətlərdən biri bu prosesin varisliyinin gözlənilməsidir. E.Erikson, E.Fromm siyasi sosiallaşma hadisəsinin psixi analiz istiqamətində təhlil edirlər. tədqiqatçıların fikrincə siyasi fəaliyyətdə təhtəlşüur mühüm rol oynayır. Yəni sosiallaşma insanın hiss və təsəvvürlərinin gizli şəkildə siyasiləşməsidir. C.Risman "Kütlə içərisində tülkü əsərində" şəxsiyyətin siyasətə qoşulmasını "siyasi maraq" və "siyasi apatiya" mexanizmlərinə aid edir. Siyasi maraq insanın siyasi proseslərdən iştirakını göstərir. Siyasi apatiya isə onun siyasətə marağının olmamasını ifadə edir.

Siyasi sosiallaşmanın əsas tipləri:

- siyasi sosiallaşmanın harmonik tipi. Bu tipdə insan hakimiyyət təssadlarına normal münasibət göstərir qanun qaydlara dəqiq riayət edir dövlətə rosional və səmimi münasibət göstərir habelə, özünün məsuliyyətini dərk edir.
- Plyuralist tip. Bu tipdə hər bir fərd cəmiyyətin digər üzvləri ilə hüquqca bərabərdir onların hüquq və azadlıqlarının

# XVI. BEYNƏLXALQ MÜNASİBƏTLƏR

Dünyada mövcud olan bütün dövlətlər milli maraqlarını qorumaq üçün dövlətlərlə 2 tərəfli və çoxtərəfli münasibətlər qurur. Bu münasibətlər ticarət, iqtisadi, siyasi, sosial, milli təhlükəsizlik, hərbi və mədəniyyət müansibətlərini əhatə edir. Dövlətlərarası əlaqələr nəticəsində beynəlxalq münasibətlər yaranır. Beynəlxalq münasibətlərin dövlətlərarası əlaqəsi XVI-XVII əsrlərə təsadüf edir. Beynəlxalq münasibətlər dedikdə dövlətlər, beynəlxalq təşkilatlar, cəmiyyət, transmilli korporasiyalar arasında müxtəlif səviyyələrdə və formalarda həyata keçirilən 2 tərəfli və çoxtərəfli əlaqə və münasibətlər sistemi başa düşülür.

Çoxtərəfli münasibətlər beynəlxalq və regional təşkilatlar əsasında yaranır. Beynəlxalq münsibətlərin əsas qarşısına qoyduğu məqsəd dünya dövlətləri arasında əməkdaşlıq və əlaqələr yaratmaqdır. Beynəlxalq əməkdaşlıq beynəlxalq münasibətlərin məzmununu, bu münasibətlərin istiqamətini, dərəcəsini və inkişaf səviyyəsini əks etdirir və həmçinin siyasi, iqtisadi, mədəni sahələrdə məqsədyönlü əlaqələrdə səciyyələnir. Beynəlxalq münsibətlər sahəsində dövlət hakimiyyətinə ekvivalent vahid mənəvi hakimiyyət qurumu, sərəncam verən struktur mövcud deyil. Beynəlxalq münsibətlər fəaliyyət kimi deyil, qarşılıqlı fəaliyyət kimi özünü təsdiqləyir.

Beynəlxalq münsibətlər dünyanın müxtəlif coğrafi məkanlarında baş verir. Coğrafi məkanın əlverişli olması dövlətlərarası rəqabəti gücləndirir. Beynəlxalq münsibətlərin anlayışının məzmununu onun sahələri və bu münasibətlərdə iştirak edən tərəflər təşkil edir. Beynəlxalq münsibətlərin inkişafı onun iştirakçıları arasında qarşılıqlı

əlaqə və münasibətlər sahəsinin genişlənməsində özünü göstərir. Müasir beynəlxalq münsibətlər hüquqi normalarla tənzimlənir və onlar bir-birilə vəhadət təşkil edirlər. Beynəlxalq siyasət, beynəlxalq hüquq normalarının sayəsində fəaliyyət göstərir. Beynəlxalq hüquq normaları beynəlxalq davranışı tənzim edir və qeyri-demokratik dövlətin demokratik rejimlə əvəz olunmasını təmin edir. Beynəlxalq hüquq milli hüquqlardan fərqlənir. Belə ki, milli hüquq bir dövlətin daxili və xarici siyasətini tənzim edirsə, beynəlxalq hüquq dünya dövlətləri tərəfindən qəbul edilir və dünyada baş verən siyasi prosesləri, beynəlxalq hüquq münasibətlərini tənzim edir.

Beynəlxalq hüququn əsas prinsipləri:

- Güc tətbiq etməmək və güclə hədələməmək
- Beynəlxalq münasibətləri dinc yolla həll etmək
- Sərhədləri pozmamaq
- Ərazi bütövlüyü
- Əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi
- Dövlətlərin bir-birilə əməkdaşlıq etməsi
- Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi

Beynəlxalq münasibətlərin tarixi formaları:

1. Beynəlxalq münsibətlərin ilkin forması (XVI-XVII)
2. Sənaye dövrünün beynəlxalq münasibətləri (XIX-XX əsrin I yarısı)
3. Müasir beynəlxalq münasibətlər

İlk beynəlxalq münasibətlər müqaviləsi 1648-ci ildə Vestival sülhü müqaviləsidir və bu müqavilədən sonra milli dövlətlər yarandı, kral hakimiyyətini əvəz etdi. Milli dövlətlər beynəlxalq münsibətlərin

subyekti kimi dünyadakı siyasi prosesləri əvəz edən iştirakçı oldu və parlament əsas qanunvericilik funksiyasını yerinə yetirdi. Dövlətin xarici siyasəti başqa dövlətlərlə münasibətlər parlamentində müzakirə olunurdu və qərar qəbul edilirdi. Beynəlxalq münsibətlərin 1-ci dövrünün əsas səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

- Fasiləsiz müharibələr yeni dövlətlər və yeni siaysi rejimlərin meydana gəlməsinə səbəb olur ki, bu da beynəlxalq münasibətlərin qeyri-sabit olmasına gətirib çıxarır,
- Beynəlxalq münasibətlərin iştirakçıları azlıq təşkil edirdi (əsasən Osmanlı İmperiysı, Rusiya, İngiltərə, Roma İmperiyası, Fransa və s.),
- Beynəlxalq münasibətlər müəyyən hüquqlar əsasında deyil, hakimiyyətdə olan sülalənin şəxsi münasibətlərin əsasında qurulması,
- Beynəlxalq münasibətlər dövlətlərin hərbi və siyasi sahələrini əhatə edirdi.

Beynəlxalq münasibətlərdə yaranan sistem Versal sistemidir. Dünyada bütün sahələrdə - sənayedə, texnologiyada, əmtəə və kapital ixracında dünya bazarı uğrunda müharibələrə səbəb oldu. Almaniya, Osmanlı imperiyası, Avstriya-Macarıstan kimi dövlətlər parçalandı. Qalib gələn dövlətlər dünyanı yenidən nizamlamaq üçün 1919-cu ildə Versal sistemini yaratdılar. Bu sistemin yaranmasında ABŞ, Fransa, İngiltərə kimi dövlətlər fəal iştirak etdilər və onlar 44 dövlətin razılığı ilə 1921-1922-də Vaşinqton toplantısında "Millətlər liqası" yaratdılar. Bu liqa beynəlxalq hüquq normalarını müəyyən etdi. Beynəlxalq hüquq

norması dövlətlərarası sülhün qorunması, işğalçı dövlətlərə qarşı sanksiyaların tətbiq edilməsi, mübahisəli məsələlərin sülh yolu ilə həll edilməsi, hərbi müdaxilənin qarşısının alınması kimi çox mühüm funksiyaları yerinə yetirməyi öhdəliyə götürmüşdülər. Beynəlxalq münasibətlərin tarixi formasının səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

- Beynəlxalq münasibətlərin iştirakçılarının sayının artması nəticəsində milli dövlətlər arasında iqtisadi, siyasi və hərbi sahədə əməkdaşlıq,
- Beynəlxalq münasibətlərin rolunda baş verən dəyişikliklər hüquq normalarının meydana çıxması ilə izah olunur,
- Yeni yaranan beynəlxalq təşkilatlar da beynəlxalq münasibətlərin iştirakçıları kimi çıxış edir,
- Beynəlxalq əlaqələrin sahələrində mədəni, iqtisadi və siyasi əlaqələrin yaranması,

II Dünya müharibəsindən sonra ABŞ, Fransa, SSRİ və İngiltərə kimi dövlətlərin başçılarını Postdam konfransında iştirak etmələri nəticəsində “Postdam” sistemi yarandı. 1945-ci ildə San Fransisko konfransında iştirak edən 50 dövlətin nümayəndələri BMT-in nizamnaməsində sülh və təhlükəsizlik, insan hüquqlarının qorunması, ümumi maraqların razılaşdırılması, millətlərarasında dostluq və əməkdaşlıq kimi məsələləri irəli sürdülər. Lakin dünyada baş verən yeni siyasi proseslər, yəni qeyri-demokratik rejimdən demokratik rejimə keçməsi nəticəsində yeni dövlətlərin meydana gəldi. (sovet imperiyası süqut etdi). Bu proseslər dövlətlər arasında münaqişələrə son qoydu.

Müasir beynəlxalq münasibətlərin səciyyəvi xüsusiyyətləri:

- Beynəlxalq münasibətlərin iştirakçıları arasında hüquq normalarına uyğun olaraq bərabər əməkdaşlıq, partnyorluq münasibətlərinin olması,
- Bu dövrdə yaranan ümumdünya mərkəzlərinin beynəlxalq münasibətlərə nəzarət etməsi,
- Dövlətlərarası əlaqələrin rəngarəng olması,
- Əvvəlki dünya sistemləri müharibələr nəticəsində baş verərdisə, yeni sistemin müharibələrsiz meydana gəlməsi,
- Demoratikləşmə sisteminin genişlənməsi,
- Qloballaşma nəticəsində dünya dövlətləri arasında sosial-siyasi, mədəni, iqtisadi sahələrdə inteqrasiya prosesinin güclənməsi,
- Qloballaşmanın ABŞ-ın hegemonluq  siyasətilə həyata keçirilməsi,
- Beynəlxalq terrorizmin etnik – dini, sivilizasiya sahəsində ziddiyyətlərin kəskinləşməsi.

**Beynəlxalq münasibətlər nəzəriyyələri**

Beynəlxalq münasibətlərin aşağıdakı nəzəriyyələri mövcuddur:
Siyasi realizm (Morgentau), müharibə və sülh (R. Aron), amillər nəzəriyyəsi (K. Rayt), beynəlxalq tarazlıq (C. Liski), milli mənafelər (L. Kaplan), qloballaşma nəzəriyyəsi (R. Robertson), sivilizasiyaların toqquşması nəzəriyyəsi (S. Kantiqlon), geosiyasət nəzəriyyəsi (Z. Bjenski). Morgentunun fikrincə beynəlxalq münasibətlərin əsasını dünyaya sahib olmaq uğrunda mübarizə təşkil edir. Hansı dövlət

güclüdürüsə oda qalibdir. Morgentaunun beynəlxalq münasibətlərdə siyasi realizm nəzəriyyəsi haqqında başlıca ideyaları aşağıdakılardır:

- Beynəlxalq münasibətlər hakimiyyət və dünya sahibliyi uğrunda mübarizədir,
- Beynəlxalq münasibətlərdə siyasi realizmi şərtləndirən əsas amil hakimiyyət kateqoriyasında ifadə olunan mənafe anlayışıdır,
- Beynəlxalq münasibətlər sahəsində əxlaqi dəyərlərlə səmərəli siyasi fəaliyyət arasında ziddiyətlərin açılması obyektiv reallığın xüsusi halı kimi dərk edilməlidir,
- Siyasi realizm insan təbiətinə dair müraciət dair plüralist mövqedən çıxış edir. Utonist və idealist ideyaları qəbul etmir.

Sülh və müharibə konsepsiyasının Raymon və Aron tərəfindən aşağıdakı prinspləri işlənib hazırlanmışdır:

- Beynəlxalq münasibətlər dövlətlər arasında münasibətlər kimi dərk edilir və simvolik fiqurların davranışında öz ifadəsini yayır. Beynəlxalq münasibətlərdə dövləti konkret şəraitdən asılı olaraq ya əsgər (müharibə şəraitində), ya da diplomatiya təmsil edir,
- Dövlətlər arasında münasibətlərin inkişafı ölkələrin daxili həyatında baş verən hadisələrin təsiri ilə müəyyən edilir. Müharibələrin dəyəri ya dövlətin mövcud olması, ya da ki məhv və  yaradılmasıdır,
- Beynəlxalq münasibətlər diploamtiya və  müharibə kimi

amillərlə şərtləndirildiyindən rasional davranış mümkün deyil,

- Dövlətlər arasında əlaqələrin genişlənməsi və əməkdaşlığın əhəmiyyəti II dünya müharibəsi zamanı artmışdır,

Beynəlxalq tarazlıq nəzəriyyəsinin müəllifi Corc Liskindir və ona görə əsas səciyyəvi cəhətlər bunlardır:

- Hər bir dövlət özünün sabitliyini təmin etmək üçün müvafiq müxanizm hazırlayır,
- Sabitliyin təmin edilməsində başlıca alət təsisatlanmış tarazlıqdır,
- Beynəlxalq təşkilatlar təhlükəsizliyin bərabər sürətdə təmin olunmasında, ümumi rifahın yüksəldilməsində dövlətlərdən daha səmərəli və təsirli rol oynayır

Qloballaşma nəzəriyyəsinin müəllifi R. Robertsondur (ABŞ). Onun fikrincə beynəlxalq münasibətlər və qloballaşma prosesi çox yüksək təsirə malikdir. Robertson dünya dövləti yaratmaq ideyasını irəli sürür, çünki belə vəziyyətdə vahid qanunlar, normalar və ümubəşəri dəyərlər formalaşır. Qloballaşma prosesində hegemonluq zorakılığın tətbiqi siyasət düzgün olmayan siyasət hesab olunur. Dünyanın gələcək inkişafı beynəlxalq münasibətlərdə dövlətlərin yaranması ədalətli əməkdaşlıq, iqtisadi inteqrasiya qloballaşmasının əsas prinsipidir.

Milli mənafe nəzəriyyəsinin müəllifi İ. Kaplandır. Müəllif beynəlxalq münasibətlər tarixi, hüquqi, əxlaqi və digər normativ kateqoriyalar konteksində nəzərdən keçirərkən milli mənafeləri beynəlxalq mənafelərdən üstün tutur. Beynəlxalq münasibətlərdə iştirak

edən hər bir dövlət özünü öz milli mənafelərini və milli maraqlarını qoruyur. Lakin milli mənafeni üstün tutan bu təlim beynəlxalq hüquq normalarını lazım olan səviyyədə qiymətləndirmir. Əgər beynəlxalq münasibətlərdə zor gücünə bir dövlətin millli mənafeyinə üstünlük verilərsə münaqişə yaranır.

Amirlik nəzəriyyəsinin banisi Kaunski Raytdır. Onun fikrincə, amillərin hərəkatı beynəlxalq münasibətlər yaradır ki, maddi amillər onun qüdrətini, mənəvi amillər isə istiqamətini təyin edir.

Əlaqələr nəzəriyyəsinin müəllifi Y. Kaltuanquandır. O, beynəlxalq münasibətlərdə sistem şəklində çıxış edən kollektivləri tədqiq etməklə öyrənir. Bu nəzəriyyə kollektivlər arasında əlaqələrin strukturunu, onların rəhbərlərinin şəxsiyyətini aydınlaşdırır. Müəllif beynəlxalq münasibətləri təcrid olunma, yaxınlaşma və inteqrasiya kateqoriyaları kontekstində öyrənir. Münaqişə nəzəriyyəsinin yayılmasına 60-ci illərin "soyuq müharibəsi" təsir edib, "soyuq müharibə" etirazlarının azalması ilə münaqişə nəzəriyyəsinin əvvəlki mövqeyi zəiflədi.

Geosiyasi nəzəriyyənin müəllifi Z. Bjeynisidir. Müəllif soyuq müharibələrdən sonra dünyanın yenidən nizamlanmasının geosiyasi prinsiplərini irəli sürür. O, orta şərqi, İran körfəzini, postsovet ölkələrinin cənub regionunu geosiyasi baxımından qeyri-sabit məkan adlandırır. Müəllif Azərbaycanı geosiyasi baxımdan əlverişli hesab edir. Geosiyasi baxımdan fəal dövlətlər dünya siyasətinə güclü təsir edirlər.

## Xarici siyasət anlayışı

Xarici siyasət – beynəlxalq sahədə maraqların həyata keçirilməsi və ödənilməsi zəminində dövlətin və cəmiyyətin başqa

siyasi təşkilatlarının fəaliyyətidir.

Xarici siyasət – digər dövlətlərin davranışın təsir göstərmək və ya öz davranışını beynəlxalq mühitə uyğunlaşdırmaq üçün dövlətin həyata keçirdiyi fəaliyyət sistemidir. Xarici siyasətin başlıca məqsədi milli maraqların müdafiəsidir.

Xarici siyasətin həyata keçirilməsinin bir çox vasitələri mövcuddur ki, onların içində ən əhəmiyyətlisi diplomatiyadır.

Müharibələr də xarici siyasətin həyat keçirilmə vasitələrindəndir.

Xarici siyasətə nəzarət dövlət başçısının, hökumət və parlamentin əlində olur. Lakin bir başa rəhbərliyi Xarici İşlər Nazirliyi həyata keçirir.

Xarici siyasətin 9 qaydası var:

1. Diplomatiya səlib ruhundan azad olmalıdır.

2. Xarici siyasətin hədəfləri milli maraqlar baxımından müəyyən edilməli və adekvat güc ilə dəstəklənməlidir.

3. Diplomatiya siyasi səhnəyə 3-cü dövlətin gözü ilə baxmalıdır.

4. Dövlətlər onlar üçün əhəmiyyəti olmayan bütün məsələlərdə güzəştə olmalıdır.

5. Gerçək səmərə dəyərsiz simvolik hüquqlara dəyişdirilməməlidir.

6. Özünü elə bir vəziyyətə salma ki, sonra böyük risklər almağı və ya simanı itirmək bahasına həmin mövqedən çəkinməyəsən.

7. Zəif müttəfiqlərin sənin əvəzinə qərar verməsinə heç vaxt imkan vermə.

8. Silahlı qüvvələr siyasətin rəhbəri yox alətidir.

9. Hökümət ictimai rəyin köləsi olmalı deyil, əksinə onu yönəltməyi bacarmalıdır.

Beynəlxalq münasibətlər elmində neorealist məktəbin nümayəndələri iddia edir ki, xarici siyasətin formalaşmasında daxili siyasət heç bir rol oynamır.

Kennet Volts buna misal kimi soyuq müharibə illərində Sovet və ABŞ xarici siyasətini nümunə göstərir. Belə ki, siyasi və sosial iqtisadi quruluşlarında hakim ideologiyalarında fundamental fərqlər və ziddiyətlər olmasına baxmayaraq, hər iki dövlət demək olar ki, oxşar siyasət yürüdürdü.

**Azərbaycan Respublikasının xarici siyasət strategiyası**

**1.** Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tezliklə bərpa olunması üçün müstəqil xarici siyasət yeritmək,

**2.** Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, siyasi müstəqilliyinə qarşı yönəlmiş təhlükələrin aradan qaldırılması,

**3.** Qonşu ölkələrlə mehriban və qarşılıqlı faydalı əhəmiyyət kəsb edən münasibətləri inkişaf etdirmək,

**4.** Regionda təhlükəsizliyin və sabitliyin gücləndirilməsi

**5.** Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması,

**6.** Bazar iqtisadiyyatı və qanunun aliliyinə əsaslanan plüralist demokratiyanı inkişaf etdirmək,

**7.** ATƏT-in Lissabon samiti prinsipləri əsasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar yolu ilə həll edilməsi.

## XVII. Müsair dövrün qlobal siyasi problemləri

Bir termin kimi qloballaşma 1963-cü ildə kanadalı alim Marşal Mak Luhan tərəfindən işlənib. Ancaq bəzi tədqiqatçıların fikrincə, qloballaşma termini 1980-ci illərdən başlayaraq ABŞ-ın Kolumbiya Universitetində istifadə olunmuş leksikona daxil olub .”Qlobal” sözü fransız dilindən tərcümədə “hərtərəfli, bütöv” mənasını verir, latınca isə “qlobal” sözünün mənası Yer kürəsi anlamını ifadə edir. Deməli, qloballaşma Yer kürəsini hərtərəfli əhatə etdirən, tamamlayan və nəzarətdə saxlayan, ümumdünya formasında təzahür edən bir prosesdir.

Bəşəriyyətin sosial-mədəni, iqtisadi, siyasi və digər əlaqələrin vahid bir sistemə daxil olmasını özündə birləşdirən qloballaşma, həmçinin bütün ictimai, sosial-mədəni proseslərin Yer kürəsində beynəlmiləl xarakter daşıyır. Qloballaşma müxtəlif ictimai-sosial qruplar arasında düşüncə tərzini formalaşdırır. Qloballaşma prosesini xarakterizə edən bir neçə detodoloji yanaşma formalaşmışdır. Birinci metodoloji yanaşma, iqtisadi artma və çiçəklənmə dövrü ilə bağlıdır (R. Darendorf, F. Nuşeller, B. Geyts, B. Klinton və b.). Bu metodoloji yanaşmanın tərəfdarlarının fikrincə, bəşəriyyəti narahat edən qlobal problemləri qloballaşma prosesi ilə aradan qaldırmaq olar. İkinci metodoloji yanaşma qlobal multimədəni cəmiyyət dövrü ilə sıx bağlıdır. Ən parlaq nümayəndəsi Samuel Hantinqtondur. Onun fikrincə, qloballaşma dünyada münaqişə ocaqlarının artmasına səbəb olur, belə ki, dünya nisbətən kiçik sistemlərin – mədəni etnik sivilzasiyaların münaqişə ocağına çevrilir. Üçüncü metodoloji yanaşma sosium sistemli transformasiya yanaşması ilə xarakterizə olunur. Bu yanaşmanın nümayəndələri əsasən siyasi sahədə baş verən dəyişikliklərə fikir verirlər. Onların fikrincə, qloballaşma milli-mədəni inteqrasiya

prinsiplərinə söykənən ənənəvi siyasi qaydaların sona çatmasıdır. Dördüncü metodoloji yanaşmanın nümayəndələri qloballaşmanı mədəniyyət və ənənələrin labüd sonu kimi səciyyənləndirirlər.

Azərbaycanın tanınmış filosofu A. Şükürovun fikrincə “soyuq müharibə sistemini əvəz edən qloballaşma” dünya iqtisadiyyatında yeni təsərrüfat sistemidir. İdeoloqlar qloballaşma prosesinin başa çatdığını təsdiq etmirlər və söyləyirdilər ki, qloballaşma qarşısıalınmaz bir prosesdir. Sosialist iqtisadiyyatı isə mənasızlığına görə süqut uğradı.

İnformasiya texnologiyalarının inkişafı qloballaşma prosesinə çox müsbət təsir göstərib. Bununda ən bariz nümunəsi məsafə anlayışıdır.

Qloballaşma prosesi inkişaf prosesində bir neçə mərhələdən keçib:

1-ci mərhələyə dünyada baş verən müharibələrin gətirdiyi sosial-siyasi dəyişikliklər və əhalinin təbii miqrasiyasının başlaması aiddir.

2-ci mərhələyə Yer kürəsində müxtəlif xalqlar və ölkələr arasında ticarət və iqtisadi əlaqələrin yaranmasına səbəb olan coğrafi kəşflər aiddir.

3-cü mərhələyə isə inhizar kapitlazminin bazasında həyata keçməsi aiddir.

Qloballaşma prosesinin inkişafına etnik və dini qarşıdurmalar, böhranlı hadisələr mənfi təsir edir.

Ulu öndərimiz Heydər Əliyev demişdir: “Dünyada inkişafın başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heçdə birmənalı olmayan prosesin prespektivliliyi bizim hamımızı düşündürür. Qloballaşma

dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına iqtisadi münasibətlərdə ayrıseçkiliyin aradan qaldırılmasına, xalqların rihaf halının yüksəldilməsinə kömək etməlidir”.

Qloballaşma prosesi milli mədəniyyət və ənənələrin təsir qüvvəsini məhdudlaşdıraraq milli mentalitlər arasındakı keçilməz səddləri məhv edir. Qloballaşma prosesini inkişafına geniş əraziləri əhatə edən imperiyaların mövcud olması və dünya dinlərinin yaranmasında təsirini göstərmişdir. Qloballaşma suveren dövlətlər arasında qeyri-bərabərliyi aradan qaldırmağa və hər şeydə milli iqtisadiyyaların dirçəldilməsi prosesini sürətləndirir və vahid iqtisadi sistemə qoşulmasını təmin edir. Qloballaşma termini tərəfindən düzgün istifadəni ölkələr arasındakı hərtərəfli iqtisadi əlaqələrin möhkəmlənməsinə müsbət təsir göstərir.

Qloballaşma prosesinin müsbət cəhətləri ondan ibarətdir ki, insanların milli mənsubiyyətindən və vətəndaşlığından asılı olmayaraq ümumbəşəri dəyərləri paylaşması, bütün dövlətlərə qlobal problemin və layihələrdə iştirak etmək fürsətinin verilməsi, aparıcı dövlətlər tərəfindən varlı ölkələr arasında fərqlərin aradan qaldırılması, cəmiyyət və təbiət probleminin həll edilməsində müştərək iştiraka şəraitin yaradılması qloballaşma prosesinin müsbət cəhətlərindən biri də cəmiyyətin demokratikləşməsi və dünyagörüşünün geniş məzmunu kəsb etməsi, informasiya yeniliklərinin sürətlə yayılması, terrorçuluğa və narkomaniyaya qarşı birgə mübarizənin təşkil edilməsidir.

Lakin qloballaşmın mənfi cəhətləri də mövcuddur ki, bunlara da siyasi, iqtisadi, ekoloji və sosial problemləri misal göstərmək olar.

Məsələn, siyasi problemlərə ümumdünya cinayətkar cəmiyyətlərin meydana gəlməsi, nüvə silahlarının geniş yayılması, iqtisadiyyatda dövlət nəzarətinin çətinliyi, dövlətlərarası iqtisadi asıllıq, inflyasiya, işsizliyin artması və s.

Miqrasiya mədəniyyətdə milli-mənəvi dəyərlərin aşınması, sosial problemlərin yaranmasına gətirib çıxarır. Ekologiyaya qarşı insan müdaxiləsinin güclənməsi ekoloji problemlərə yol açır. Cəmiyyətdə psixoloji problemlər daim insan psixikasını narahat edir ki, burada qlobal psixoloji amillər olan stress, affentlər, depresiyalar, şizofreniyalar, apatiyalar, fobiyalar aiddir. Bu qlobal psixolji amillər nəticəsində ailələr dağılır, ailə-məişət narazılığı, narkomaniya kimi mənfi fəsadlar ortaya çıxır. Humanist dəyərlər korlanır.

Qloballaşma prosesi əsasında inkişaf etmiş dövlətlərin qazandığı uğurlara nail olmaqdır.

Ümumbəşəri əhəmiyyət kəsb edən qlobal problemlərin həlli üçün bütün Yer kürəsində olan dövlətlərin birləşməsi, ümumdünya miqyasında birgə əməkdaşlıq kimi amillər əsas rol oynayır.